Bayramınız mübarək, əziz qadınlar!

Xalqın qəzeti!

Xalq qəzeti

№ 44 (31013) 7 mart 2026-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

Yaxının xəyanəti, uzağın sədaqəti

Səhifə ⇨ 5

8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik

Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hamınıza cansağlığı, səadət və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Azərbaycan xalqı qadın adını hər zaman zərifliyin, gözəlliyin, ülviyyətin rəmzi bilmiş və ona dərin ehtiram göstərmişdir. Mübarizələrlə dolu böyük keçmişimiz qadınlarımızın müdrikliyi, fədakarlığı və qəhrəmanlığının parlaq nümunələri ilə zəngindir. Hər bir azərbaycanlının qəlbində məhz Ana məfhumu daim doğma yurdla, Vətən torpağı ilə bağlı işıqlı duyğular yaradır. Bəşər mədəniyyəti xəzinəsinə töhfəmiz olan milli-mənəvi dəyərlərimizin bir bütöv halında qorunub saxlanılmasında, dilimizin əsrlərin sınağından çıxaraq layiqincə yaşadılmasında analarımızın misilsiz xidməti vardır.

Ölkəmizdə tarixən qadının cəmiyyət həyatında fəal iştirakına həmişə rəğbət və hörmətlə yanaşılmışdır. Azərbaycan qadınlarının bir çox qabaqcıl dünya ölkələri qadınlarından daha əvvəl seçib-seçilmək hüququ əldə etmələri bu mütərəqqi münasibətin ifadəsidir. Ötən illərdə sosial-mədəni təşəbbüskarlıqları ilə yüksək ictimai mövqe və nüfuz sahibi olmuş qadınlarımız təhsil, mədəniyyət, səhiyyə və elm sahələrində bu gün də uğurla çalışmaqdadırlar. Maarifpərvər sələflərinin ənənələrini davam etdirən xanımlarımızın ölkənin müasir simasının müəyyənləşməsinə yönəlmiş çoxsaylı nailiyyətləri müstəqillik salnaməmizin qürurverici səhifələridir.

Əminəm ki, qadınlarımız gənc nəslin Vətənə və milli ideallara sədaqət ruhunda tərbiyəsi üçün bundan sonra da qüvvələrini əsirgəməyəcək, ictimai-mənəvi mühitimizə yeni töhfələr bəxş edəcəklər.

Əziz xanımlar!

Bayramınız mübarək olsun!

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 mart 2026-cı il

Qana Respublikasının Prezidenti Zati-aliləri cənab Con Dramani Mahamaya

Hörmətli cənab Prezident!

Qana Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Qana arasında münasibətlərin inkişafı, əməkdaşlığımızın genişlənməsi yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost Qana xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

Hörmətlə,

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 mart 2026-cı il

Qarşılıqlı dəstək Azərbaycan – Moldova dostluğunu daha da möhkəmləndirir

Prezident İlham Əliyev Moldovanın Baş nazirinin müavinini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Moldova Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Mixay Popşoini qəbul edib.

Qəbula görə dövlətimizin başçısına təşəkkür edən Mixay Popşoi Moldova Prezidenti Maya Sandunun salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Maya Sanduya çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev beynəlxalq təşkilatlar çərçivəsində Moldovanın dövlət başçısı ilə görüşlərini və aparılmış müzakirələri məmnunluqla xatırladı.

Mixay Popşoi İranın pilotsuz uçuş aparatları ilə Azərbaycana qarşı törətdiyi hücumları Moldovanın qətiyyətlə qınadığını dedi, bu məsələdə ölkəmizlə həmrəy olduqlarını vurğuladı. O, hücum zamanı xəsarət alanların tezliklə sağalmasını arzuladı.

Xalqlarımız arasında dostluq münasibətlərinin mövcud olmasını məmnunluqla qeyd edən qonaq dedi ki, Moldovanın çətin günlərində Azərbaycanın dəstəyini həmişə xatırlayırlar və bunu yüksək qiymətləndirirlər.

Prezident İlham Əliyev nümayiş olunan mövqeyə görə təşəkkür etdi.

Söhbət zamanı Azərbaycanın və Moldovanın daim bir-birilərinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədikləri məmnunluqla qeyd olundu, ikitərəfli münasibətlərimizin inkişafı, o cümlədən siyasi, iqtisadi-ticari, enerji və digər sahələrdə əməkdaşlığın dərinləşdiyi vurğulandı, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin əlaqələrimizin genişlənməsində roluna toxunuldu. Bu xüsusda Mixay Popşoinin səfərinin uğurlu olacağına əminlik bildirildi.

Söhbət zamanı beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, siyasi dialoqun intensivləşdirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıldı.

AZƏRTAC

Qlobal güclərin "dəhliz" maraqları

Cənubi Qafqazdakı nəqliyyat və kommunikasiya xətləri artıq, sadəcə, iqtisadi layihə və ya ticarət marşrutu olmaqla kifayətlənmir. Onlar həm siyasi nüfuzun, milli təhlükəsizliyin, həm də regionda yeni geostrateji tarazlığın əsas göstəricisinə çevrilib. Hər yeni dəmir yolu layihəsi yalnız yük daşımaları üçün deyil, həm də regional güc balansını formalaşdırmaq və beynəlxalq oyunçuların təsirini göstərmək üçün alət rolunu oynayır.

ABŞ-ın Vitse-prezidenti Ceyms Vensin Bakı və İrəvana səfərləri göstərdi ki, dəmir yollarına nəzarət artıq, sadəcə, iqtisadi maraq deyil, Cənubi Qafqazın gələcək siyasi və iqtisadi xəritəsi uğrunda gedən mübarizənin mərkəzində duran strateji məsələdir. Vaşinqtonun irəli sürdüyü TRIPP layihəsi Moskvanın iştirakı olmadan Orta Dəhlizi rəqəmsallaşdırmaq, Mərkəzi Asiyanı birbaşa Cənubi Qafqaz üzərindən Avropa bazarlarına bağlamaq və regionun Rusiyadan nəqliyyat asılılığını azaltmaq məqsədini daşıyır. Layihə yalnız yükdaşımaların sürətini artırmaqla kifayətlənmir, o, həm də regionda Qərb standartlarına uyğun vahid hüquqi və logistik mühit yaratmaqla strateji üstünlük əldə etməyə yönəlib.

(ardı 6-cı səhifədə)

Azərbaycan dünyada tək deyil

Səhifə ⇨ 5

İranı kim idarə edir?

Səhifə ⇨ 4

Hibrid müharibə: rəqəmsal platformadan seçki qutusuna

Yerli və xarici kəşfiyyat dairələrinin son hesabatları həyəcan təbili çalır: Ermənistanda cari il iyunun 7-də keçiriləcək parlament seçkiləri yaxınlaşdıqca, ölkəyə qarşı aparılan gizli savaş daha sistemli, genişmiqyaslı və təhlükəli xarakter almağa başlayıb.

(ardı 6-cı səhifədə)

Buzlaqlar ərisə də, su qıtlığı kəskinləşir

Səhifə ⇨ 8

"Qafqazın Xirosiması" ağ günlərinə qayıdır

Səhifə ⇨ 12

Dünya mediası İranın Azərbaycana hücumunu qınayır

Tehranın təxribatçı addımı beynəlxalq informasiya məkanını silkələyib

Martın 5-də İranın Azərbaycana dronlarla hücum etməsi beynəlxalq mediada geniş rezonans doğurub. Dünyanın aparıcı nəşrləri baş verənləri diqqətlə izləyərək müxtəlif aspektlərdən təhlil edirlər. Bir çox nüfuzlu media qurumları hadisənin regional təhlükəsizlik və siyasi nəticələrinə xüsusi diqqət ayırır. Bəzi beynəlxalq informasiya agentlikləri və analitik platformalar isə hadisənin Cənubi Qafqaz və Yaxın Şərqdə təhlükəsizlik balansına təsirini ön plana çıxarırlar.

Eyni zamanda, Prezident İlham Əliyevin bu məsələ ilə bağlı Təhlükəsizlik Şurasının həmin gün keçirilən iclasındakı çıxışı dünyanın aparıcı media orqanlarının diqqət mərkəzindədir. Almaniya mediası dövlətimizin başçısının çıxışından əsas məqamları işıqlandırıb. "Morgenpost", "Börsen News", "FLZ. News", "Tagesspiegel", "Frankfurter Rundschau", "Wirthschau Woche", "Die Zeit", "Ad Hoc News", "Cash", "Sarganserlander", "Ostfriezen Zeitung" qəzet və portallarının materiallarında Naxçıvanda hava limanının, orta məktəb binasının və digər mülki obyektlərin dron hücumuna məruz qaldığı diqqətə çatdırılıb.

Britaniya mediası Prezident İlham Əliyevin İranın hücumu barədə səsləndirdiyi fikirləri işıqlandırıb. "The Independent" nəşri yazır ki, Azərbaycan Prezidenti dron hücumlarından sonra ölkənin təhlükəsizliyinə təhdid yaradan qüvvələrə qarşı qətiyyətli mövqe nümayiş etdirəcəyini bəyan edib. Nəşr dövlətimizin başçısının "Azərbaycanın gücünü sınayanlar "Dəmir yumruq"la əziləcək" sözlərinə yer ayırıb.

(ardı 2-ci səhifədə)

Prezidentin Mətbuat Xidmətinin məlumatı

Martın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç arasında telefon danışığı olub.

Söhbət zamanı Yaxın Şərqdəki mövcud vəziyyət barədə fikir mübadiləsi aparılıb, vəziyyətin daha da gərginləşməsindən narahatlıq ifadə olunub.

Telefon danışığı zamanı İran tərəfindən Naxçıvana qarşı törədilən dron hücumları pislənilib.

Söhbət zamanı Prezident İlham Əliyev Serbiyanın dövlət başçısını ad günü münasibətilə təbrik edib.

Aleksandar Vuçiç göstərilən diqqətə görə Azərbaycan Prezidentinə minnətdarlığı bildirib.

Dövlət başçıları ölkələrimiz arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin inkişafını məmnunluqla vurğulayıb, əməkdaşlığın perspektivlərini müzakirə ediblər.

***

Martın 6-da Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Pakistanın Baş naziri İranın Azərbaycana qarşı hərbi hücumunu və terror aktlarını qınadığını bildirib, bu çətin gündə Pakistan dövləti və ordusunun Azərbaycan dövləti və

ordusunun yanında olduğunu qeyd edib, Azərbaycanın Pakistana hər zaman güvənə biləcəyini deyib. Məhəmməd Şahbaz Şərif Azərbaycan-Pakistan dostluğu və qardaşlığının davam edəcəyini vurğulayıb.

Dövlətimizin başçısı göstərilən dəstəyə və həmrəyliyə görə minnətdarlığını bildirib. Prezident İlham Əliyev Azərbaycanın qardaş Pakistanın haqq işini hər zaman müdafiə edəcəyini deyib. Dövlətimizin başçısı qeyd edib ki, İran tərəfindən Azərbaycana qarşı törədilmiş bu terrorun Pakistan tərəfindən şiddətlə qınanılması Azərbaycan-Pakistan dostluğunu bir daha əks etdirir.

Azərbaycan Prezidenti və Pakistanın Baş naziri yaxşı və çətin günlərdə ölkələrimizin daim bir-birinin yanında olduqlarını və istənilən qarşılıqlı dəstəyi verməyə hazır olduqlarını vurğulayıblar.

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Naxçıvan Muxtar Respublikasında mülki infrastruktura qarşı pilotsuz uçuş aparatları ilə həyata keçirilmiş hücum, həmçinin mülki əhalini təhlükə altına qoyan bu hadisə ilə əlaqədar Slovakiya Respublikası adından və şəxsən öz adımdan səmimi həmrəyliyimi bildirmək istəyirəm.

Biz bu hücumu qətiyyətlə pisləyirik. Bu cür davranış qəbuledilməzdir, beynəlxalq hüququn pozulmasıdır və vəziyyətin daha da gərginləşməsi riskini təhlükəli şəkildə artırır.

Slovakiya Respublikası gərginliyin azaldılmasına və məsələnin sülh yolu ilə həllinə yönəlmiş bütün səyləri dəstəkləyir.

Eyni zamanda, icazə verin, Tehrandan təxliyə olunmuş diplomatlarımıza göstərdiyiniz yardıma və qonaqpərvərliyə görə hakimiyyət orqanlarınıza səmimi təşəkkürümü bildirim. Bu çətin vəziyyətdə hakimiyyət orqanlarınızın göstərdiyi dəstəyi yüksək qiymətləndiririk.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Hörmətlə,

Peter PELLEQRİNİ,
Slovakiya Respublikasının Prezidenti

Dünya mediası İranın Azərbaycana hücumunu qınayır

(əvvəli 1-ci səhifədə)

"Daily Mail" isə yazır ki, İran tərəfindən buraxılan dronlar Azərbaycanın ərazisinə düşərək partlayışlara səbəb olub. Məqalədə qeyd olunur ki, Prezident İlham Əliyev hadisəni "terror aktı" kimi qiymətləndirərək Azərbaycanın cavab tədbirləri görmək hüququnu özündə saxladığını bildirib.

Türkiyənin "TRT World" beynəlxalq telekanalının saytında dərc olunan materialda qeyd edilib ki, martın 5-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidentinə zəng edib. Diqqətə çatdırılıb ki, Türkiyə Prezidenti İranın Naxçıvana dron hücumunu qınadığını deyib, qardaş Azərbaycan xalqına dəstəyini ifadə edib.

Qazaxıstan mediası da Prezident İlham Əliyevin TŞ-nin iclasındakı çıxışını işıqlandırıb. "Orda.kz" nəşri Azərbaycan Prezidentinə istinadla Naxçıvan ərazisinə edilən dron hücumunun mülki obyektlərə zərər verdiyini bildirib.

"Ulysmedia.kz" yazır ki, dövlətimizin başçısı İrandan izahat və üzr istəməyi tələb edib. Məqalədə qeyd edilir ki, Prezident İlham Əliyev Azərbaycana qarşı terror hücumunu Bakının bundan əvvəlki bütün addımları fonunda həddindən artıq nankorluq aktı adlandırıb. "Arbatmedia.kz" nəşri isə bildirir ki, Azərbaycan Prezidenti İran tərəfindən izahat tələb edib. Məqalədə o da qeyd olunur ki, dövlət başçısı Azərbaycanın İrana qarşı hər hansı əməliyyatda iştirakını istisna edib. "Nur.kz" yazır ki, Prezident İlham Əliyev İran tərəfindən Azərbaycana qarşı terror aktının törədildiyini bildirib.

İsveçin "Dagens Nyheter" nəşri yazır ki, Azərbaycan hakimiyyəti ölkə ərazisinə PUA-larla endirilən zərbələrə cavab vermək niyyətində olduğunu bəyan edib. Məlumatda Prezident İlham Əliyevin sözlərinə istinadən ordunun tam döyüş hazırlığı vəziyyətinə gətirildiyi və cavab tədbirləri hazırlamaq əmri aldığı qeyd olunub. Vurğulanıb ki, Bakıda bu hadisə Azərbaycana hücum kimi qiymətləndirilib və İrandan təcili izahat tələb olunub. İran səfiri XİN-ə çağırılıb. Azərbaycan cavab tədbirləri görmək hüququnu özündə saxladığını bəyan edib.

Norveçin "Aftenposten" nəşri yazır ki, Naxçıvandakı insidentdən sonra Azərbaycan izahat vermək üçün İran səfirini çağırıb. Nəşrdə, həmçinin bildirilir ki, Azərbaycan hakimiyyəti hadisə nəticəsində mülki şəxslərin zərər çəkdiyini, hava limanının terminallarından birinin zədələndiyini açıqlayıb. XİN-də vurğulanıb ki, ölkə baş verənləri hücum kimi qiymətləndirir və "müvafiq cavab tədbirləri" görmək hüququnu özündə saxlayır. "Bildirilib ki, bu hadisə beynəlxalq hüquq normalarına ziddir və regionda gərginliyin artmasına səbəb olur", – deyə məlumatda vurğulanır.

Rusiya telekanalları və nəşrləri də Azərbaycan Prezidentinin çıxışını geniş işıqlandırıb. "Birinci kanal"ın saytında dərc olunan "Prezident Əliyev Naxçıvana dron hücumunu "çirkin əməl" adlandırıb" sərlövhəli materialda qeyd olunub ki, dövlət başçısı insidentlə bağlı TŞ-nin iclasında Azərbaycan dövlətinin bu çirkin terror aktını qətiyyətlə pislədiyini, onu törədənlərin dərhal məsuliyyətə cəlb edilməli olduğunu bəyan edib.

"İzvestiya" qəzetinin "İlham Əliyev qoşunların döyüş hazırlığı vəziyyətinə gətirilməsi əmrini verib" sərlövhəli məqaləsində bildirilib ki, İran ərazisindən Azərbaycanın Naxçıvan bölgəsinə dron hücumu ilə bağlı Təhlükəsizlik Şurasının iclasını keçirən Azərbaycan Prezidenti deyib: "Bizim Silahlı Qüvvələrimiz – Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, digər bütün Xüsusi Təyinatlı Qüvvələr bir nömrəli səfərbərlik vəziyyətinə gətirilib və istənilən əməliyyatı keçirməyə hazır olmalıdırlar". Diqqətə çatdırılıb ki, dövlət başçısı İranın bu addımını "Azərbaycan dövlətinə qarşı terror aktı" adlandırıb və Tehranın məsuliyyət daşıdığını bildirib.

"Komsomolskaya Pravda", "Kommersant" qəzetləri də məsələyə öz səhifələrində yer ayırıblar. NTV, RTR, RT telekanallarının saytında yerləşdirilən videomateriallarda da Prezident İlham Əliyevin fikirləri yer alıb. Azərbaycan Prezidentinin Təhlükəsizlik Şurasının iclasında verdiyi bəyanatlar "Arqumentı i faktı", "Sputnik", "News.ru", "Yamal media", "Vzqlyad.ru", "Life.ru", "Vedomosti.ru", "Versia.ru", "360.ru", "Fontanka.ru", "Osnmedia.ru", "TVC.ru", "VM.ru", "Radio 1.ru", "Qovorit Moskva.ru" və digər media orqanlarında geniş işıqlandırılıb.

Dövlətimizin başçısının çıxışı ərəb ölkələri mediasının da diqqət mərkəzində olub. Səudiyyə Ərəbistanının "Dostor", "Al Masr al Youm", "Arab News" qəzetlərinə, "Elasoboa", "Mc-Doualiya", Tahia Masr", "Khabarfoori", "Khabarpu.com" ərəbdilli portallarında dərc olunan məqalələrdə də baş verənlər geniş işıqlandırılıb.

"Azadlıq" radiosunun və BBC telekanalının fars dilində xidmətlərinin dərc etdikləri materiallarda diqqətə çatdırılıb ki, Azərbaycan Prezidenti İranın dron hücumunu "terror aktı" adlandırıb.

Bütövlükdə, İran dövlətinin həyata keçirdiyi hücum dünya mediasında ciddi narahatlıq və kəskin tənqidlə qarşılanıb. Bir çox beynəlxalq nəşrlər bu addımı regionda sabitliyi pozan və gərginliyi artıran təhlükəli avantüra kimi qiymətləndiriblər. Analitik materiallarda vurğulanıb ki, suveren dövlətin ərazisinə qarşı belə hücumlar beynəlxalq hüququn prinsiplərinə ziddir və regionda onsuz da həssas olan təhlükəsizlik mühitini daha da mürəkkəbləşdirir. Xarici media xüsusilə qeyd edir ki, İranın qonşu ölkələrə qarşı sərt və təhdidedici addımları artıq təkcə regional deyil, qlobal səviyyədə narahatlıq doğuran tendensiya kimi qəbul edilir. Bir sıra şərhlərdə Tehranın bu cür davranışlarının məsuliyyətsiz və təxribatçı xarakter daşıdığı, bunun isə regionda sülh və sabitliyə ciddi zərbə vurduğu vurğulanır. Dünya mediasında səslənən bu mövqelər göstərir ki, İranın belə addımları beynəlxalq ictimaiyyət tərəfindən diqqətlə izlənilir və açıq şəkildə qınanır.

Səxavət HƏMİD
XQ

Prezident İlham Əliyev Albaniyanın Baş nazirinin dəstəyini yüksək qiymətləndirib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Albaniya Respublikasının Baş naziri Edi Ramaya İranın Naxçıvana etdiyi dron hücumlarından sonra Azərbaycana göstərdiyi dəstəyə görə minnətdarlıq edib.

Bu barədə Prezidentin "X" hesabında paylaşım edilib.

Paylaşımda deyilir: "Mən Albaniyanın Baş naziri Edi Ramaya İran dövləti tərəfindən Naxçıvan Muxtar Respublikasına edilən dron hücumlarından sonra Azərbaycana göstərilən sarsılmaz dəstəyə görə ən dərin minnətdarlığımı bildirmək istəyirəm. Xalqımız nümayiş etdirdiyiniz qəti mövqeyi, həmrəyliyi və birliyi yüksək qiymətləndirir".

Azərbaycan Prezidentinin Çexiyanın Baş nazirinə minnətdarlığı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İranın Naxçıvana dron hücumlarından sonra Azərbaycana verdiyi dəstəyə görə Çex Respublikasının Baş naziri Andrey Babişə minnətdarlığını bildirib.

Prezidentin "X" hesabında bununla bağlı paylaşım edilib.

Paylaşımda deyilir: "İran dövlətinin Azərbaycan ərazisinə dron hücumlarından sonra Çex Respublikasının nümayiş etdirdiyi güclü dəstək və həmrəylik mesajına görə Baş nazir cənab Andrey Babişə dərin minnətdarlığımı bildirirəm.

Bu bəyanat Azərbaycan ilə Çexiya arasında dostluq məcrasında inkişaf edən sıx münasibətlərin və beynəlxalq hüquqa sadiqliyin parlaq təcəssümüdür".

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Martın 5-də Naxçıvana dron hücumu ilə bağlı xəbəri böyük narahatlıqla qarşıladım. Bu hücum zamanı hava limanı da daxil olmaqla, mülki obyektlərə zərbələr endirilib, dronlar məktəbin yaxınlığında yerə düşüb və bir neçə nəfər yaralanıb.

Bu hücum beynəlxalq hüququn kobud şəkildə pozulması və qəbuledilməz zorakılığın artması deməkdir. Sizin haqlı olaraq terror hücumu kimi qiymətləndirdiyiniz bu akt bütün regionun sabitliyinə və təhlükəsizliyinə ciddi təhdid yaradır.

Bu hücumu Çex Respublikası Hökuməti adından qəti şəkildə pislədiyimizi bildirmək istərdim. Biz Azərbaycanla həmrəy olduğumuzu bildirir, onun vətəndaşlarının təhlükəsizliyinin təmin edilməsi, eləcə də regionda sülhün və sabitliyin qorunması istiqamətində bütün səyləri dəstəkləyirik.

Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Hörmətlə,

And ey BABİŞ,
Çex Respublikasının Baş naziri

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

İran İslam Respublikasının Azərbaycan Respublikasının ərazisinə etdiyi hücumlarla əlaqədar Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü qisminde Sizə tam dəstəyimi və həmrəyliyimi ifadə edirəm. Biz bu hücumları qəti şəkildə qəbuledilməz və dərin narahatlıq doğuran hal hesab edirik. Həmin hücumlar regional sabitlik və təhlükəsizlik üçün ciddi təhdiddir. Sizin rəhbərliyiniz altında Azərbaycan regionda sabitliyin, inkişafın və əməkdaşlığın təşviqi istiqamətində ardıcıl siyasət yürütmüşdür, buna görə də belə əməllər xüsusilə ədalətsizdir.

Bu çətin şəraitdə Zati-alinizlə və dost Azərbaycan xalqı ilə qəti həmrəy olduğumuzu bir daha bildiririk.

Bakıya qarşıdan gələn səfərimi və yenidən görüşümüzü səbirsizliklə gözləyirəm. Bu görüşü xalqlarımız arasında mövcud olan dostluq münasibətlərinin və əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün mühüm fürsət kimi qiymətləndirirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Jelka TSVİYANOVİÇ,
Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü

Əli Əsədovun Türkiyənin Vitse-prezidenti və Belarusun Baş naziri ilə telefon danışığı

Martın 6-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Türkiyə Respublikasının Vitse-prezidenti Cevdet Yılmaz arasında telefon danışığı olub.

Telefon danışığında İran İslam Respublikası tərəfindən martın 5-də Azərbaycan Respublikasına qarşı dron hücumları ilə bağlı kəskin etiraz bildirilib, bu hücumların beynəlxalq hüququn norma və prinsiplərinə zidd olduğu vurğulanıb.

Ə.Əsədov qeyd edib ki, ölkəmizə qarşı dron hücumları nəticəsində Naxçıvan Beynəlxalq Hava Limanı, məktəb və digər istiqamətlər İran tərəfindən atəşə məruz qalıb, bir neçə mülki şəxs xəsarət alıb, hava limanının terminal binasına ziyan dəyib.

Hadisədən sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Prezident İlham Əliyevə zəng edərək dərhal Azərbaycan xalqına dəstəyini bildirməsi iki ölkə arasında mövcud sarsılmaz qardaşlığın və həmrəyliyin bariz təzahürü olduğu vurğulanıb.

Baş nazir Naxçıvan istiqamətində həyata keçirilən aviareyslərin yaranmış vəziyyətlə bağlı təhlükəsizliyini təmin etmək məqsədilə uçuşların müvəqqəti olaraq İğdır hava limanına təşkil edilməsi üçün göstərilən operativ dəstəyə görə qardaş Türkiyə tərəfinə təşəkkür edib.

Telefon danışığı zamanı, həmçinin mövcud vəziyyətdən irəli gələrək gündəlikdə duran aktual məsələlər müzakirə olunub.

***

Martın 6-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Belarus Respublikasının Baş naziri Aleksandr Turçin arasında telefon danışığı olub.

Nazirlər Kabinetindən verilən məlumata görə, telefon danışığı əsnasında iki ölkə prezidentlərinin birgə səyləri nəticəsində müxtəlif sahələrdə Azərbaycan-Belarus çoxşaxəli tərəfdaşlığının dinamik inkişafı qeyd edilib.

Hökumət başçıları regiondakı mövcud vəziyyəti müzakirə ediblər. Naxçıvanda baş vermiş insidentlə bağlı narahatlıq ifadə olunub.

Ə.Əsədov İranın pilotsuz uçuş aparatlarından istifadə etməklə Azərbaycana qarşı həyata keçirdiyi hücumlar barədə məlumat verib.

Telefon danışığı zamanı, həmçinin Azərbaycan ilə Belarus arasında qarşılıqlı faydalı əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

XQ

Moldova ölkəmizə dron hücumlarını qətiyyətlə pisləyir

Milli Məclisin sədri Sahibə Qafarova martın 6-da Moldova Respublikası Baş nazirinin müavini, xarici işlər naziri Mixay Popşoi ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Moldova arasında mövcud olan yüksəksəviyyəli siyasi əlaqələrin müxtəlif sahələr üzrə əməkdaşlığın inkişafı üçün geniş imkanlar yaratdığı qeyd edilib.

S.Qafarova bildirib ki, beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlıq uğurla davam edir və bu qurumlarda Azərbaycan və Moldova deputatları bir-birinə qarşılıqlı dəstək nümayiş etdirirlər. O, İran tərəfindən Azərbaycanın Naxçıvan Muxtar Respublikası istiqamətində həyata keçirilən dron hücumlarını pisləyərək, ölkəmizə qarşı törədilən bu hücumların qəbuledilməz olduğunu və Azərbaycan xalqı tərəfindən böyük hiddətlə qarşılandığını diqqətə çatdırıb.

Mixay Popşoi isə Moldovanın bu hücumları qətiyyətlə pislədiyini bildirərək, bu məsələdə ölkəsinin Azərbaycanla həmrəy olduğunu qeyd edib.

Mixay Popşoi Moldovada baş vermiş enerji böhranı zamanı Azərbaycanın göstərdiyi dəstəyə görə minnətdarlığını da ifadə edib.

XQ

Milli Məclis Komissiyasının İranın hərbi təxribatına dair bəyanatı

Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı Komissiyası Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasına İran İslam Respublikası ərazisindən olunan PUA hücumlarına dair bəyanat qəbul edib.

Bəyanatda Muxtar Respublikanın yeganə beynəlxalq hava qapısı olan Hava Limanının və mülki infrastrukturun hədəfə alınması beynəlxalq hüququn norma və prinsiplərinin pozulması, dövlətimizin ərazi bütövlüyü və suverenliyinə yönəlmiş qəsd və terror aktı kimi qiymətləndirilir.

"Bu hücumların vətəndaşlarımız arasında çaşqınlıq və qorxu yaratmaq, müvafiq dövlət qurumlarına olan etimadı sarsıtmaq, Azərbaycanın regional mövqeyinə və beynəlxalq nüfuzuna zərər vurmaq məqsədilə edildiyi şübhə doğurmur.

Azərbaycan tərəfi beynəlxalq hüquq çərçivəsində müvafiq cavab tədbirləri görmək hüququnu özündə saxlayır. Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiya vətəndaşlarımızı və xaricdə yaşayan soydaşlarımızı dövlətimizin gücünə və rəsmi məlumatlara inanmağa çağırır", - deyə bəyanatda bildirilir.

XQ

Azərbaycan XİN-ə telefon zəngləri davam edir

Martın 6-da Belarusun xarici işlər naziri Maksim Rıjenkov Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.

Telefon danışığı zamanı nazirlər regionda baş verən son hadisələr ətrafında fikir mübadiləsi aparıblar. Hərbi eskalasiya ilə bağlı

narahatlıq ifadə olunaraq, gərginliyin daha da artmasına səbəb ola biləcək addımlardan çəkinməyin vacibliyi vurğulanıb.

Ceyhun Bayramov belaruslu həmkarını martın 5-də İran İslam Respublikası tərəfindən Azərbaycanın Naxçıvan Muxtar Respublikasına qarşı həyata keçirilmiş dron hücumları barədə məlumatlandırıb.

***

Həmin gün Litvanın xarici işlər naziri Kestutis Budris Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng edib.

Telefon danışığı zamanı nazir Ceyhun Bayramov qarşı tərəfə İranın dron hücumları barədə ətraflı məlumat verib.

Azərbaycanın ərazisinə qarşı həyata keçirilmiş bu hücumun beynəlxalq hüququn norma və prinsiplərinin kobud pozuntusu olduğu və regionda gərginliyin artmasına xidmət etdiyi vurğulanıb.

Litva naziri Azərbaycanın ərazisinə qarşı dron hücumlarını pisləyib, bunun dərin narahatlıq doğurduğunu, ölkəmizlə həmrəy olduğunu bildirib. Bu kimi hücumların regionda gərginliyin daha da artmasına xidmət etdiyi vurğulanıb.

***

Martın 6-da İtaliya Respublikasının baş nazirinin müavini, xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Antonio Tayani Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramova zəng edib.

Telefon danışığı zamanı tərəflər regionda yaranmış təhlükəsizlik vəziyyəti, xüsusilə də İran tərəfindən Azərbaycan ərazisinə qarşı həyata keçirilmiş dron hücumları ilə bağlı fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramov Azərbaycan

ərazisinə qarşı həyata keçirilmiş bu cür hücumların qəbuledilməz olduğunu vurğulayaraq, ölkəmizin suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş hər hansı addımın beynəlxalq hüquqa zidd olduğunu qeyd edib. Bildirib ki, mülki əhali və infrastruktur üçün risk yaradan bu kimi hərəkətlər regionda təhlükəsizlik və sabitliyə ciddi təhdid doğurur.

Nazir Antonio Tajani mövcud vəziyyətlə bağlı narahatlığını ifadə edərək, həmrəyliyini bildirib. O, regionda sabitliyin bərpa olunmasının əhəmiyyətini qeyd edib.

Antonio Tajani İtaliya vətəndaşlarının Azərbaycan Respublikasının ərazisindən istifadə etməklə təxliyəsinə yaradılmış şəraitə görə Azərbaycan tərəfinə təşəkkürünü ifadə edib. Göstərilmiş dəstəyin yüksək qiymətləndirildiyini bildirib.

***

Dünən Mərakeş Krallığının xarici işlər, Afrika ilə əməkdaşlıq və xaricdəki mərakeşlilər naziri Nasser Bourita Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramova zəng edib.

Telefon danışığı zamanı nazir Ceyhun Bayramov həmsöhbətinə Naxçıvan Muxtar Respublikası istiqamətində İran İslam Respublikası tərəfindən həyata keçirilmiş dron hücumları barədə geniş məlumat verib.

Nazir qeyd edib ki, Azərbaycanın ərazisinə qarşı bu cür addımlar ölkənin suverenliyinə zidd olmaqla yanaşı, beynəlxalq hüququn norma və prinsiplərinin ciddi şəkildə pozulmasıdır və regionda gərginliyin artmasına xidmət edir.

Nazir Nasser Bourita Azərbaycanın ərazisinə qarşı dron hücumlarını qətiyyətlə pisləyib, bunun narahatlıq doğurduğunu bildirərək, ölkəmizlə həmrəyliyini ifadə edib.

***

Martın 6-da Monteneqronun Baş nazirinin müavini və xarici işlər naziri Ervin İbrahimoviç Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.

Telefon danışığı zamanı regional təhlükəsizlik məsələləri geniş müzakirə olunub. Tərəflər Yaxın Şərqdə mövcud vəziyyətin gərginləşməsi fonunda diplomatik səylərin artırılmasının və beynəlxalq hüququn norma və prinsiplərinə hörmətin qorunmasının vacibliyini qeyd ediblər.

Danışıq zamanı Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov həmkarına martın 5-də Naxçıvan Muxtar Respublikası ərazisinə qarşı İran İslam Respublikası tərəfindən həyata keçirilmiş dron hücumları barədə məlumat verib. Bu addımın ölkəmizin ərazi bütövlüyünə və beynəlxalq hüquqa zidd olduğu vurğulanıb.

Nazir Ervin İbrahimoviç İranın ölkəmizə qarşı etdiyi dron hücumlarını qətiyyətlə pisləyib, narahatlıq doğurduğunu bildirərək, Azərbaycanın mövqeyini anlayışla qarşıladığını və ölkəmizlə həmrəy olduğunu qeyd edib.

***

Martın 6-da Sudanın xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Muhi Əl-Din Salem Ahmed Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.



Telefon danışığı zamanı nazir Ceyhun Bayramov martın 5-də İran İslam Respublikası tərəfindən Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ərazisinə qarşı dron hücumları həyata keçirdiyini bildirib. C.Bayramov bunun mülki infrastruktur və şəxslərə zərər verdiyini qeyd edib, dron hücumlarının suverenliyimizə və ərazi bütövlüyümüzə zidd olduğunu vurğulayıb.

İran İslam Respublikasından qeyd olunan hücuma aydınlıq gətirilməsini, izahat verilməsini, üzrxahlıq edilməsini, bu kimi halların təkrarlanmaması üçün zəruri təxirəsalınmaz tədbirlər görülməsini tələb etdiyimiz Sudan tərəfinin diqqətinə çatdırıb.

Nazir Muhi Əl-Din Salem Ahmed bu hücumlardan narahatlıq ifadə edib, mülki infrastrukturun hədəf alınmasının qəbuledilməz olduğunu bildirib.

XQ

Moldova Baş nazirinin müavini Şəhidlər xiyabanını və Zəfər parkını ziyarət edib

Moldova Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Mixay Popşoi martın 6-da Şəhidlər xiyabanını ziyarət edib.

Baş nazirin müavini Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla anıb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Sonra Bakının mənzərəsini seyr edən qonağa Azərbaycan paytaxtında aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

***

Moldova Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Mixay Popşoi həmin gün Bakıda Zəfər parkını da ziyarət edib.

Burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Moldovanın Baş nazirinin müavini, xarici işlər naziri Zəfər abidəsinin önünə əklil qoyub.

Sonra qonağa Zəfər parkı barədə ətraflı məlumat verilib.

XQ

Ceyhun Bayramovun moldovalı həmkarı ilə görüşü

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Moldovanın Baş nazirinin müavini, xarici işlər naziri Mixay Popşoi arasında təkbətək və geniştərkibli görüşlər keçirilib.

Nazirlər ikitərəfli siyasi dialoqun davam etdirilməsi və genişləndirilməsi yollarını, iqtisadiyyat, enerji, nəqliyyat və humanitar sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsini, həmçinin Birləşmiş Millətlər Təşkilatı və ATƏT də daxil olmaqla beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyətin əlaqələndirilməsi məsələlərini müzakirə ediblər.

Nazirlər, həmçinin Yaxın Şərqdə formalaşan gərgin və dəyişkən təhlükəsizlik vəziyyətinə də toxunublar.

C.Bayramov martın 5-də İran tərəfindən Azərbaycanın Naxçıvan Muxtar Respublikasına həyata keçirilən dron hücumları ilə bağlı ciddi narahatlığımızı ifadə edib. Hücum nəticəsində mülki infrastruktur obyektlərinə, o cümlədən hava limanına və məktəb binasına ziyan dəydiyini, mülki şəxslərin yaralandığını qonağın diqqətinə çatdırıb.

Nazir, həmçinin moldovalı həmkarına Azərbaycan ilə Ermənistan arasında davam edən normallaşma və sülh prosesi barədə məlumat verib.

***

Azərbaycanın təhlükəsizlik tədbirləri Prezident İlham Əliyevin rəhbərliyi ilə ən yüksək səviyyədə həyata keçirilir. Regional gərginlik fonunda hərbi qüvvələrin hazırlıq səviyyəsi maksimuma çatdırılıb.

Bu fikirləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov moldovalı həmkarı Mixay Popşoi ilə keçirilən brifinqdə söyləyib.

Onun sözlərinə görə, əlavə təhlükəsizlik tədbirləri çərçivəsində Tehrandakı səfirliyimizin və Təbrizdəki baş konsulluğumuzun evakuasiyası barədə göstəriş verilib, çünki Azərbaycan vətəndaşlarının təhlükəsizliyi diqqət mərkəzindədir.

Ceyhun Bayramov bildirib ki, diplomatik missiyamıza təxminən 1000 müraciət daxil olub. Bu müraciətlər əsasən BƏƏ, Səudiyyə Ərəbistanı və Küveytə səfər edən vətəndaşlarımızdan olub.

XQ

DTX SEPAH-ın Azərbaycanda terror planlarını ifşa edib

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti kompleks əks-kəşfiyyat tədbirləri nəticəsində İran İslam Respublikasının xüsusi xidmət orqanı olan SEPAH tərəfindən Azərbaycanda həyata keçirilməsi planlanan terror təxribatlarının və kəşfiyyat xarakterli məlumatların toplanılmasının qarşısını alıb.

Cəmiyyət arasında vahimə yaratmaq, ölkəmizin beynəlxalq nüfuzuna xələl gətirmək məqsədilə strateji obyekt olan Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, İsrailin Azərbaycandakı səfirliyi, Dağ yəhudiləri dini icmasının rəhbərlərindən biri və Aşkenazi sinaqoqu hədəf alınıb. Ölkə ərazisinə üç ədəd partlayıcı qurğu keçirilib, amma həmin partlayıcıların zərərsizləşdirilərək digər şəxsə ötürülməsinin qarşısı alınıb. İran xüsusi xidmət orqanlarının ölkəmizdə maraq göstərdiyi strateji obyektlər, hədəflər, həmçinin onlarla əməkdaşlıq edən şəxslərin müəyyən olunması məqsədilə əməliyyat-axtarış tədbirləri təşkil edilib.

Məlum olub ki, İran İslam Respublikası vətəndaşları Rüstəmzadə Behnam Sahibali və Zankiyan Yaser Rahim qabaqcadan əlbir olaraq ölkə ərazisinə partlayıcı qurğu keçirmək üçün Quliyev Tərxan Tərlan oğlu ilə cinayətkar əlaqə yaradıb. İran İslam Respublikası vətəndaşı Zankiyan Yaser Rahimin tapşırığı ilə Sabail rayonu Şıxov qəsəbəsi yaxınlığında qoyulmuş bir ədəd naməlum konteyner müəyyən edilib. Konteynerə baxış zamanı içərisində obyektlərin, eyni zamanda, beton qurğuların partladılması üçün nəzərdə tutulmuş 7 kiloqram 730 qram ağırlığında olan C4 partlayıcı maddənin olduğu aşkarlanıb.

Azərbaycan beynəlxalq dəstəyə görə təşəkkür edib

Azərbaycanın Xarici İşlər Nazirliyi İran tərəfindən Azərbaycan ərazisinə qarşı həyata keçirilmiş dron hücumlarından sonra beynəlxalq tərəfdaşlardan daxil olan dəstək bəyanatları, məktublar və telefon zənglərinə görə minnətdarlığını bildirib.

XİN-in məlumatında qeyd olunub ki, Azərbaycanla nümayiş etdirilən həmrəylik, eləcə də ölkənin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına göstərilən açıq dəstək yüksək qiymətləndirilir.

Bildirilib ki, bu müddətdə Azərbaycanla həmrəylik nümayiş etdirən bütün ölkələrə və beynəlxalq təşkilatlara təşəkkür edilir, onların davamlı dəstəyi və əməkdaşlığı yüksək dəyərləndirilir.

XQ

İranla sərhəddə yük avtomobillərinin buraxılışına başlanılıb

Məlumat verildiyi kimi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 5 mart tarixli 66 nömrəli Qərarına əsasən Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dövlət sərhədindən bütün növ nəqliyyat vasitələri üçün yüklərin daşınması məqsədilə giriş-çıxış (o cümlədən tranzit məqsədilə giriş-çıxış) müvəqqəti olaraq dayandırılıb.

Nazirlər Kabinetindən bildirilib ki, bununla əlaqədar hazırda İran İslam Respublikasından Azərbaycana qayıdan Azərbaycan Respublikasına məxsus yük avtomobillərinin, həmçinin Azərbaycan Respublikasından İrana qayıdan İran İslam Respublikasına məxsus yük avtomobillərinin Astara, Biləsuvar və Culfa dövlət sərhəd buraxılış məntəqələrindən buraxılışına başlanılıb.

XQ

İranın hərbi təxribatı ilə bağlı ICAO-ya hesabat təqdim edilib

İran İslam Respublikası ərazisindən Naxçıvan Muxtar Respublikasının Naxçıvan Beynəlxalq Hava Limanına, onun terminal binasına pilotsuz uçuş aparatlarının hücumları həyata keçirildiyi üçün Beynəlxalq Mülki Aviasiya Təşkilatına (ICAO) hesabat təqdim edilib.

"Beynəlxalq Mülki Aviasiya haqqında" 1944-cü il 7 dekabr tarixli Konvensiyaya, o cümlədən Konvensiyaya 17 nömrəli Əlavə – "Aviasiya təhlükəsizliyi" sənədinin beynəlxalq standartlarına uyğun olaraq, hava limanına qanunsuz müdaxilə aktı baş verdikdə üzv dövlət tərəfindən hazırlanmış ilkin hesabat Beynəlxalq Mülki Aviasiya Təşkilatına göndərilməlidir.

Beynəlxalq standartlardan irəli gələrək Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxsi "ICAO"ya müvafiq ilkin hesabat göndərib.

XQ

MEDİA informasiya təxribatını pisləyib

Medianın İnkişafı Agentliyi sosial şəbəkələrdə Azərbaycana qarşı sistemli dezinformasiyanı pisləyən bəyanat yayıb.

Bəyanatda deyilir: "Son dövrlər sosial şəbəkələrdə özünü "Qəzetçi" kimi təqdim edən səhifə tərəfindən Azərbaycanla bağlı sistemli şəkildə dezinformasiya xarakterli məlumatların tirajlanması müşahidə olunmaqdadır.

İctimai rəydə çaşqınlıq yaradan, əsas missiyası xaricdən ölkəmizin informasiya mühitini çirkləndirmək olan bu "resurs" guya 150 nəfər həkim və feldşerin hərbi səfərbərliyə cəlb edilərək İranla sərhəddə yerləşən Astara və Füzuli rayonlarına göndərildiyinə dair həqiqətə uyğun olmayan məlumat yaymışdır.

Bu kimi informasiya təxribatlarını qəti şəkildə pisləyir və bəyan edirik ki, belə pozuculuq fəaliyyəti hüquqi məsuliyyət yaradır.

Bütün media subyektlərini, jurnalistləri, ictimai fəalları fəaliyyətlərində yalnız rəsmi mənbələrə istinad etməyə, cəmiyyətdə təşviş doğuran paylaşımlardan çəkinməyə çağırırıq".

Molla rejimi – İslam birliyinə zərbə formulu

Yaxud həmrəyliyin Azərbaycan modelinə uzanan əllər barədə

Belə bir klişeləşmiş deyim var: İran ancaq müsəlman dövlətləri ilə mübarizə aparır. Bu, həqiqətən də belədir. Halbuki, molla rejimi ölkəni İslam təəssübkeşi obrazında göstərir. O rejim ki, İran dövlətçiliyinin müdafiəsi adı altında irəli sürdüyü bütün prinsiplər heçdir. Ona görə heçdir ki, mollaların timsalında İranın səmimiyyətinə inanan yoxdur.

Yada məşhur Azərbaycan filmi "Nəsimi"də Əmir Teymurun Nəsiminin sərbəst buraxılmasına görə hay-küy salan din xadimlərinə cavabı düşür. "Hanı sizin kəlamınızın qüdrəti? Nə vaxtadək baş kəsməklə qalib gələcəyəm mən?", - deyirdi böyük hökmdar. Hazırda İran mollaları eynilə həmin din xadimlərinin günündədirlər. Kəlamları heç nəyə yaramır. Yalnız zülm-zillət üzərində qurulmuş qalibiyyət səltənətləri var. Əlbəttə, buna səltənət demək mümkündürsə. Axı saxta din təəssübkeşlərinə kim və ya kimlər inanar?

Bəli, İran illər ərzində həyata keçirdiyi siyasətlə özünə münasibətdə dayanıqlı etimad hissi yaratmadı. Hazırda bir müsəlman dövləti yoxdur ki, onu hansısa formada müdafiə etsin. Halbuki, belə olmalı deyildi. Amma molla rejimində durum barədə düşünənlər yoxdur və olmayacaq da. Çünki işləri-peşələri daxildə və xaricdə düşmən axtarmaq olub.

İran milyonlarla insanın, o cümlədən türklərin özlərinə Vətən dedikləri məmləkətdir. O insanların ki, ata-babaları tarixən bu ərazidə yaşayıb-yaradıblar. Axı İran məhfumunun kökü bir o qədər dərin olmasa da, ölkə ərazisində dövlətlər olub.

Qacarlardan, Əfşarlardan və Səfəvilərdən əvvəl də İran türk toplumlarının yurdu olub və yenə qalmaqdadır. Ölkənin etnik rəngarəngliyini də unutmur və bu rəngarəngliyin mövcud coğrafiyaya məxsusilik qazandırdığı qənaətindəyik. Tarixən də belə olub. Fəqət XX əsrdə İrandakı təkcə türk toplumlarının deyil, ümumən digər xalqların və etniklərin də başlarının üzərini qara buludlar aldı. Söhbət molla rejimi bəlasından gedir. O bəladan ki, onun Azərbaycan adlı böyük sancısının olduğu hər kəsə bəllidir. O bəla ki, onun sancısını molla rejimindən əvvəlki Şah rejimi də çəkib. Axı hər iki rejim, bir növ, böyük xalq şairimiz Ramiz Rövşənin "dəyişib yerini bəlkə qış-bahar, qarışıb dünyanın şəhəri, kəndi" misralarında ifadəsini tapan durumun təsiri ilə formalaşıb.

İstər Şah, istərsə də molla rejiminin hansı tarixi şəraitdən irəli gələrək qərarlaşdığının, nə üçün bir-birilərini əvəzlədiklərinin səbəblərini gözəl bilirik. Onların kimlər, hansı qüvvələr tərəfindən, hansı məqsədlə ortaya atıldığını da həmçinin. Belə nəticəyə gəlirik ki, imperialist qüvvələrin Yaxın Şərq üzrə planlarında yer aldığına görədir ki, İran heç zaman İslam həmrəyliyi prinsipindən çıxış etməyib, əksinə, birliyə zidd davranıb.

Onu da deyək ki, qloballaşmanın aktual əhəmiyyət daşıdığı, iqtisadi maraq və mənafelərin ön planda dayandığı hazırkı zaman kəsiyində dini birlik məsələsini qabartmaq bəlkə bir o qədər yerinə düşmür. Əslində, xristian birliyi anlayışı da mahiyyətcə əhəmiyyətini itirmiş durumdadır. Amma o mahiyyət qalır. Həm də ona görə qalır ki, İranın İslam həmrəyliyi adı altındakı "fəaliyyəti" var.

Təcrübə göstərir ki, dünyada xristian həmrəyliyi avantürası, böyük ölçüdə, İranın formalaşdırırmış kimi davrandığı müsəlman təəssübkeşliyinə, sanki, müqavimət ruhludur. Görəsən, belə bir müqavimət lazım idimi? Niyə İran adlı məmləkət bu cür xoşagəlməz ampluada çıxış etdi? Cavab çox sadədir: İranda xalq kütlələrindən uzaq molla rejimi hökm sürür. Ortaya daha bir sual çıxır: İran müsəlman həmrəyliyinə çalışırdısa, nə üçün qonşusu müsəlman Azərbaycanın torpaqlarının işğalına səssiz yanaşdı? Əslində, sualın cavabı sadədir: Molla rejimi Azərbaycanı müstəqil dövlət kimi görmür.

Məlumdur ki, İran işğalçı Ermənistanla işbirliyini möhkəmləndirdi, hətta Qarabağdakı xunta rejiminin qoruyucusu kimi çıxış etdi. Ona görə ki, Ermənistan adlı dövlət, ümumən, ermənilik imperialist qüvvələrin türk-müsəlman coğrafiyasını bölmək üçün müəyyənləşdirdiyi siyasətin nəticəsi idi. Molla rejimi də mahiyyətcə həmin siyasət naminə çalışdı. Bu siyasət İrandakı xalqların maraq və mənafelərini qətiyyən əks etdirmir. O xalqların ki, vaxtaşırı qaldırdıqları etirazlar qan içində boğulur. Ona görə boğulur ki, molla rejiminin mahiyyətində nankorluq var. Axı dövlətçilik təfəkküründən uzaq mollalar üçün yalnız qəddarlıq və zülm əsasdır. Onların başlıca fəaliyyət qayələri tiranlıqdır.

Baxın, İsrail və ABŞ-la müharibə şəraitində olan İran Azərbaycana silah tuşlayır. Digər İslam ölkələrinin də hədəfə götürüldüyünü gördük. Bu yerdə Türkiyənin xarici işlər naziri Hakan Fidanın bir neçə gün öncə dilə gətirdiyi haqlı fikri xatırlayaq. XİN rəhbərinin sözlərindən gəlinən qənaət budur ki, İran rejimi özünün mövcud olmadığı dünyada kimsənin, yəni hansısa başqa dövlətin varlığını qəbul etmir. Ona görə də müsəlman dövlətlərini nişangaha çevirir. O dövlətlərə ki, dünyanın enerji təminatında rol oynayırlar, qlobal iqtisadi sistemdə yer alırlar.

Tutalım, hansısa dövlətdə ABŞ-ın, yaxud İsrailin hərbi bazaları var. Mütləqdirlərmi ki, həmin dövlətdə İrana qarşı atəş nöqtəsi olsun? Var idimi belə bir sübut ki, İran onu əsas sayıb cavab tədbirləri görsün? Xeyr! Deməli, söhbət heç də ölkəni hədəfə alanların susdurulmasından getmir. Yəni Türkiyə rəsmilərinin İranın hərəkətlərinin dünyanın iqtisadi düzəninin pozulacağına, qlobal ticarət zəncirinin qırılmasına gətirib çıxaracağına dair fikirlərinin aktuallığını görürük.

Gələk yenidən Azərbaycanın üzərinə. İranın Naxçıvana PUA hücumunda muxtar respublikanın hava limanının hədəfə götürüldüyünə şahidlik etdik. Molla rejiminə yaxşı məlumdur ki, Naxçıvana hazırda yeganə yol havadandır. Hava limanının təhlükəyə düşməsi isə o yolun bağlanması və qədim diyarımızın iflic duruma düşməsi deməkdir. Görəsən, bu, kimin nəyinə lazımdır?

Məgər Naxçıvan İranın hədəfə götürüldüyü məntəqədir? Əlbəttə ki, yox! Amma muxtar respublikanın Azərbaycan üçün həm mənəvi, həm də strateji baxımdan mühüm məkan olduğu hər kəsə yaxşı bəllidir. Deməli, mollalar ölkəmizə hədə-qorxu gəlmək, "Azərbaycana rahatlıq yoxdur" mesajını vermək barədə düşünüblər. Üstəlik, Naxçıvanın Türk dünyası, bütövlükdə, beynəlxalq aləm üçün mühüm məntəqə əhəmiyyəti də var.

Sonda İslam həmrəyliyi barədə yenidən söz açaq. Nəzərə alaq ki, İranın "xidmətlərinin" nəticəsidir ki, hazırda həmrəyliyin İslamiyyət tərəfi ciddi zərərlə üzləşib. Çünki dünya İslam həmrəyliyini dini fanatikliyin tərənnüm platforması qismində təsəvvürə gətirir. Bu təsəvvürlə dinimizə, obrazlı desək, terrorçuluq libası geydirilir.

Azərbaycanın timsalında isə beynəlxalq aləm İslamın fərqli, son dərəcə mütərrəqi, hər cür mövhümatdan uzaq modeli ilə tanış olur. Dünya ölkəmizi sülh və əmin-amanlıq məkanı kimi tanıyır. Molla rejimi bizi həm də buna görə qəbul etməyib, Azərbaycanda bəslədiyi agentura şəbəkəsi vasitəsilə vəziyyətə təsir göstərməyə, şiə fundamentalizmini alovlandırmağa çalışıb. Çalışıb ki, ölkəmiz beynəlxalq aləmin nəzərində elə İranın özü kimi qəbul edilsin, ətrafa qorxu və təşviş saçsın. Əlbəttə ki, istəyinə nail ola bilməyib və bilməyəcək də.

İrandakı molla rejiminin, habelə, rejimin respublikamızdakı qulbeçələrinin bütün səylərinə baxmayaraq, dünya müasir, müstəqil və dünyəvi Azərbaycanla həmrəy və həmfikirdir. Azərbaycan regionun sabitlik adasıdır. Elə bir ada ki, dünya üçün də mühüm əhəmiyyətə malikdir. Belə əhəmiyyətlilik isə əlahiddə statusdur. Bu status dövlətimizin, şəxsən Prezident İlham Əliyevin müstəsna siyasi səriştə və bacarığının mükəmməl nəticəsidir. Bu status əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş kursun təntənəsidir. Ulu öndərin təbirincə desək, Azərbaycan dünyaya günəş kimi doğur. Azərbaycan günəşi dünyanı özünün səmimiyyət dolu həmrəyliyi ilə isidir. Ona görə beynəlxalq aləm İranın Naxçıvana namərd hucumuna biganə qalmır. Günəşdən gizlənənlər isə yarasalardır.

Ə.RÜSTƏMOV
XQ

İranı kim idarə edir?

Ali dini rəhbərsiz qalan ölkə çevrəsində hamını düşmən donunda görür

Üzləşdiyi real təhlükənin yaratdığı qorxu hissi və ali dini rəhbərin, yəni ölkənin mütləq səlahiyyət sahibi sayılan siyasi liderin yoxluğu İranda hakimiyyət boşluğunun yaranmasına səbəb olub - deyə bilərik. Bunu da güman edirik ki, ABŞ və İsrail tərəfindən total və intensiv havadan zərbələr alan İranın idarəçiliyi öldürülmüş Ali dini lideri Əli Xameneinin müşaviri, Milli Təhlükəsizlik Şurasının katibi Əli Laricaniyə prosedur qaydalarına uyğun olaraq həvalə olunsa da, faktiki surətdə hökm sahibi kifayət qədər hərbi gücə malik İnqilab Keşikçiləri Korpusu – SEPAH silahlı qruplaşmasıdır.

Özünün anti-Azərbaycan, anti-Türkiyə fəaliyyəti ilə çoxdan ad çıxarmış məhz bu hərbi-siyasi qurumun qərarı ilə ABŞ-ın Yaxın Şərq ölkələrindəki bazalarını bəhanə gətirərək ərəb-müsəlman ölkələrinə, o cümlədən Azərbaycana qarşı təxribat xarakterli hərəkətlərə yol verməsini də istina etmirik. Hazırkı durumda İran İslam Respublikasının siyasi idarəçiliyi kimə məxsusdur – sualına böyük əminliklə SEPAH cavabını vermək olar. Nəzarətində olan çoxsaylı media resurslarında Azərbaycanda da dini dövlətin qurulmasını təbliğ edən bu hərbi-siyasi qurum ətrafdakı müsəlman ölkələrini hədəfə almaqla, sanki, daxildə üzləşdiyi hakimiyyət boşluğunu, siyasi xaosu "beynəlmiləlləşdirməyə" çalışır.

Amerikanın nüfuzlu "The New York Times" qəzeti İranın iki rəsmisinə istinadən maraqlı məlumat yayıb. Nəşr yazır ki, Vaşinqton və Təl-Əvivin yeni seçiləcək dini liderin də hədəfə alına biləcəyi ilə bağlı bəyanatlarından sonra məhz təhlükəsizlik baxımından Ayətullah Əli Xameneinin xələfinin seçilməsi təxirə düşüb. Çünki öldürülən Ali dini lider Xameneinin xələfinin onun oğlunun ola biləcəyi ilə bağlı yayılan xəbərlərdən sonra ruhani isteblişmentinin narahatlığı birə-beş artıb.

***

Müharibənin ilk günündən İran bəzi analitiklərin "xaosun beynəlmilləlləşdirilməsi" adlandırdığı strategiya nümayiş etdirir. Tehran qəsdən üçüncü ölkələrin ərazilərini – BƏƏ-dəki mülki hava və dəniz limanlarını, Səudiyyə Ərəbistanındakı neft obyektlərini, Qətərdəki LNG terminallarını, Bəhreyn və Küveytdəki yaşayış məntəqələrini hədəfə alır. Burada məqsəd olduqca aydın və məkrlidir: münaqişəyə nə qədər çox ölkə cəlb olunarsa, Vaşinqton və Təl-Əvivə beynəlxalq təzyiqlərin həcmi və kəskinliyi artar. Məhz buna görə İranın pilotsuz təyyarələri, "Şahed" kamikadze dronları Dubaydakı göydələnlərin, Ərəbistan yarımadasındakı neft terminallarının üzərində uğuldayır. Birləşmiş Ərəb Əmirlikləri Müdafiə Nazirliyinin məlumatında deyilir ki, münaqişənin ilk günlərində Əmirliyə İranın 500-dən çox pilotsuz təyyarəsi yönəldilib. Onlar Dubay Hava Limanına, ABŞ Konsulluğuna, Amazon məlumat mərkəzlərinə və Ras Tanura neft emalı zavoduna zərbələr endirib.

Yaxşı, tutaq ki, Səudiyyə Ərəbistanı Vaşinqtonla strateji tərəfdaşdır, Kiprdə NATO üzvü Britaniyanın hava bazası yerləşir. Bəs Azərbaycan hansı təhlükəni yaradır? Rəsmi Bakı cənub qonşusunun liderinin həlak olmasından kədərləndiyini bildirir, başsağlığı verir, humanitar yardım təklif edir, xarici vətəndaşların münaqişə zonasından, ölkədən çıxması üçün qapılarını açır, İranın maraqlarının toxunulmazlığına zəmanət verir və bütün bunların müqabilində bu qonşu Naxçıvanın hava limanına və məktəbə pilotsuz təyyarə hücumu təşkil edir. Buna nankorluqdan başqa nə ad vermək olar?

Bəli, bu, həm molla-klerikal rejimin nankorluğunun təzahürü, həm də Tehranda hakim elitanın diplomatik sərhəd, siyasi məsuliyyət və elementar insani münasibəti bilməməsinin nümayişidir. Molla rejimindən fərqli olaraq Azərbaycan heç vaxt ikiüzlü siyasət aparmayıb. Rəsmi Bakı ən kritik anlarda belə qonşularını səmimiyyətlə, heç bir altniyyət və xeyirgüdmə hesablaması aparmadan dəstəkləyib. Dövlət başçımızın dediyi kimi, Azərbaycanın mülki hədəflərinə dron hücumunun təşkili güc nümayişi deyil, zəiflik və qorxaqlıq əlamətidir. İran niyə konkret olaraq Naxçıvan hava limanını hədəfə alıb? Çünki başa düşür ki, Azərbaycanın materik hissəsi, faktiki olaraq, Naxçıvan Muxtar Respublikası ilə ancaq hava yolu ilə bağlıdır. Ona görə də hava limanını sıradan çıxarmaqla Azərbaycanın materik hissəsi ilə Naxçıvan arasında əlaqəni tamamilə kəsməyə çalışır. Doğrudan da baş verən olay təkcə hava limanının uçuş zolağına, ofisinə qarşı deyil, iki xalqın mehriban qonşuluq münasibətlərinin bünövrəsinə vurulan zərbədir.

***

Oxuculara xatırladaq ki, oxşar taktikadan ötən əsrin 90-cı illərində Ermənistan da istifadə edirdi. Naxçıvana hücum etmək qərarına gələnlər, hətta güman edək ki, səhlənkarlıq və ya ehtiyatsızlıq nəticəsində buna yol verənlər sadə bir mətləbi unutmamalıdırlar. Azərbaycana hücum edənlər həmişə peşman olublar. Bu həqiqəti Azərbaycan dövlətinin suverenliyini və ərazi bütövlüyünü sınaqdan keçirməyə cəhd edənlərin hamısı bilir. 2020-ci ilin 44 günlük müharibəsi, 2023-cü ildə 23 saatlıq antiterror əməliyyatı ilə Qarabağ üzərində yurisdiksiyanın tam bərpa etməyi bacaran Bakının zəifliyinə ümid edən hər kəs səhvə yol verir. İranın da bu gün atdığı bu qorxaq addımdan peşman olacağına şübhəniz olmasın.

Azərbaycan müharibə axtarmır. Əksinə, Bakının son günlərdəki davranışının məntiqi bölgədə və dünyada sülhün və sabitliyin qorunmasına yönəlib. Alovlar içində olan regionun fonunda yetkin və düzgün diplomatik mövqe quran ölkə həm də bədxahlarına lazım bildiyi forma və miqyasda cavab vermək iqtidarındadır. Üstəlik, Azərbaycan Müdafiə Nazirliyi artıq ölkənin ərazi bütövlüyü və suverenliyinin qorunması, mülki əhalinin və mülki infrastrukturun təhlükəsizliyinin təmin edilməsi üçün zəruri cavab tədbirləri hazırladığını, İranın hücumlarının cavabsız qalmayacağını bəyan edib. Azərbaycanın ona təhdid edənlərlə adekvat davranmaq haqqını həmişə özündə saxladığı hamıya məlumdur.

İmran BƏDİRXANLI
XQ

Ekspert rəyi

Tofiq ABBASOV,
siyasi icmalçı

İranın Azərbaycana qarşı yürütdüyü indiki siyasətinin bir neçə səbəbini göstərmək olar. Bu səbəblərdən biri də ölkənin vahid mərkəzdən idarəetmə sistemində haçalanmaların, qeyri-müəyyənliyin olmasıdır. Hakimiyyətin müxtəlif qolları sanki bir-biri ilə yola getmir, aralarında rəqabət, hətta düşmən münasibəti var. Boşluqlar da məhz bu səbəbdən yaranır. Bizə elə gəlir ki, Naxçıvana endirilən 4 dron zərbəsi rəsmi Tehranın prosesləri düzgün idarə etməməsi və qiymətləndirməməsindən irəlli gəlir. Ən əsası isə prosesə nəzarət itirilib. Bu boşluqdan isə daxildəki müxalifət kimi, kənardakı düşmən qüvvələr, separatizmə meyilli dəstələr istifadə etməyə çalışırlar. İstənilən halda, Azərbaycana qarşı İran ərazisindən təhdid yaranıbsa qonşu dövlət bunu ən yüksək səviyyədə və açıq şəkildə etiraf etməli, buna görə məsulyyti də boynundan atmamalıdır.

Azərbaycan Prezidenti İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasında səsləndirdiyi fikirlərin hamısı beynəlxalq qanunvericilik nöqteyi-nəzərindən yerində və aktual olmaqla yanaşı, son dərəcə cavib mahiyyətə malikdir. Baş vermiş hadisəyə hansı bucaqdan yanaşılsa da, məsuliyyət İran hakimiyyətinin üzərindədir. Buna görə də rəsmi Tehran Azərbaycan rəhbərliyinin haqlı tələblərinə cavab verməlidir. Eynilə Rusiyanın AZAL-ın təyyarəsini vurması ilə bağlı atacağı zəruri addımları Moskvadan gözlədiklərimizi indi Tehrandan gözləyirik. Əslində, dövlət başçımız bu halda nə etməli olduğunu dəqiqliklə İran hakimiyyətinin diqqətinə çatdırdı. Əgər Azərbaycan Xarici İşlər Nazirliyi Tehrandakı səfirimizin, Təbrizdəki konsulumuzun geri çağırılması barədə sərəncam verirsə, deməli, ikitərəfli diplomatik münasibətlərin səviyyəsi minimuma endirilir. Qarşı tərəf gözlənilən addımları atmazsa, bu münasibətlərə tamamilə son qoyulacağı da istisna edilmir.

Yaxının xəyanəti, uzağın sədaqəti

Bakı ilə İslamabad yumruq kimi birləşərək düşmənlərin planlarını alt-üst edir

Təəssüf ki, Yaxın Şərqdə hökm sürən narahatlıq Azərbaycana da sirayət etdi. Özü də özgə yox, yaxın qonşumuz İranın əli ilə. Naxçıvana dron hücumu həm rəsmi Bakının gözündə Tehrana olan bütün etimadı sarsıtdı, həm də dost və düşmən balansını yenidən müəyyən etməyi zərurətə çevirdi. Məhz bu baxımdan Azərbaycan ilə Pakistan arasında formalaşmış münasibətlər Cənubi Qafqaz və Cənubi Asiya arasında nadir strateji tərəfdaşlıq nümunələrindən biri kimi diqqət çəkir.

Martın 6-da Məhəmməd Şahbaz Şərif ilə İlham Əliyev arasında baş tutan telefon danışığı məhz bu strateji tərəfdaşlığın növbəti təsdiqi idi. Pakistanın Baş naziri telefon danışığında İran tərəfindən Azərbaycana qarşı həyata keçirilən hücum və terror aktlarını qətiyyətlə pislədiyini, Pakistan dövlətinin, eləcə də Silahlı Qüvvələrinin Azərbaycanın yanında olduğunu bəyan etdi. Baş nazir vurğuladı ki, Azərbaycan bu çətin mərhələdə Pakistana hər zaman arxalana bilər.

Öz növbəsində, Prezident İlham Əliyev göstərilən siyasi dəstəyə görə təşəkkür edərək Azərbaycanın da hər zaman qardaş Pakistanın haqq işini müdafiə etdiyini bildirib. Dövlət başçısının sözlərinə görə, İranın Azərbaycana qarşı törətdiyi terror aktının Pakistan tərəfindən dərhal və qəti şəkildə pislənməsi iki ölkə arasındakı münasibətlərin səmimi dostluq və strateji tərəfdaşlıq üzərində qurulduğunu bir daha sübut edir.

Təbii ki, Azərbaycan–Pakistan münasibətlərinin bu səviyyəyə yüksəlməsi uzun illər ərzində formalaşmış siyasi əməkdaşlığın nəticəsidir. İki ölkə arasında diplomatik münasibətlərin mövcud olduğu 34 il ərzində Bakı–İslamabad siyasi dialoqu davamlı xarakter daşıyıb və iki ölkə beynəlxalq təşkilatlarda bir-birinin mövqeyini sistemli şəkildə dəstəkləyib. Pakistan Qoşulmama Hərəkatı (QH), İslam Əməkdaşlıq Təşkilatı (İƏT) və digər nüfuzlu beynəlxalq platformalarda rəsmi Bakının mövqeyini açıq şəkildə müdafiə edən ölkələrdən biridir. Xüsusilə İƏT çərçivəsində qəbul edilmiş bir sıra qətnamələrdə Ermənistanın Azərbaycan torpaqlarını işğal faktının pislənməsində Pakistan dövlətinin rolu xüsusi diqqət çəkir.

Bəli, Azərbaycan–Pakistan münasibətlərinin ən prinsipial istiqamətlərindən biri dost və qardaş ölkənin Ermənistan məsələsində sərgilədiyi mövqedir. Pakistan uzun müddət dünyada Ermənistan ilə diplomatik münasibətlər qurmayan nadir dövlətlərdən biri olub. Əlbəttə ki, bu qərarın başlıca səbəbi Ermənistanın uzun illər Azərbaycan ərazilərini işğal altında saxlaması faktı idi. Pakistan parlamenti müxtəlif illərdə qəbul etdiyi qərarlarda Ermənistanı açıq şəkildə təcavüzkar dövlət kimi qiymətləndirib və Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini qəti şəkildə bəyan edib. İslamabad dəfələrlə bildirib ki, Ermənistanla diplomatik münasibətlərin qurulması yalnız Azərbaycanın mövqeyi nəzərə alınmaqla mümkün ola bilər.

Pakistanın bu məsələdə nə qədər qəti və prinsipial mövqe tutduğu isə ötən il aydın şəkildə göründü. Rəsmi İslamabad İrəvanla 30 ildən artıq müddətdən sonra 8 avqust 2025-ci ildə Vaşinqtonda imzalanmış Birgə Bəyannaməni əsas götürərək avqustun 31-də diplomatik münasibətlərin qurulmasına qərar verdi. Beynəlxalq münasibətlər praktikasında bir dövlətin digər dövlətin mövqeyini bu qədər açıq şəkildə əsas götürməsi olduqca nadir hallarda müşahidə olunur və bu fakt Azərbaycan–Pakistan münasibətlərinin strateji mahiyyətini göstərən əsas göstəricilərdən biridir.

***

Ölkələr arasında mövcud əməkdaşlıq, eyni zamanda, hərbi təhlükəsizlik sahələrində də kifayət qədər genişdir. Son illər Azərbaycan, Pakistan və Türkiyə arasında formalaşan üçtərəfli əməkdaşlıq formatı regionda yeni və güclü təhlükəsizlik platformalarından birinə çevrilib. 2021-ci ildən etibarən keçirilən "Üç Qardaş" birgə hərbi təlimləri bu əməkdaşlığın əyani göstəricisidir. Paralel olaraq, ötən il noyabrın 8-də Bakıda Vətən müharibəsində qazanılmış Qələbənin 5-ci ildönümünə həsr olunmuş hərbi paradda Pakistan Silahlı Qüvvələrinin hərbçilərinin iştirakı hərbi əməkdaşlığın rəmzi nümayişi oldu.

Azərbaycan Ordusunun bölmələri ilə yanaşı, Pakistan hərbçilərinin də paytaxtın Azadlıq meydanından keçidini iki ölkə arasında mövcud hərbi-siyasi koordinasiyanın və strateji tərəfdaşlığın bariz göstəricisi kimi qiymətləndirmək olar. Digər tərəfdən, Azərbaycan hərbçiləri də son illərdə mütəmadi olaraq, xüsusilə Pakistan Günü münasibətilə keçirilən hərbi paradlarda iştirak edir. Bu isə, öz növbəsində, iki dövlət arasında müdafiə sahəsində artan əməkdaşlığın, hərbi təcrübə mübadiləsinin və regional təhlükəsizlik məsələlərində ortaq mövqenin nümayişidir.

Qeyd edək ki, Pakistanın hərbi potensialı ölkəmizi bu sahədə İslamabadla sıx əməkdaşlığa yönəldir. Pakistan dünya üzrə nüvə silahına malik 9 ölkədən biridir. Ölkənin nüvə arsenalında təxminən 160–170 nüvə başlığı mövcuddur ki, Pakistan bu göstərici ilə dünyada ilk 10 hərbi gücü sırasında qərarlaşıb. Silahlı Qüvvələrin şəxsi heyətinin sayı 640 mindən çox, ehtiyat qüvvələrin sayı isə 500 minə yaxındır. Təbii ki, belə bir hərbi potensiala malik dövlətin Azərbaycanın mövqeyini açıq şəkildə dəstəkləməsi regionda geosiyasi balans baxımından ciddi əhəmiyyət daşıyır.

***

Diqqətçəkən digər məqam isə ondan ibarətdir ki, son dövrlər İranın həyata keçirdiyi yolverilməz hərbi əməliyyatları yalnız Naxçıvanla məhdudlaşmır. 2024-cü ilin əvvəlində İranın Pakistana endirdiyi raket zərbələri və ardınca Pakistan ordusunun həyata keçirdiyi cavab əməliyyatı regionda təhlükəsizlik mühitinin nə qədər həssas olduğunu göstərdi. Həmin vaxtı Pakistan İran ərazisində yerləşən müəyyən hədəflərə cavab zərbələri endirmişdi. Bu hadisə Tehranla qonşu dövlətlər arasında təhlükəsizlik münasibətlərində gərginliyin hansı səviyyəyə çata biləcəyini və İranın nə qədər etibarsız dövlət olduğunu nümayiş etdirdi.

Bununla belə, nə Bakı, nə də İslamabad regionda genişmiqyaslı müharibə ssenarisinin reallaşmasında maraqlı deyillər. Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif ölkəsinin İranla münaqişəyə cəlb olunmaq niyyətində olmadığını bildirmişdi. Oxşar mövqe Azərbaycan tərəfindən də səsləndirilib. Martın 5-də keçirilən Təhlükəsizlik Şurasının iclasında İlham Əliyev Azərbaycanın indiyə qədər heç vaxt İrana qarşı hər hansı hərbi əməliyyatlarda iştirak etmədiyini və etməyəcəyini vurğulayıb.

Beləliklə, faktlar onu göstərir ki, Bakı ilə İslamabad arasında formalaşmış münasibətlər strateji xarakter daşıyır və bundan sonra da yanlız davamlı inkişaf hədəflənib. Dünən dövlət başçıları arasında baş tutan telefon danışığı bu strateji tərəfdaşlığın yeni mərhələdə davam etdiyini göstərən mühüm siyasi hadisə kimi dəyərləndirilə bilər. Regional gərginliyin artdığı bir dövrdə Azərbaycan Prezidenti İlham Əliyevin və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin yaxşı, eyni zamanda, çətin günlərdə bir-birinə hər cür qarşılıqlı dəstəyi verməyə hazır olduqlarını bəyan etmələri qardaşlıq münasibətlərinin real geosiyasi maraqlara söykəndiyini bir daha təsdiqlədi.

Tacir SADIQOV
XQ

Azərbaycan dünyada tək deyil

İranın Naxçıvana dron hücumları beynəlxalq aləmdə kəskin qınanıb

İranın Naxçıvanın ərazisinə pilotsuz uçuş aparatları vasitəsilə endirdiyi zərbələr regionun təhlükəsizlik arxitekturasına yönəlmiş qorxulu eskalasiya hesab olunmalıdır. Təxribatın dərhal ardınca qlobal dövlətlərin rəhbərləri ardıcıl şəkildə Azərbaycan Prezidenti İlham Əliyevlə telefon danışıqları apararaq, rəsmi Tehranın qanunsuz hərəkətlərini qınadılar.

Nümayiş etdirilən sinxron diplomatik reaksiyalar, səsləndirilən həmrəylik bəyanatları ölkəmizin hər zaman etibarlı tərəfdaşlarla əhatələndiyi reallığını təsdiqlədi. Məkrli hücum, sadəcə, iki qonşu dövlət arasındakı gərginlik adlandırıla bilməz. Bu hərəkət bilavasitə regional sabitliyə böyük təhdid forması kimi səciyyələndirilir. Hökumət dərhal müvafiq addımlar ataraq İranın ölkəmizdəki səfirini Xarici İşlər Nazirliyinə çağırıb, ona sərt etiraz notası təqdim edib.

***

Yaranmış mürəkkəb siyasi şəraitdə Birləşmiş Ərəb Əmirliklərinin nümayiş etdirdiyi qətiyyətli mövqe xüsusi qeyd olunmalıdır. Dövlətin rəhbəri Şeyx Məhəmməd bin Zayed Al Nəhyan operativ şəkildə zəng edərək dövlətimizə yüksək səviyyəli dəstəyini ifadə edib. BƏƏ lideri düşmənçilik hərəkətlərini şiddətlə qınayaraq, olayı təhlükəli eskalasiya, suverenliyin yolverilməz pozuntusu adlandırıb. BƏƏ Prezidenti fevralın 28-də cənub qonşumuzun öz ölkəsinə endirdiyi zərbələr zamanı Azərbaycan tərəfindən göstərilən güclü dəstəyə, məhz həmin vaxt terroru qınayan qətiyyətə görə təkrar dərin minnətdarlığını çatdırıb.

Həyata keçirilən diplomatik ünsiyyət əsnasında Prezident İlham Əliyev Azərbaycanın hər zaman BƏƏ-nin yanında dayandığını vurğulayıb. Yaxın Şərqin əsas güc mərkəzlərindən sayılan BƏƏ-nin nümayiş etdirdiyi diplomatik addım respublikamızın qlobal aləmdə formalaşdırdığı strateji tərəfdaşlıq şəbəkəsinin yenilməz gücünü əyani şəkildə təsdiqləyir.

Qlobal xəritədə ən yaxın müttəfiq olan Türkiyənin lideri Rəcəb Tayyib Ərdoğanın atdığı qətiyyətli addım qardaşlıq tellərinin sarsılmazlığını yenidən sübuta yetirdi. O, dərhal zəng edərək xalqımızın, habelə rəhbərliyin daim yanında durduğunu qətiyyətlə bəyan etdi. Rəcəb Tayyib Ərdoğan cənubda yerləşən dövlətin Naxçıvana yönəltdiyi terror aktını pisləyərək, ortaq düşmənçilik əməllərinə qarşı vahid cəbhədə dayandıqlarını bildirdi.

Telefon danışığında məsələyə münasibət bildirən Türkiyə lideri bunları vurğulayıb: "Azərbaycana qarşı edilən hər hücum bilavasitə bizə edilmiş sayılır". Göstərilən qardaşlıq dəstəyi Ankaranın hər zaman rəsmi Bakının siyasi, diplomatik, həmçinin hərbi masasında polad dayaq qismində durduğunu dünya ictimaiyyətinə nümayiş etdirdi. Heç kəs müstəqil dövlətimizin suverenliyini təhdid edə bilməz, çünki Türk dünyasının vahid müdafiə konsepsiyası anında hərəkətə keçməyə qadirdir.

Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin təcili əlaqə yaradaraq Naxçıvana yönəlik hücumu kəskinliklə pisləməsi qonşuluq münasibətlərinin mühüm göstəricisidir. Kobaxidze Gürcüstan hökumətinin, həmçinin xalqının Azərbaycanla

həmrəy olduğunu vurğulayaraq, zərər çəkən vətəndaşların tezliklə sağalmalarını arzulayıb. Tbilisinin tutduğu ortaq mövqe regional təhlükəsizlik memarlığında iki ölkənin eyni cəbhədə dayandığını təsdiqləyir. Təcavüzkar hərəkətlərə qarşı sərgilənən həmin iradə Cənubi Qafqazda sülhün qorunmasına yönələn mütləq addımdır. Baş nazirin operativ reaksiyası terrora qətiyyən yer verilməyəcəyinin beynəlxalq aləmə bəyan edilməsidir.

Telefon danışığı qonşu dövlətlərin eyni təhdidlər qarşısında vahid blokda cəmləşmək əzmini göstərdi. Həmin rəsmi münasibət təxribatçı qüvvələrə açıq mesajdır: Qafqaz regionunda güc tətbiqi siyasəti qətiyyən işləmir. Gürcüstanın mütləq şəkildə Azərbaycanın yanında yer alması regional nəqliyyat marşrutlarının, habelə logistik dəhlizlərin təhlükəsizliyinin ortaq qayğı kimi dəyərləndirilməsini vurğulayır.

Azərbaycan rəhbərliyinə təkcə regiondan deyil, Asiya məkanından da güclü dəstək gəlməkdədir. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev telefon danışığı əsnasında mülki infrastruktura, xüsusilə də məktəb binasına endirilən zərbələri qətiyyətlə pisləyib. O, Özbəkistanın hər zaman qardaş dövlətin yanında məğrurcasına dayandığını vurğulayıb. Özbəkistanın sərgilədiyi strateji mövqe türk dünyasının, eləcə də İslam aləminin ortaq problemlər qarşısında səfərbər olduğunu xəbər verir. Prezident Şavkat Mirziyoyevin operativ reaksiyası terroru yalnız uzaqdan qınamaq aktından ibarət sayılmır, eyni məqamda, tərəfdaşlığın çətin günlərdəki real testindən uğurla keçməsini təmsil edir.

Avropa qitəsindən nümayiş etdirilən Bakı ilə yekdillik reaksiyası mühüm siyasi əhəmiyyət kəsb edir. Latviya Prezidenti Edqars Rinkeviçs telefon danışığında Avropa İttifaqı məkanından ölkəmizə ciddi dəstək nümayiş etdirib. Latviya rəhbəri baş vermiş terror aktını şiddətlə pislədiyini, yaralanan dinc sakinlərə şəfa arzuladığını bəyan edərək, latış xalqının həmrəylik hissələrini rəsmi Bakıya çatdırıb. Şərqi Avropadan Albaniyanın Baş naziri Edi Rama həmçinin Monteneqro hökuməti qitə miqyasında aqressiyaya heç vaxt tolerantlıq göstərilməyəcəyini rəsmən elan ediblər. Avrasiya məkanında yerləşən Qazaxıstanın lideri Kasım Jomart Tokayevlə bərabər, bir sıra Qərb liderləri ardıcıl bəyanatlar yayaraq təxribatın bəşəri miqyasda qəbuledilməzliyini qlobal kütləvi informasiya vasitələrinin diqqətinə çatdırıblar.

İslam Əməkdaşlıq Təşkilatının, həmçinin Türk Dövlətləri Təşkilatının hadisə ilə bağlı qəbul etdiyi rəsmi bəyanatlar kollektiv təhlükəsizlik arxitekturasının tam aktivləşdiyini sübuta yetirir. Qeyd edilən beynəlxalq qurumların yaydığı sənədlər təcavüzkara qarşı vahid İslam coğrafiyasının təşkilatlanmasını nümayiş etdirir. Ərazi bütövlüyünü sual altına almağa çalışan hər hansı dairə dərhal qarşısında mütəşəkkil təsisatların sərt xəbərdarlığını görür. Yekun baxış göstərir ki, kənar qüvvələrin formalaşdırdığı zərərli ssenari respublikamızı daha sıx qlobal ittifaqlarla inteqrasiyaya sövq etdi. Sərhədlərin toxunulmazlığı faktı təkcə daxili güc resursları hesabına qorunmur, qlobal həmrəylik dalğası real vəziyyətin lehimizə dəyişməsinə aktiv vasitəçilik edir.

***

Azərbaycan cəmiyyəti xarici müdaxilələr qarşısında sarsılmaz iradə nümayiş etdirməkdə xüsusi nümunə yaradıb. Diplomatik müstəvidə həyata keçirilən təxirəsalınmaz gedişlər düşmənin küncə sıxışdırılmasını asanlaşdırır. Rəsmi Bakının apardığı çoxvektorlu, habelə balanslı xarici siyasət paradiqması regional təcridin qarşısını alaraq etibarlı dostlar şəbəkəsi qurmağı mümkün edib. Zəngəzur logistika xətti gerçəkləşdikcə, həm iqtisadi, həm də strateji cəhətdən regionda fərqli nizam formalaşır. Qlobal nəqliyyat qovşağının açılması mövcud güc mərkəzlərinin siyasi xəritəsini yenidən cızır. Ancaq məntiqi nəticə göz qabağındadır: təcavüzkar tərəf ağır sanksiyalar, siyasi embarqolar içərisində boğularkən, dövlətimiz beynəlxalq koalisiyanın güclü dəstəyi ilə mütəmadi irəli gedir, milli maraqların daimi müdafiəsini sığortalayır. Böyük dövlətlərin nümayiş etdirdiyi etibarlı rəftar gələcək onilliklərdə regionun arxitekturasında sülhün qarantı kimi fəaliyyət göstərəcək.

Y.YAQUBOĞLU
XQ

Almaniya Azərbaycanda sülhü və sabitliyi ardıcıl dəstəkləyir

Avropa İttifaqının isə ölkəmizə geosiyasi marağı artır

Almaniya hər zaman Cənubi Qafqazda sülhü qətiyyətlə dəstəkləyib və regionda sabitliyin tərəfdarı olub. Bu sülhə sadiqlik hazırda da əlaqələrimizin genişlənən aspektlərində özünü göstərir. Məhz həmin səbəbdən rəsmi Berlinlə Bakı arasındakı əlaqələr hazırda inkişaf davam edir. İkitərəfli formatı ötən bu əlaqələr birbaşa Avropa İttifaqı (Aİ) miqyaslı xarakter alır. Qitə miqyaslı təhlükəsizlik memarlığının yenidən formalaşdığı hazırkı dövrdə rəsmi Bakının mövqeyi Avropa institutları tərəfindən yüksək qiymətləndirilir.

Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovun Almaniya Federativ Respublikasına işgüzar səfəri qeyd olunan strateji xəttin məntiqi davamıdır. Səfər çərçivəsində aparılan müzakirələr Azərbaycanın Aİ ilə əməkdaşlığı, Almaniya–Azərbaycan münasibətlərinin inkişaf perspektivləri və Cənubi Qafqazda sülh gündəliyini tam əhatə edib. Dövlət nümayəndəsi səfər proqramına uyğun olaraq Almaniyanın yüksək rütbəli dövlət rəsmiləri ilə mühüm görüşlər keçirib.

Xarici İşlər Nazirliyinin Avropa məsələləri üzrə dövlət naziri Günter Krixbaum, Prezidentin xarici siyasət üzrə müşaviri Volfqanq Dold, kanslerin xarici və təhlükəsizlik məsələləri üzrə müşavirinin müavini Aleksander Eberl ilə danışıqlar baş tutub. Paralel olaraq, Bundestaqın xarici siyasət komitəsinin sədri Armin Laşet, Almaniya–Cənubi Qafqaz parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Mirze Edis, qrupun digər üzvləri, həmçinin Xarici İşlər Nazirliyinin Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya üzrə direktoru Niklas Vaqner ilə məhsuldar fikir mübadiləsi aparılıb. Qeyd olunan təmaslar vasitəsilə strateji məqsədlərin uzlaşdırılması təmin edilir.

Rəsmi Bakının yürütdüyü xarici siyasət kursu regionda təhlükəsizlik arxitekturasının möhkəmlənməsinə xidmət edir. Aİ institutları yaranmış reallıqları qəbul edərək, Azərbaycanı ən etibarlı tərəfdaş qismində dəyərləndirir. Şərqlə Qərb arasında yaranan geosiyasi qütbləşmə şəraitində respublikamız təmkinli diplomatiya nümayiş etdirərək, qlobal güclərin toqquşma meydanına çevrilməkdən tamamilə yayınıb. Əksinə, enerji təhlükəsizliyi, alternativ nəqliyyat dəhlizlərinin inkişafı, logistika imkanlarının genişlənməsi fonunda respublikamızın strateji çəkisi artır. Qitə dövlətlərinin enerji təchizatında yaranan risklər müstəvisində dövlətimiz əvəzedilməz ölkəyə çevrilib.

Məhz yuxarıda qeyd edilən görüşlərin gündəliyi də həmin qlobal maraqların uzlaşdırılmasını nümayiş etdirir. Qərbin siyasi mərkəzləri, xüsusən də Berlin idarəçiləri başa düşürlər ki, Cənubi Qafqazda davamlı sülh yalnız Azərbaycanın milli maraqları çərçivəsində təmin oluna bilər. Şərqlə Qərb arasında ticarət marşrutlarının kəsişməsində yerləşən ölkəmiz tranzit əhəmiyyətini iqtisadi dividenddən böyük geosiyasi təsir rıçağına çevirməyi bacarıb. Asiya qitəsindən başlayan logistik zəncirin fasiləsizliyini təmin edən əsas halqa məhz Xəzər dənizi hövzəsidir. Qlobal miqyaslı nəqliyyat marşrutlarının təhlükəsizliyini qorumaq xüsusi peşəkarlıq tələb edən amildir. Xüsusilə də Orta Dəhliz konsepsiyasının aktuallaşması fonunda respublikamızın daşıdığı missiya daha qlobal əhəmiyyət kəsb edir. Azərbaycan hökuməti həmin missiyanın öhdəsindən layiqincə gələrək, transkontinental yük daşımalarının alternativsiz mərkəzinə çevrilib.

Ermənistanla aparılan sülh danışıqları prosesində Almaniyanın tutduğu mövqe xüsusi diqqət tələb edən məqamlardandır. İndi isə azad edilmiş ərazilərin minalardan təmizlənməsi, infrastrukturun bərpası məsələlərində alman texnologiyalarının cəlb edilməsi qarşılıqlı maraq doğuran amillərdəndir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında icra olunan meqalayihələr xarici investorlar üçün böyük potensial vəd edir. Almaniyanın aparıcı korporasiyalarının həmin proseslərə cəlb olunması ikitərəfli əlaqələri qırılmaz iqtisadi tellərlə bağlayacaq.

Diplomatik təmasların mütəmadi xarakter alması siyasi etimad mühitinin dərinləşdiyini göstərir. Parlament diplomatiyası çərçivəsində Bundestaq təmsilçiləri ilə keçirilən görüşlər qanunverici orqanlar səviyyəsində informasiya mübadiləsinin aparılmasını asanlaşdırır. Alman deputatların regiondakı proseslər barədə obyektiv məlumatlandırılması radikal erməni diasporunun anti-Azərbaycan təbliğatını zərərsizləşdirir. Eyni zamanda, Avropa Komissiyası daxilində qərarların qəbulu mexanizmində Almaniyanın həlledici səsə malik olması rəsmi Berlinlə dialoqun əhəmiyyətini qat-qat artırır.

* * *

Avropa coğrafiyasında baş verən hərbi-siyasi böhranlar fonunda enerji resurslarının diversifikasiyası xüsusi önəm daşıyır. Azərbaycan karbohidrogen ehtiyatlarını Qərb bazarlarına çıxarmaqla qitə dövlətlərinin iqtisadi təməllərini qorumağa mühüm töhfə verir. Xəzər dənizindən başlayan və Avropanın dərinliklərinə qədər uzanan enerji infrastruktur layihələri qitə dövlətlərini enerji böhranından sığortalayır. Xüsusən də alternativ enerji növlərinə keçid mərhələsində respublikamızın təklif etdiyi "yaşıl enerji" resursları bütöv regionun iqtisadi modelini müsbətə doğru dəyişdirəcək. "Yaşıl enerji" potensialının mənimsənilməsi və ixracı sahəsində Qərb şirkətlərinin respublikamıza axını müşahidə edilir.

Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsinin AFR rəsmiləri ilə təmasları, sadəcə, diplomatik protokol qaydalarının icrası sayılmamalıdır. Səfər müddətində müzakirəyə çıxarılan hər məsələ gələcək iqtisadi və siyasi layihələrin təməlini təşkil edir. Məhz rəsmi Bakının balanslaşdırılmış xarici siyasəti sayəsində regiona kənar müdaxilələrin qarşısı alınır, sabitliyin bərqərar olması sürətlənir.

Almaniya Federativ Respublikası hökuməti də Azərbaycanın mövqeyinə anlayışla yanaşaraq, əməkdaşlığı dərinləşdirmək əzmində olduğunu nümayiş etdirir. İmzalanması gözlənilən yeni strateji tərəfdaşlıq sazişi kontekstində rəsmi Berlinin mövqeyi həlledici xarakter daşıyır. Hesab edilir ki, Şərq Tərəfdaşlığı proqramının ən səmərəli iştirakçısı məhz Azərbaycandır. Hərbi əməliyyatlardan sonrakı dövrdə bərpa işlərinin sürətlə aparılması Avropa mərkəzlərində rəğbətlə qarşılanır. Təkcə iqtisadi sferada qeydə alınan göstəricilər yekun hədəflərin ciddiliyindən xəbər verir.

Mürəkkəb geosiyasi oyunların getdiyi indiki mərhələdə heç kəsdən asılı vəziyyətə düşmədən, milli maraqların sərt müdafiə olunması mükəmməl dövlətçilik strategiyasının əsas göstəricisidir. Təsadüfi saymaq olmaz ki, Qərb dünyasının aparıcı siyasi xadimləri rəsmi Bakı ilə hesablaşır, mütəmadi məsləhətləşmələr aparır. Diplomatik korpusun Almaniyada reallaşdırdığı təmaslar sadəcə informasiya mübadiləsi xarakteri daşımır, eyni zamanda, qlobal sülh memarlığının mühüm detallarını ehtiva edir. Şərqlə Qərb arasında möhkəm strateji tranzit qovşağı rolunu oynayan dövlətimiz Avropa məkanının təhlükəsizlik qarantına çevrilib.

Regionda diktə edən tərəf kimi gücümüz artır, diplomatik qələbələrimiz isə iqtisadi-siyasi potensialımızı daha da möhkəmləndirir. Mövcud vəziyyət sübuta yetirir ki, dünyanın siyasi nizamının yenidən qurulduğu şəraitdə qalib Azərbaycan beynəlxalq münasibətlər sisteminin ən vacib ölkəsi qismində çıxış edir.

Yusif ŞƏRİFZADƏ
XQ

Hibrid müharibə: rəqəmsal platformadan seçki qutusuna

(əvvəli 1-ci səhifədə)

Bu mürəkkəb "müharibənin" əsas iştirakçılarını analiz edərkən həm regional, həm də qlobal güclərin toqquşan maraqları mütləq nəzərə alınmalıdır. Rəsmi İrəvan, xüsusilə baş nazir Nikol Paşinyan və parlament sədri Alen Simonyan müxtəlif platformalarda Rusiyanın Ermənistana qarşı hibrid metodlardan istifadə etdiyini açıq şəkildə bəyan ediblər. Bildirilib ki, təxribat xarakterli başlıqlar birbaşa Rusiya mediası və bəzi erməni dairələri tərəfindən yaradılır və onlar ən yaxşı halda sonuncunun materiallarını mexaniki şəkildə yenidən çap edirlər. Bundan başqa, hazırda Ermənistan daxilində klan mübarizəsi gedir. Qarabağ klanı adlanan qüvvələr və digər "eks"lər hakimiyyəti ələ keçirməyə çalışırlar. Onlar mətbuatda geniş təbliğ edilir. Kremlin nəzarətindəki media resurslarının yaydığı dezinformasiya, cəmiyyətdə süni qütbləşmə yaratmaq cəhdləri, siyasi sabitliyi pozmağa yönəlmiş addımlar bu çoxölçülü müharibənin görünən tərəfidir.

Təhlükə bununla bitmir. Kiberməkanın dərinliklərində hədəf seçilən dövlət qurumları, bank sektoru və telekommunikasiya infrastrukturu mütəmadi olaraq peşəkar haker qruplarının hücumlarına məruz qalır. İnformasiya sahəsində və beynəlxalq platformalarda Ermənistanın imicinə zərbə vurmaq, daxili auditoriyada dövlətə inamsızlıq toxumu səpmək kimi hibrid alətlər ölkənin suverenliyinə qarşı yönəlib. Seçkiöncəsi dövrdə bu təzyiqlərin daha da intensivləşəcəyi gözlənilir.

Hibrid təhdidlər iqtidar üçün ciddi risklər yaradır, çünki onlar ənənəvi hərbi qarşıdurmadan fərqli olaraq siyasi, informasiya, kiber və psixoloji təsir vasitələrinin paralel istifadəsi ilə dövlətin daxili dayanıqlılığını zəiflətməyə yönəlib. Artıq təkcə texniki boşluqlar deyil, həm də insanların diqqətsizliyi və siyasi həssaslığı birbaşa hədəf alınır. Xüsusilə "@civilcontact.am" kimi saxta domenlərin dövlət rəsmilərinə göndərdiyi məktublar idarəçilikdə xaos yaratmaq və məxfi məlumatları ələ keçirmək məqsədi daşıyır.

Ermənistan Xarici Kəşfiyyat Xidmətinin 2026-cı il üçün hesabatında vurğulandığı kimi, bu fəaliyyətlər sülh prosesinin əhəmiyyətini azaltmaq, cəmiyyətdə "məxfi razılaşmalar" barədə yalan məlumatlar yaymaq və saxta geosiyasi seçimlər təqdim etmək niyyəti güdür. Bu mənzərədə müasir hibrid müharibənin ən qorxulu silahı məhz generativ süni intellekt vasitəsilə yaradılan dezinformasiyadır. Bu səbəbdən iyun ayında keçiriləcək parlament seçkiləri ərəfəsində hibrid təhdidlər və dezinformasiya riski yenidən gündəmin mərkəzinə çevrilib. Bu, nəyi dəyişə bilər?

Suala cavab vermək üçün qeyd edək ki, generativ süni intellekt texnologiyalarından istifadə etməklə ictimai rəyi manipulyasiya etmək və seçki prosesinə dolayı müdaxilə etmək texniki baxımdan daha asan hala gəlib.

***

Hibrid təsir əməliyyatlarının digər təhlükəli istiqaməti kiberfırıldaqçılıq və məlumat oğurluğu ilə bağlıdır ki, burada "taypskvottinq" metodları xüsusi risk amili kimi önə çıxır. Hücum edən tərəflər rəsmi dövlət qurumlarının və ya hakim partiyanın domenlərinə vizual bənzərliyi olan saxta ünvanlar yaradaraq istifadəçiləri aldatmağa çalışırlar. Məsələn, hakim "Mülki müqavilə" partiyası adından istifadə edilərək həyata keçirilən son fişinq hücumları göstərir ki, dövlət rəsmilərinin və seçicilərin diqqətsizliyi artıq strateji hədəfdir. İnsanlar fərqinə varmadan şəxsi məlumatlarını və ya həssas sənədlərə çıxış imkanlarını bu platformalar vasitəsilə ötürürlər. Bu kibermetodlar süni intellektin imkanları ilə birləşdikdə təhlükənin miqyası genişlənir. Generativ süni intellekt artıq real şəxslərin yazı üslubuna, nitq tempinə və emosional çalarlarına uyğun inandırıcı materiallar hazırlamağa qadirdir.

İyun seçkiləri ərəfəsində rəsmi şəxslərin adından yayıla biləcək belə saxta müraciətlər informasiya mühitində sürətli çaşqınlıq yarada, ictimai rəyi yanlış yönləndirə və dövlət institutlarına olan onsuz da kövrək inamı sarsıda bilər. Ermənistan iqtidarı üçün əsas təhdid bu əməliyyatların çoxşaxəli və sinxron xarakteridir. Beləliklə, informasiya manipulyasiyası, sosial şəbəkələrdə psixoloji təsir və siyasi diskreditasiya cəhdləri bir-birini tamamlayan zəncirvari hərəkətə çevrilib. Uzunmüddətli perspektivdə bu fəaliyyətlər təkcə seçki nəticələrinə təsir göstərmək deyil, həm də ölkənin strateji xarici siyasət qərarlarına dolayı müdaxilə etmək, sülh prosesini gözdən salmaq və cəmiyyətdəki emosional həssaslıqlardan istifadə edərək süni geosiyasi seçimlər formalaşdırmaq məqsədi güdür. İyun sınağı Ermənistanın rəqəmsal suverenliyini və institusional dayanıqlılığını qorumaq üçün həlledici dövr olacaq.

Parlament seçkiləri ərəfəsində artan rəqəmsal təhdidləri analiz edən **"Mindsoft" MMC-nin təsisçisi, süni intellekt mütəxəssisi Vüsal Orucov** bildirdi ki, müasir hibrid müharibələrin ən strateji və kəsərli silahı artıq klassik hərbi texnika deyil, məhz generativ süni intellekt vasitəsilə sistemləşdirilən dezinformasiyadır. Ekspertin qənaətinə görə, iyun seçkiləri ərəfəsində "deepfake" və digər generativ texnologiyalar vasitəsilə dövlət rəsmilərinin adından gerçəklikdən fərqlənməyən saxta video və audio müraciətlərin hazırlanması Ermənistanın daxili sabitliyi üçün ciddi riskdir. V.Orucov vurğuladı ki, bu, cəmiyyətdə idarəolunmaz xaos və panika yaratmaq potensialına malik, texniki cəhətdən hər an icra oluna biləcək bir reallıqdır: "Seçki günü namizədlərin "seçkidən çəkilməsi" və ya "saxta etirafları" ilə bağlı yayıla biləcək inandırıcı süni görüntülər rəsmi təkzib gələnə qədər seçicilərin rəyini geri dönməz şəkildə manipulyasiya edə bilər".

Süni intellekt mütəxəssisi seçki prosesinə təsir göstərə biləcək ən qorxulu amilləri üç əsas istiqamətdə qruplaşdırdı: "İlk növbədə, fərdiləşdirilmiş manipulyasiya (micro-targeting) vasitəsilə hər bir vətəndaşın rəqəmsal profilinə və maraq dairəsinə uyğun saxta xəbər axını yaradıla bilər. Bu metod cəmiyyəti daxildən qütbləşdirərək dövləti xarici müdaxilələrə qarşı müdafiəsiz qoyur. İkinci mühüm amil hücumların koordinasiyalı xarakter daşıması ilə bağlıdır. İnformasiya kirliliyi kiberhücumlar, psixoloji təsir kampaniyaları və siyasi diskreditasiya cəhdləri ilə paralel həyata keçirilir ki, bu da dövlət institutlarının müqavimətini zəiflədir. Nəhayət, aşkarlanma çətinliyi ən böyük problemdir. Alqoritmlərin yaratdığı saxta kontent o qədər inandırıcıdır ki, sıravi seçicinin manipulyasiyanı ayırd etməsi demək olar ki, qeyri-mümkündür".

V.Orucov onu da qeyd etdi ki, iyun seçkiləri Ermənistan üçün təkcə siyasi rəqabət deyil, həm də ciddi texnoloji imtahandır. Ekspertə görə, dövlətin rəqəmsal suverenliyini qorumaq üçün həm institusional islahatların aparılması, həm də cəmiyyətin informasiya savadlılığının artırılması artıq strateji zərurətə çevrilib. Bu rəqəmsal "immun sistemi" qurulmadığı təqdirdə, süni intellekt alətləri demokratik prosesləri daxildən sarsıdan görünməz silaha çevriləcəkdir.

Beləliklə, hibrid təhdidlər təkcə kibertəhlükəsizlik problemi deyil, həm də siyasi institutların dayanıqlılığı, ictimai etimad və informasiya mühitinin sağlamlığı ilə bağlı kompleks təhlükəsizlik çağırışıdır. İyun seçkiləri ərəfəsində dövlət institutlarının, mülki cəmiyyətin və beynəlxalq tərəfdaşların koordinasiyalı fəaliyyəti Ermənistanın institusional dayanıqlılığını təmin etmək və seçki prosesinin bütövlüyünü yeni nəsil təhdidlərdən qorumaq üçün həlledicidir. Yalnız bu halda hibrid təsir əməliyyatlarının yaratdığı sistemli riskləri azaltmaq və dövlətin institusional dayanıqlılığını qorumaq mümkün olacaq.

Pünhan ƏFƏNDİYEV
XQ

Baden-Vürtemberq seçkiləri

AfD Almaniyanın siyasi mənzərəsini dəyişə bilərmi?

Almaniyada federal seçkilər öncəsi siyasi atmosfer getdikcə daha gərgin xarakter alır. Gərginlik ölkənin sənaye baxımından ən inkişaf etmiş bölgələrindən biri sayılan Baden-Vürtemberq əyalətində daha çox müşahidə olunur. Bazar günü keçiriləcək seçkilər, ümumilikdə, Almaniyanın daxili siyasi dinamikasının göstəricisi kimi qiymətləndirilir. İfrat sağ qüvvə "Almaniya üçün Federativ" (AfD) partiyası şərqdəki ənənəvi dayaqlarından kənara çıxaraq, qərbdə də təsir dairəsini genişləndirmək niyyətindədir.

Baden-Vürtemberq əyalətindəki seçkilər, bu mənada, əhəmiyyətlidir. Çünki AfD iqtisadi narazılıqdan siyasi kapital kimi istifadə edərək sosial təbəqələr arasında qorxu və narazılığı manipulyasiya edir. Məsələnin dərininə ensək, görərik ki, Şərqdə uzun illər mövcud olan dəstək bazasını qərbdə təkrar yaratmaq partiyanın, bir növ, strateji manevr qabiliyyətini test etməsi anlamına gəlir.

Siyasi analitiklər qeyd edir ki, AfD-nin qərb əyalətlərində uğuru Almaniyanın siyasi spektrində ciddi dəyişikliklərə səbəb ola bilər. Əgər partiya müvafiq səviyyədə dəstək qazansa, mərkəzçi partiyalar, xüsusilə Xristian Demokrat Birliyi (CDU) və Sosial Demokratlar (SPD) koalisiyalarda daha çox təzyiq altında qalacaq. Bu da qərb əyalətlərində siyasətçilərin yeni taktikalara, islahat mesajlarına və sosial proqramlara yönəlməsini tələb edəcək. Belə olduğu təqdirdə, AfD-nin ənənəvi dəstək bazasına geri dönə bilər. Hər iki halda, nəticələrin Almaniyanın daxili siyasəti ilə yanaşı, həm də Avropa İttifaqı daxilində siyasi dinamikanı dəyişdirmə potensialı var.

Yeri gəlmişkən, yazının əvvəlində qeyd etdiyimiz Baden-Vürtemberq əyalətinin prosesdəki rolunu da aydınlaşdıraq. Təxminən 11 milyon əhalisi olan əyalətdə fəaliyyət göstərən qlobal avtomobil istehsalçıları – "Mercedes-Benz" və "Porsche" uzun illər regionun iqtisadi rifahını təmin edən nəhənglərdən idilər. Çünki əhalinin sabit məşğulluğu məhz bu şirkətlərin hesabına təmin edilirdi. Lakin elektrik avtomobillərinə keçid prosesinin sürətlənməsi və istehsal zəncirində baş verən dəyişikliklər Almaniyanın ənənəvi avtomobil sektoruna ciddi təsir göstərdi. Təsir artıq konkret iqtisadi qərarlarda da özünü büruzə verir. Avtomobil komponentləri istehsal edən "Bosch" yaxın illərdə minlərlə iş yerinin ixtisar ediləcəyini

yüksəlişi bir tərəfdən, Avropadakı sağ populist tendensiyaların Almaniya üçün konkret simvolu kimi görünür, digər tərəfdən, ölkənin federal quruluşunun və siyasi institutlarının dayanıqlılığını sınağa çəkir.

İqtisadi narahatlıqların AfD üçün bir vasitə kimi istifadəsinə gəldikdə, bu, Almaniya cəmiyyətindəki narazılıq və etimad çatışmazlığını göstərir. Enerji qiymətlərinin artması, əmək bazarında qeyri-sabitlik və sosial xidmətlərin yüklənməsi vətəndaşların siyasi hərc-mərcliklərə yönəlməsinə zəmin yaradır. Amma AfD-nin qərb əyalətlərindəki nəticələri, həmçinin digər Avropa ölkələrində sağ populist partiyaların strategiyasına örnək ola bilər. Çünki Almaniya Avropanın ən böyük iqtisadi və siyasi aktorlarından biridir və burada yaranan trendlər qitə miqyasında rezonans doğurur. Bu baxımdan, sabah keçiriləcək seçkilərdə AfD-nin uğur qazanması Almaniya daxilində və xaricində siyasi dialoqu formalaşdıracaq, mərkəzçi partiyaların strategiyalarını yenidən nəzərdən keçirməyə məcbur edəcək. Eyni zamanda, partiyanın qərb əyalətlərində güclənməsi şəhər və kənd əhalisi arasında fərqləri daha görünən edərək siyasi qütbləşmənin dərinləşməsinə səbəb ola bilər.

Yəni perspektivin bir neçə ssenari üzrə formalaşacağı güman edilir. Əgər AfD öz mövqeyini tam gücləndirməyi bacarsa, Almaniya siyasətində sağ populizm daha çox təmsil olunacaq və mərkəzçi partiyalar üçün tənzimləyici və adaptiv strategiyalar zərurətə çevriləcək. Digər tərəfdən, seçici bazasında partiyanın mesajlarına qarşı müqavimət yaranarsa, AfD-nin qərb əyalətlərindəki yüksəlişi müvəqqəti fenomen kimi qalıb, şərqdəki açıqlayıb. Eyni zamanda, "Mercedes-Benz" xərclərin azaldılması proqramı çərçivəsində əməkdaşlarına könüllü işdənçıxma paketləri təqdim etməyə başlayıb. Belə bir məqamda ifrat sağçı "Almaniya üçün Alternativ" partiyası seçki kampaniyasında yeni sosial dəstək qazanmağa çalışır. Uzun müddət əsasən miqrasiya mövzusu üzərində qurulan siyasi ritorika indi daha çox iqtisadi problemlərə yönəlir. Önəmlisi isə odur ki, partiya Almaniyanın sənaye sektorunda yaşanan çətinliklərə görə əsas siyasi qüvvələri məsuliyyət daşımaqda ittiham edir. Seçki kampaniyası çərçivəsində AfD nümayəndələri avtomobil sənayesində çalışan işçilərlə görüşlərə xüsusi diqqət ayırır. Partiyanın tanınmış simalarından biri olan Alisa Veydel Ştutqart yaxınlığında yerləşən "Mercedes-Benz" zavodu qarşısında çıxış edərək sənayedə artan narahatlıqlara diqqət çəkib.

Sonda bir daha qeyd edək ki, AfD-nin yüksəlişi, Almaniyanın siyasi peyzajını həm partiyalararası rəqabət baxımından qiymətləndirməyi zəruri edir. Seçkilər Avropadakı sağ populist dalğaların Almaniyada necə əks olunacağını müəyyənləşdirəcək. Sözsüz ki, bu da federal dövlətin siyasi balansı üçün kritik əhəmiyyətə malikdir. Maraqlıdır, AfD qərbdə köklərini möhkəmləndirə biləcəkmi, yoxsa şərqdəki dəstək bazasının xaricində uğursuzluğa düçar olacaq? Sualın cavabı dəqiq olmasa da, prosesin Almaniyanın gələcək yönünü və Avropa siyasətinə təsirinin miqyasını müəyyənləşdirəcəyi dəqiqdir.

Nəzrin ELDARQIZI
XQ

Ekspert rəyi

Yeganə HACIYEVA,
politoloq

Son on ildə Avropanın bir çox ölkələrində yeni nəsil siyasətçilər daha sərt milli mövqe nümayiş etdirməklə və cəmiyyətlərin təhlükəsizlik, kimlik və mədəniyyət narahatlıqlarına toxunmaqla siyasi uğurlar qazanmağa başlayıblar. Bu tendensiyanın formalaşmasına səbəb olan əsas amillərdən biri ərəb baharından sonra Şimali Afrika və Yaxın Şərqdən Avropaya yönəlmiş geniş miqrasiya axını idi. Böyük miqrant axınının gətirdiyi yeni sosial və mədəni elementlər bəzi hallarda yerli cəmiyyətlərin uzun müddət formalaşmış dini, mədəni və məişət dəyərləri ilə toqquşub. Nəticədə, bəzi seçicilər daha sərt miqrasiya siyasəti və milli identiklik məsələlərinə üstünlük verən siyasi qüvvələrə yönəlməyə başlayıblar. Bu şəraitdə bir çox siyasi qüvvələr miqrasiya, sosial inteqrasiya və təhlükəsizlik məsələləri ətrafında formalaşan narazılıqları siyasi gündəmin əsas mövzularından birinə çevirərək seçici dəstəyi qazanmağa çalışdılar.

Millətçi və sağyönümlü siyasi qüvvələrin seçkilərdə daha güclü mövqe qazanması Almaniya və ümumilikdə Avropa üçün bir sıra risklər yaradır. Proses cəmiyyətlərdə siyasi və sosial qütbləşmənin artmasına səbəb olub, miqrasiya və milli identiklik kimi mövzuların kəskin şəkildə siyasiləşdirilməsi müxtəlif etnik və dini qruplar arasında gərginliyin artması ehtimalını gücləndirib. Digər tərəfdən, belə qüvvələrin güclənməsi Avropa İttifaqı daxilində siyasi həmrəyliyə də təsir göstərib. Milli maraqların daha çox ön plana çəkilməsi ümum-Avropa siyasətində fikir ayrılıqlarının dərinləşməsi və birgə qərarların qəbulunu çətinləşməsi ilə nəticələnib. Bu baxımdan, sağyönümlü populizmin güclənməsi Almaniyada, Avropada siyasi sabitlik və inteqrasiya prosesləri üçün həlli çətin çağırışlar yaradıb.

Nümunə olaraq Ukrayna müharibəsi ətrafında Aİ üzv ölkələri və Brüssel arasındakı fikir ayrılığını göstərə bilərik. Bundan başqa, cəmiyyət daxilində siyasi qütbləşmənin artması müxtəlif sosial və etnik qruplar arasında gərginliyin yüksəlməsinə səbəb olub. Bu da uzunmüddətli perspektivdə həm Almaniyada, həm də ümumilikdə Avropada sosial sabitlik və demokratik institutların fəaliyyətinə əlavə təzyiqlər yaradır.

Qlobal güclərin "dəhliz" maraqları

(əvvəli 1-ci səhifədə)

Azərbaycan bu konfiqurasiyada əsas rol oynayır. Ölkəmiz həm Orta Dəhlizin coğrafi mərkəzi, həm də regional sülh və logistik təhlükəsizliyin təminatçısı kimi çıxış edir. O da məlumdur ki, Azərbaycanın iştirakı olmadan TRIPP marşrutunun tam işləməsi mümkün deyil. Bu, ölkənin həm Qərb, həm də Şərq üçün əvəzolunmaz tərəfdaş statusunu gücləndirir, regiondakı diplomatik oyunlarda əlavə üstünlük verir. Alternativ marşrutların reallaşmasında Azərbaycanın oynadığı açar rol onun strateji mövqeyini maksimum dərəcədə möhkəmləndirir və geoiqtisadi təsir imkanlarını artırır.

Rusiya bu təşəbbüsə cavab olaraq uzun illər "donmuş" vəziyyətdə qalan Abxaziya dəmir yolunu bərpa etməyə çalışır. Vaxtilə RSFSR ilə Gürcüstan SSR-i Soçi və Suxumi üzərindən birləşdirən, 1990-cı illərdəki münaqişələr nəticəsində iflic olmuş bu xətt Moskvanın regiondakı əsas "geosiyasi kartı" kimi qabardılır. Lakin real vəziyyət göstərir ki, xəttin iqtisadi perspektivləri məhduddur. Yüklərin həcmi, infrastrukturun texniki vəziyyəti və regiondakı siyasi risklər onu TRIPP marşrutuna rəqib ola biləcək qədər güclü etmir.

Bu təşəbbüsün məqsədi, əslində, iqtisadi deyil, strateji blef və diplomatik siqnaldır. Moskva Abxaziya xəttini qabardaraq Qərbin təşəbbüsünə qarşı mesaj verməyə, regional oyun qaydalarını xatırlatmağa çalışır. Lakin mövcud reallıq onu göstərir ki, bu cəhdlər praktiki baxımdan uğursuzdur. Xəttin açılması Gürcüstanın qəti mövqeyi, infrastrukturun texniki çatışmazlıqları və siyasi risklər səbəbindən real ticarət və logistika alternativi kimi işləməyəcək.

Gürcüstan tərəfi layihəyə qarşı qəti mövqe nümayiş etdirir. 2026-cı il fevralın 13-də Gürcüstan Dəmir Yolları rəsmi bəyanat yayaraq ölkənin suverenliyi bərpa olunmadan və Rusiya qoşunları işğal olunmuş Abxaziya və Cənubi Osetiya ərazilərindən çıxarılmadan dəmir yolu əlaqəsinin bərpasının mümkün olmadığını vurğulayıb. Bu mövqe həm hakim partiya, həm də müxalifət tərəfindən dəstəklənir. Ərazi bütövlüyü məsələsində geri addım atmaq ölkədaxili sabitliyi poza biləcəyi üçün heç bir siyasi qüvvə kompromisə getməyə hazır deyil.

Rusiya və Gürcüstan arasında illərdir davam edən "söz debatı" Abxaziya dəmir yolunun açılmasının iqtisadi baxımdan səmərəli olmadığını bir daha ortaya qoyur. "Nezavisimaya qazeta"nın təhlillərinə görə, tərəflər arasında real mövqe uzlaşması yoxdur və xəttin açılması perspektivi indiki mərhələdə yalnız diplomatik blef və alternativ gündəm yaratmaq məqsədini güdür. Praktik baxımdan xəttin region üçün faydası çox məhduddur və Kremlin cəhdləri faktiki olaraq uğursuzluqla nəticələnir. Yəni Rusiya tərəfinin Abxaziya dəmir yollu xəttini alternativ kimi irəli sürməsi "qarğa, məndə qoz var"dan başqa bir şey deyil. Çünki qoz çürükdür.

Regiondakı qarşıdurmanın digər həssas nöqtəsi isə Ermənistanın dəmir yolu şəbəkəsidir. Bu şəbəkə 2008-ci ildən Moskvanın nəzarətindədir. Bu ilin fevralında baş nazir Nikol Paşinyanın Rusiyanın nəzarətinin potensial investorları qorxutması və regional layihələrin effektivliyinə mane olması açıqlamaları İrəvanın Moskvadan asılılığı aradan qaldırmaq niyyətini göstərir. Ermənistan idarəetməni üçüncü ölkələrə verməyi planlaşdırır, bunlar həm Rusiya, həm də Ermənistan üçün etibarlı tərəfdaş statusuna malikdir. Bu addım isə Moskvanın kəskin narazılığı ilə qarşılandı. Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunun bu addımın "bir anda hər şeyi dağıda biləcəyi" barədə sərt xəbərdarlığı Moskvanın regiondakı infrastruktur hegemonluğunu itirmək qorxusundan xəbər verir. Şoyqu demək istəyir ki, regiondakı mövqelərinin aşınmasına sakit yanaşmayacaq. Bu, Moskvanın cəhdlərinin həm iqtisadi, həm də diplomatik baxımdan uğursuz olduğunu bir daha nümayiş etdirir. İndiki şəraitdə Rusiyanın təklifinin reallıqdan çox uzaq olduğunu göstərir.

Beləliklə, Cənubi Qafqazda dəmir yolları ətrafında yaranmış müzakirə bir neçə xətt üzrə inkişaf edir. Birincisi, Gürcüstan istiqamətində Abxaziya marşrutu siyasi baxımdan real görünmür, lakin diplomatik təzyiq və alternativ rıçaq kimi istifadə olunur. İkincisi, Ermənistan istiqamətində konsessiya məsələsi Moskva–İrəvan münasibətlərində etimad böhranının göstəricisidir. Üçüncüsü, ABŞ və Qərb aktorlarının regiona artan marağı Rusiya üçün strateji çağırış yaradır.

Deməli, Abxaziya dəmir yolunun bərpası təşəbbüsü iqtisadi baxımdan məhdud və praktiki nəticəsiz, strateji baxımdan isə sadəcə, diplomatik blef xarakteri daşıyır. Rusiya bu xətt vasitəsilə regionda təsirini xatırlatmağa çalışsa da, real bazar, siyasi reallıq və tərəfdaş ölkələrin mövqeyi onun cəhdlərini uğursuz edir. TRIPP marşrutu isə sürətli, rəqəmsal və etibarlı logistik xətt kimi regionun gələcək geosiyasi xəritəsini formalaşdıran əsas faktora çevrilir.

Mövcud dinamika göstərir ki, mübarizə yeni mərhələyə qədəm qoyur. ABŞ-ın fəallaşması, Rusiyanın mövqelərini qoruma cəhdi, Ermənistanın siyasi manevrləri və Gürcüstanın prinsipiallığı – bütün bunlar yaxın illərdə Cənubi Qafqazın nəqliyyat arxitekturasını formalaşdıracaq əsas faktorlar olacaq. Bu mübarizədə qalib daha çox kilometr rels çəkən deyil, etimad və sabitlik yaradan tərəf olacaq.

P.ƏFƏNDİ
XQ

Azərbaycanda heç nə İrana təhlükə yaratmır

Neft kəmərləri isə dünyada dinc məqsədlərə xidmət edir

Martın 5-də Azərbaycan növbəti dəfə İranın terror aktına məruz qaldı. Bu dəfə Naxçıvan Beynəlxalq Hava Limanı, onun terminal binası, muxtar respublika ərazisində yerləşən mülki obyektlər və məktəb hədəfə alındı.

İran ilk dəfə deyil ki, Azərbaycan dövlətinə qarşı terror aktı törədir. 2023-cü ilin yanvar ayında ölkəmizin Tehrandakı səfirliyi də terror hücumuna məruz qalmışdı. Son 3 ildə baş verən bu iki hadisə onu göstərir ki, cənub qonşumuz ölkəmiz üçün potensial risk mənbəyidir. Belə olan halda haqlı olaraq sual ortaya çıxır: İrandan Azərbaycana qarşı növbəti təhlükə nə ola bilər?

Son günlərdə bir sıra beynəlxalq media orqanlarında Bakı–Tbilisi–Ceyhan (BTC) neft kəmərinin İran tərəfindən potensial hədəf ola biləcəyi barədə xəbərlər və analizlər dərc olunub. İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) komandirinin müşaviri çərşənbə axşamı bildirib ki, Tehran "düşmənlərin neft təchizatı xətlərini" hədəf alacaq və regiondan neft ixracının davam etməsinə imkan verməyəcək. İran mediasının yaydığı bu açıqlama ABŞ və İsrailin İrana hücumlarından sonra regionda gərginliyin artması fonunda səsləndirilib.

Yaxın Şərq siyasəti və regional hadisələr barədə xəbərlər və analizlər yayımlayan "Middle East Eye" nəşri bildirib ki, SEPAH komandirinin müşavirinin açıqlaması İranın Bakı–Tbilisi–Ceyhan boru kəmərini hədəf ala biləcəyi ilə bağlı ciddi narahatlıqları artırır: "İranın "düşmən neft xətlərinə" zərbə endirmək təhdidi, əslində, yalnız Bakı–Tbilisi–Ceyhan boru kəmərini nəzərdə tuta bilər...".

BTC boru kəmərinin İran tərəfindən mümkün hədəf kimi qiymətləndirilməsinə dair iddialar İsrailin Azərbaycandan neft alması ilə bağlı məlumatlar və müzakirələrlə əlaqələndirilir. BTC kəmərinə qarşı bu cür təhdidlər ilk dəfə deyil ki, səsləndirilir. Hələ ötən il ABŞ və İsrailin İrana qarşı apardığı hərbi əməliyyatlardan sonra bu fikirlər ortaya çıxmışdı. Rejimə yaxın bəzi ekspert və analitiklərin çıxışlarında müharibə şəraitində BTC kəmərinin hədəf alınmasının Hörmüz boğazının bağlanmasından daha təsirli ola biləcəyi iddia edilirdi.

Bu kimi absurd yanaşmalar iki arqument üzərində qurulub. Birinci arqument, belə bir qərarın siyasi və iqtisadi nəticələrinin yüksək olması ilə bağlıdır. İkinci arqument isə ondan ibarətdir ki, İsrailə qarşı əməliyyatlarda istifadə edilən hərbi vasitələrin müəyyən hissəsinin Azərbaycan nefti ilə təmin edildiyi iddia olunur. Bu kontekstdə BTC kəmərinin hədəfə alınmasının İsrailin hərbi imkanlarına dolayı təsir göstərə biləcəyi fikri irəli sürülür. Bu yanaşmanı müdafiə edən dairələr mümkün addımı "özünümüdafiə" prinsipi ilə əsaslandırmağa çalışırlar.

Qeyd edək ki, SEPAH-ın bu açıqlamasından sonra NATO-nun hava hücumundan müdafiə sistemləri Türkiyə hava məkanına yaxınlaşan İran ballistik raketini keçirərək məhv edib. İrandan buraxılan raket İraq və Suriya ərazilərindən keçərək Şərqi Aralıq dənizi üzərində zərərsizləşdirilib. Daha sonra onun qalıqları Hatay Dörtyol rayonunda açıq əraziyə düşüb.

Rəsmi açıqlamalarda konkret hədəf adı çəkilməsə də, ehtimal olunan obyekt kimi Bakı–Tbilisi–Ceyhan boru kəməri, xüsusilə də onun Ceyhandakı terminalı strateji obyekt kimi diqqət çəkir. Raketin uçuş istiqaməti Türkiyənin cənubundakı Aralıq dənizi sahili ilə uyğunluq təşkil edib. Raketin qalıqlarının Hatay bölgəsində enerji infrastrukturuna yaxın əraziyə düşməsi isə bu strateji marşrutun təhlükə altında ola biləcəyi ilə bağlı ehtimalları artırır.

Əgər belə bir risk real ssenariyə çevrilərsə, məsələ artıq lokal qarşıdurma çərçivəsindən çıxaraq daha geniş geoiqtisadi nəticələr doğura bilər. Çünki BTC kəməri sıradan enerji infrastrukturu deyil. Bu marşrut həm tranzit ölkələr üçün iqtisadi gəlir mənbəyidir, həm də enerji axınlarının şaxələndirilməsi baxımından strateji funksiyaya malikdir. Kəmərin nominal ötürmə gücü gündə təxminən 1,2 milyon barel səviyyəsində qiymətləndirilir ki, bu da onu regional miqyasda ən iri enerji layihələrindən birinə çevirir.

Avropa üçün BTC-nin əhəmiyyəti xüsusilə enerji diversifikasiyası kontekstində önəmlidir. Avropa uzun illərdir enerji mənbələrinin və marşrutlarının şaxələndirilməsi strategiyasını həyata keçirir. Bu baxımdan Xəzər regionundan gələn neft axınları Avropanın təchizat zəncirində alternativ imkan yaradır və bazar dayanıqlığını gücləndirir. BTC kimi layihələr Avropanın enerji təhlükəsizliyi arxitekturasında Rusiyayönlü asılılığın azaldılması istiqamətində mühüm elementdir.

Eyni zamanda, ABŞ da bu marşruta strateji əhəmiyyət verir. ABŞ uzun illərdir Xəzər enerji dəhlizlərinin inkişafını dəstəkləyib və BTC layihəsi Qərb enerji siyasətinin mühüm komponentlərindən biri kimi qəbul olunub. Əgər enerji infrastrukturu hərbi hədəflərlə paralel şəkildə risk altına düşərsə, bu, münaqişənin miqyasının genişlənməsi demək olar. Azərbaycandan Gürcüstana və oradan da Türkiyəyə uzanan BTC boru kəməri regional enerji təhlükəsizliyi üçün çox vacibdir.

Bu açıqlamalar fonunda hər hansı bir hücum qlobal neft bazarlarındakı tarazlığı poza bilər. Azərbaycan xam neftinin əsas ixrac marşrutu BTC boru kəməri vasitəsilə Ceyhan limanına çatdırılır. Bu kəmərdən çıxan neft beynəlxalq bazarda satılır. Qeyd edək ki, Azərbaycan nefti Ceyhanda artıq qlobal ticarət məhsulu kimi alınır. Ceyhan limanından tanker şirkətləri tərəfindən alınan neft müxtəlif ölkələrə göndərilir və onların arasında İsrail də var. Bu da, öz növbəsində, onu deməyə əsas verir ki, rəsmi Bakı birbaşa olaraq İsrailə neft ixracı həyata keçirmir.

M.BAĞIRLI
XQ

Xarici investorların ölkəmizə marağı artır

Azərbaycanın Böyük Britaniyadakı Səfirliyində "Azərbaycanda və Mərkəzi Asiyada İnvestisiya İmkanları" mövzusunda dəyirmi masa keçirilib.

Müzakirənin moderatoru qismində "Oliver Wyman" şirkətinin tərəfdaşı və Azərbaycan üzrə rəhbəri Camal İsmayılov çıxış edib.

Həmyerlimiz Azərbaycanda investisiya imkanlarını qiymətləndirərkən ölkənin strateji mövqeyini və həyata keçirilən iqtisadi islahatlarını vurğulayıb. Azərbaycanın Avropa ilə Asiya arasında tranzit və ticarət dəhlizi olaraq əhəmiyyətli rol oynadığını, ölkədə mövcud olan dayanıqlı iqtisadi inkişafın investisiyalar üçün əlverişli mühit yaratdığını qeyd edib.

Azərbaycanın Britaniyadakı səfirliyinin müşaviri Rəşad Vahabzadə çıxışında "Moody's" və "Fitch" şirkətlərinin Azərbaycanın suveren kredit reytinqini investisiya səviyyəsinə yüksətdiyini vurğulayıb. O, çıxışında həmçinin Ələt Azad İqtisadi Zonasında investorlar üçün yaradılmış güzəştli imkanlar barəsində danışıb.

Daha sonra "Alpac Capital" şirkətinin baş icraçı direktoru və idarəedici tərəfdaşı Pedro Varqas çıxış edib. Son illərdə ölkədə mühüm iqtisadi islahatların həyata keçirildiyini, Azərbaycanın öz imkanlarını və strateji mövqeyini daha yaxşı istifadə etdiyini vurğulayıb.

Pedro Varqas əlavə edib ki, Azərbaycan yalnız 10 milyonluq bazar kimi deyil, həm də region bazarlarına çıxış üçün platforma kimi nəzərdən keçirilməlidir. Onun sözlərinə görə, ölkənin açıq investisiya mühiti və xarici investorlar üçün yaradılan imkanlar Azərbaycana marağı artırır.

AZPROMO-nun icraçı direktorunun müavini Tural Hacılı isə "Azərbaycanda investisiya imkanları" mövzusunda çıxış edərək ölkədə müxtəlif sahələrdə həyata keçirilən layihələr və investorlar üçün yaradılan imkanlar barədə məlumat verib. 2025-ci ildə ilk dəfə olaraq Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun keçirildiyini vurğulayıb.

Tədbirdə, həmçinin beynəlxalq investorlar üçün hüquqi mühit mövzusu müzakirə olunub. "Greymore" şirkətinin tərəfdaşı Evren Çelik Azərbaycanın və Mərkəzi Avrasiyanın hüquqi investisiya mühiti ilə bağlı təqdimat edib.

Daha sonra keçirilən panel müzakirəsində "Oliver Wyman", "Caucasus Ventures", "Ironsharp Capital" şirkətlərinin nümayəndələri çıxış ediblər. Tədbirdə həmçinin AZPROMO-nun hazırladığı "Azerbaijan Investment Guide" və "Oliver Wyman" şirkətinin hazırladığı "Azerbaijan 3.0 Market Makers of Tomorrow" nəşrlərinin təqdimatı keçirilib.

XQ

Xorvatiya ilə də "yaşıl enerji" əməkdaşlığı qurulur

Məlum olduğu kimi, bu il martın 3-də Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası nazirlərinin 12-ci iclası və Yaşıl Enerji Məşvərət Şurası nazirlərinin 4-cü iclası çərçivəsində Azərbaycan Respublikası Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi (BOEMDA) və Xorvatiyanın "Energia Naturalis d.o.o" şirkəti arasında bərpa olunan enerji sahəsində əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.

Bugünlərdə Xorvatiya şirkəti sözügedən sənədin detalları ilə bağlı açıqlama yayıb. Bildirilib ki, anlaşma memorandumu ilkin 12 aylıq müddət üçün əməkdaşlıq çərçivəsini müəyyən edir. Bu müddət ərzində əsas diqqət birgə qiymətləndirmə fəaliyyətlərinə, təcrübə mübadiləsinə və bərpa olunan enerji mənbələrinə gələcək investisiyaları dəstəkləyə biləcək şərtlərin hazırlanmasına yönələcək.

Qeyd olunub ki, memoranduma əsasən, BOEMDA və ENNA Azərbaycanın bərpaolunan enerji sektorunda mövcud imkanların qiymətləndirilməsi və iqtisadi cəhətdən səmərəli investisiyalar üçün zəruri əsas şərtlərin müəyyən edilməsi istiqamətində əməkdaşlıq edəcəklər. Vurğulanıb ki, bu əməkdaşlıq xüsusilə bərpaolunan enerji layihələrinə, o cümlədən günəş elektrik stansiyaları və külək elektrik stansiyalarına yönələcək.

Məlumatda daha sonra bildirilir: "Əməkdaşlıq çərçivəsində BOEMDA, Azərbaycanın müvafiq enerji qurumları və ENNA nümayəndələrindən ibarət Birgə Rəhbər Komitəsinin yaradılması nəzərdə tutulur. Bu komitə memorandum çərçivəsində həyata keçirilən fəaliyyətləri istiqamətləndirəcək, nəzarət edəcək və qərarları qarşılıqlı razılıq əsasında qəbul edəcək.

Anlaşma memorandumu "ENNA Group"un enerji bölməsinin beynəlxalq genişlənməsində mühüm addım olmaqla yanaşı, şirkətin xarici bazarlardakı mövqeyinin gücləndirilməsi baxımından əhəmiyyətli mərhələ hesab olunur. Sənədin imzalanması ilə ENNA Azərbaycanın bərpaolunan enerji layihələrinə potensial investisiyalara gətirib çıxara biləcək əməkdaşlıq çərçivəsini əldə edən ilk Xorvatiya şirkəti və ilk Avropa şirkətlərindən biri olub. Bu investisiyalar əlavə qiymətləndirmələr və müvafiq təsdiqlərdən asılı olacaq".

Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayev bildirib ki, Xorvatiyanın "Energia Naturalis d.o.o" şirkəti ilə imzalanmış anlaşma memorandumu ilə bərpaolunan enerji sahəsində mümkün əməkdaşlıqla bağlı təhlillərin aparılması və mümkün layihə istiqamətlərinin müəyyənləşdirilməsi nəzərdə tutulur: "Bu, Xorvatiyanın kifayət qədər nüfuzlu və geniş portfelə malik olan şirkətidir. O, yalnız bərpaolunan enerji sahəsində fəaliyyət göstərmir. Ona görə də belə hesab edirik ki, bizim istər bərpaolunan enerji mənbələrinin ərazilərinin Azərbaycanda diversifikasiyası, istər işlədiyimiz şirkətlərin coğrafiyasının diversifikasiyası ciddi rəqabət yaratmağa və son nəticədə ölkəmiz üçün ən sərfəli kommersiya şərtlərinə nail olmağa dəstək verəcək".

"ENNA Group"un baş icraçı direktoru Boştjan Napast isə deyib: "Anlaşma memorandumu ENNA Group üçün beynəlxalq bazarlarda irəliyə doğru böyük addımdır və uzunmüddətli, keyfiyyətli tərəfdaşlıqlar vasitəsilə enerji keçidinə töhfə vermək ambisiyamızı təsdiqləyir. Azərbaycanda bərpaolunan enerji layihələrində iştirak imkanları nadir və strateji əhəmiyyətə malikdir. Etibarlı tərəfdaş kimi tanınmağımızdan qürur duyuruq və Energetika Nazirliyi ilə birlikdə dayanıqlı və kommersiya baxımından əsaslandırılmış layihələrin potensialını qiymətləndirməyi səbirsizliklə gözləyirik".

Yeri gəlmişkən, Azərbaycanla Xorvatiya arasında iqtisadi əməkdaşlıq, xüsusilə energetika, ticarət və investisiya sahələrində fəal şəkildə inkişaf edir. 2015-ci ildə imzalanmış hökumətlərarası sazişə əsasən fəaliyyət göstərən birgə iqtisadi komissiya əlaqələrin genişləndirilməsində mühüm rol oynayır. Tərəflər birgə layihələrin icrası və enerji təhlükəsizliyi məsələlərində əməkdaşlığı gücləndirməyi hədəfləyirlər.

İki ölkə arasında iqtisadi əməkdaşlığın əsas istiqamətlərindən birini də energetika sahəsi təşkil edir. Hazırda Xorvatiya Azərbaycan neft və qazının Avropaya nəqlində, xüsusilə Xəzər-Adriatik enerji dəhlizi çərçivəsində potensial tərəfdaşdır. Karbohidrogenlərin ixracına gəldikdə isə, Xorvatiya uzun illərdir ki, ölkəmizdən neft alır. 2025-ci ildə Azərbaycan bu Avropa ölkəsinə 666 milyon 587 min ABŞ dolları dəyərində 1 milyon 255 min tondan çox xam neft ixrac edib. Bu da ölkəmizin ümumi neft ixracının 5,4 faizi deməkdir.

2024-cü il sentyabrın 1-dən isə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən Xorvatiyaya qaz təchizatına başlanılıb. İki ölkə arasında enerji sahəsində əməkdaşlığın genişləndirilməsi istiqamətində mühüm addım sayılan bu hadisə SOCAR-ın Avropa daxili bazarları üçün enerji mənbələrinin şaxələndirilməsi üzrə öhdəliyinə sadiqliyini nümayiş etdirməklə qitənin enerji təhlükəsizliyinin gücləndirilməsinə xidmət göstərir.

Mirbağır YAQUBZADƏ
XQ

bp Azərbaycan Deflimpiya Komitəsinin yerli tərəfdaşı oldu

Dünən bp və Azərbaycan Deflimpiya Komitəsi arasında yerli tərəfdaşlıq haqqında saziş imzalanıb. Sənədə Azərbaycan Respublikası Deflimpiya Komitəsi İdarə Heyətinin sədri Anar Bayramov və bp-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli imza atıblar.

Sazişə əsasən, bp şirkəti 2027-ci il dekabrın 31-dək ADK-nin Azərbaycandakı rəsmi tərəfdaşı kimi fəaliyyət göstərəcək. Yeni saziş bp-nin milli idmanın inkişafına dəstək və Azərbaycanda daha inklüziv cəmiyyətin təşviqi öhdəliyində yeni bir səhifə açır.

İmzalanma mərasimində çıxış edən Deflimpiya Komitəsi İdarə heyətinin sədri Anar Bayramov ölkəmizdə əlilliyi olan şəxslərin hüquqlarının qorunması və bu kateqoriyaya aid olan şəxslərə çoxşaxəli sosial dəstəyin göstərilməsini aparılan siyasətin prioritet istiqamətlərindən biri olduğunu diqqətə çatdırıb. O deyib: "Deflimpiya hərəkatının dəstəyi bu istiqamətdə görülən işlərdəndir. Deflimpiya hərəkatı eşitmə məhdudiyyətli şəxslərin yalnız idmana cəlb edilməsi deyil. Bu, cəmiyyətə inteqrasiyanın, bərabər imkanların və insan ləyaqətinin təşviqidir, eşitmə məhdudiyyətli şəxslərin özünəinamın bərpası və həyat keyfiyyətinin yüksəlməsidir".

bp-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli isə Azərbaycan Deflimpiya Komitəsinin rəsmi tərəfdaşı olmaqdan məmnunluğunu ifadə edərək deyib: "Yeni sazişin əsasında Azərbaycan Milli Olimpiya və Paralimpiya Komitələri ilə onilliklərdir davam edən tərəfdaşlığımız durur. Bu tərəfdaşlıq sayəsində hər iki təşkilata milli idmanın, komandaların və idmançıların inkişafına dəstək vermişik.

Bu yeni tərəfdaşlıq isə daha da geniş sosial missiya daşıyır, çünki idmanı təbliğ etməklə yanaşı, eşitmə məhdudiyyətli şəxslər üçün idmanı inkişaf etdirmək və eşitmə qüsurlu idmançıları dəstəkləmək imkanları yaratmaqla inklüziv cəmiyyəti təşviq edir. Bu gün bu sazişi imzalamaqla, bütün şəxslər və icmalar üçün bərabər imkanların yaradılmasında ölkəni dəstəkləmək öhdəliyimizi bir daha təsdiqləyirik. ADK ilə rəsmi tərəfdaş kimi sıx əməkdaşlıq edərək qarşıdakı illərdə bu təşkilatın öz vacib missiyasını irəli aparmasına dəstək verəcəyik".

XQ

Neftçilərimizin Kot-d'İvuara dəstəyi

Azərbaycan Respublikasının nümayəndə heyəti Kot-d'Ivuar Respublikasının Abican şəhərində səfərdə olub. Xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və nazirlik əməkdaşlarının, eləcə də Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəfin təmsil olunduğu nümayəndə heyəti səfər çərçivəsində Kot-d'İvuarın Xarici İşlər Nazirliyinin və enerji sektoru üzrə yüksək səviyyəli rəsmiləri ilə bir sıra görüşlər keçirib.

Kot-d'İvuarın Mədənlər, Neft və Energetika Nazirliyinin, qurumun karbohidrogenlər üzrə baş direktorluğunun, eləcə də Kot-d'İvuarın milli neft şirkəti olan "PetroCI"nin rəhbər heyəti ilə görüşlərdə ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıq perspektivləri, o cümlədən neft və qaz sektorunda birgə layihələrin həyata keçirilməsi, investisiya imkanları və enerji təhlükəsizliyi məsələləri müzakirə olunub.

Söhbət zamanı ARDNŞ-in bu ölkənin "Baleine" neft-qaz yatağının işlənməsi layihəsində 10 faiz payın alınması ilə bağlı, o cümlədən layihənin inkişaf mərhələləri, hasilat imkanları, logistika və kommersiya məsələləri barədə geniş fikir mübadiləsi aparılıb. Layihənin neftçilərimizin Afrikada fəaliyyət coğrafiyasını genişləndirmək və beynəlxalq enerji bazarlarında mövqeyini gücləndirmək baxımından dəstəyi vurğulanıb.

XQ

Avropa İttifaqı ilə önəmli müzakirə

İqtisadiyyat nazirinin müavini Səməd Bəşirli Avropa Komissiyasının Genişlənmə və Şərq Qonşuluğu üzrə Baş Direktorluğunun Şərq Qonşuluğu və Türkiyə üzrə direktoru Adrien Kirali ilə görüşüb. Bu barədə XQ-yə İqtisadiyyat Nazirliyindən məlumat verilib.

Bildirilib ki, tərəfdaşlığın prioritet istiqamətlərinə dair fikir mübadiləsinin aparıldığı görüşdə Azərbaycanın əsas xarici ticarət tərəfdaşlarından olan Avropa İttifaqı ilə ölkəmiz arasında enerji, investisiyalar və digər istiqamətlər üzrə birgə fəaliyyətin regional inkişafa xidmət etdiyi vurğulanıb. Qeyd olunub ki, əməkdaşlığın daha da gücləndirilməsi üçün böyük potensial var.

Söhbət zamanı tərəflər Avropa İttifaqının Azərbaycan üçün 2024-cü il üzrə maliyyələşdirmə sazişi, birgə layihələrin icrası, eləcə də digər məsələlərə dair müzakirələr aparıblar.

XQ

Buzlaqlar ərisə də, su qıtlığı kəskinləşir

Ölkəmizi bu "ekoloji qayçı"dan necə xilas etmək olar?

Son illər ölkədə çayların səviyyəsinin aşağı düşməsi, su anbarlarında ehtiyatların azalması və bəzi regionların su təminatında yaranan çətinliklər su təhlükəsizliyi məsələsini yenidən gündəmə gətirib. İqlim dəyişikləri fonunda su ehtiyatlarının azalması ekoloji məsələ olmaqla bərabər, həm də iqtisadi və sosial təhlükəsizliklə birbaşa bağlı strateji problem kimi qiymətləndirilir. Bu səbəbdən "Azərbaycanda real su qıtlığı təhlükəsi varmı?" sualı həm mütəxəssislər, həm də cəmiyyət tərəfindən getdikcə daha çox səsləndirilir.

Mövcud faktlar da göstərir ki, ölkədə su ehtiyatlarının qorunması və səmərəli idarə olunması uzunmüddətli inkişaf strategiyasının mühüm prinsipinə çevrilir. Xüsusilə kənd təsərrüfatı, sənaye və urbanizasiya proseslərinin sürətlənməsi fonunda suya olan tələbatın artması mövcud resursların idarə edilməsini daha da aktuallaşdırır.

Ekoloq Rövşən Abbasovun sözlərinə görə, regionda müşahidə olunan su qıtlığı problemi respublikamıza da təsirsiz ötüşmür. Çünki ölkənin su ehtiyatlarının, təxminən, 70 faizi qonşu dövlətlərin ərazilərində formalaşan çay sularından asılıdır. Bu baxımdan Azərbaycan su ehtiyatlarının əhəmiyyətli hissəsini transsərhəd mənbələr hesabına əldə edən ölkələr sırasına daxildir.

Hesablamalara görə, Azərbaycanın ümumi su ehtiyatları, təxminən, 32 milyard kubmetr kimi göstərilsə də, real istifadəyə yararlı su ehtiyatları 12-13 milyard kubmetr civarındadır. Bu ehtiyatların əsas hissəsi ölkənin ən böyük su arteriyaları olan Kür və Araz çaylarının hövzəsində cəmləşib. Kiçik çaylar və yerli hidroqrafik şəbəkə mövcud olsa da, onların ümumi su balansına təsiri məhdud hesab olunur. Bununla yanaşı, respublikada adambaşına düşən illik su ehtiyatı 1000-1200 kubmetr civarındadır ki, bu da beynəlxalq meyarlara görə aşağı göstərici sayılır. Müqayisə üçün qeyd etmək olar ki, bir çox ölkələrdə bu göstərici bir neçə dəfə yüksəkdir.

Suyun dəyərini bilirikmi?

Su itkilərinin yüksək səviyyədə olması təkcə kənd təsərrüfatı ilə məhdudlaşmır. Şəhərlərdə və yaşayış məntəqələrində mövcud su infrastrukturunun köhnəlməsi də bu sahədə ciddi problemlər yaradır. Mütəxəssislərin fikrincə, bəzi ərazilərdə su xətlərinin yaşı 100 ildən artıqdır. Köhnə boru şəbəkələri sızmalara səbəb olur və nəticədə böyük həcmdə su itkiləri baş verir. Bu səbəbdən infrastrukturun modernləşdirilməsi su təhlükəsizliyinin təmin olunmasında əsas prioritetlərdən biri hesab edilir. Hazırda ölkədə su təchizatı sistemlərinin yenilənməsi ilə bağlı mühüm dövlət proqramları həyata keçirilsə də, bu proses uzunmüddətli və böyük maliyyə tələb edən layihədir.

Mütəxəssislər hesab edirlər ki, su qıtlığının qarşısını almağın əsas yollarından biri suya qənaət edən texnologiyaların tətbiqidir. Xüsusilə damcı suvarma və yağmurlama sistemləri kimi müasir metodlar su sərfiyyatını əhəmiyyətli dərəcədə azaldır. Bununla yanaşı, kənd təsərrüfatında az su tələb edən bitki növlərinin yetişdirilməsi də vacib adaptasiya tədbirlərindən biridir. Əkin strukturlarının iqlim şəraitinə uyğunlaşdırılması və torpaq-suya uyğun məhsul seçimi su ehtiyatlarının qorunmasına kömək edir. Torpaq məcralı kanalların beton kanallarla əvəz olunması, su paylanma sistemlərinin avtomatlaşdırılması və rəqəmsal monitorinq mexanizmlərinin gerçəkləşdirilməsi də su itkilərinin azalmasına ciddi təsir göstərir.

Su ehtiyatlarının idarə olunmasında iqtisadi mexanizmlərin rolu da diqqətdə saxlanılmalıdır. Belə ki, su qiymətlərinin müəyyən limitlərdən sonra mərhələli şəkildə artırılması və ya regional tarif siyasətinin tətbiqi suya qənaəti stimullaşdırır. Bundan başqa, su ehtiyatlarının daha məhdud olduğu Abşeron yarımadası kimi bölgələrdə tariflərin digər regionlarla müqayisədə fərqli variantlardan biri kimi qiymətləndirilməsi də zəruridir. Mövsümi qiymət tənzimlənməsi də suyun daha səmərəli istifadəsinə stimul yaradır.

Mütəxəssislərin fikrincə, su ehtiyatlarının idarə olunmasında əsas amillərdən biri də maarifləndirmə və ictimai iştirak məsələsi ilə bağlıdır. Başqa sözlə, su ehtiyatlarının qorunması təkcə texniki və iqtisadi tədbirlərlə məhdudlaşmamalı, bu sahədə ictimai maarifləndirmə və vətəndaş cəmiyyətinin iştirakı da diqqət mərkəzində saxlanılmalıdır. Eyni zamanda, su idarəçiliyi sahəsində qeyri-hökumət təşkilatları, bələdiyyələr və yerli icmalarla əməkdaşlıq genişləndirilməlidir.

Əhali arasında su istehlakı ilə bağlı davranışların öyrənilməsi və sosial sorğuların keçirilməsinə gələcək siyasətin formalaşdırılması baxımından xüsusi diqqət yetirilməlidir. Bütün bunlarla bərabər, su idarəçiliyi ilə məşğul olan dövlət qurumlarında vətəndaş cəmiyyəti ilə əlaqələr üzrə xüsusi bölmələrin yaradılması, bu sahədə institusional əməkdaşlığın gücləndirilməsi də prioritet istiqamətə çevrilməlidir.

Beləliklə, bütün bu amillər göstərir ki, Azərbaycanda su qıtlığı təhlükəsi realdır, lakin düzgün siyasət və səmərəli idarəetmə ilə bu riskin təsirlərini minimuma endirmək mümkündür. Su itkilərinin azaldılması, müasir suvarma texnologiyalarının tətbiq edilməsi, infrastrukturun yenilənməsi və ictimai maarifləndirmə tədbirlərinin diqqətdə saxlanılması bu istiqamətdə əsas prioritetlər kimi çıxış edir. Bu baxımdan su ehtiyatlarının qorunması getdikcə ekoloji məsələ olmaqla bərabər, eyni zamanda, milli təhlükəsizlik və davamlı inkişaf strategiyasının ayrılmaz hissəsinə çevrilir. Hazırda dövlət, biznes və cəmiyyət arasında koordinasiyalı fəaliyyətin mövcud olması isə Azərbaycanın gələcək su təhlükəsizliyinin gerçəkləşməsində həlledici rol oynayır.

Havayı axmasın bircə damla su...

Su resurslarının qorunması və idarə olunması ilə bağlı yeni yanaşmaların tətbiqi getdikcə zərurətə çevrilir. Bu baxımdan dünyanın müxtəlif ölkələrinin təcrübəsi diqqətəlayiqdir. Məsələn, su qıtlığı ilə mübarizədə ən uğurlu təşəbbüslərdən biri İsraildə gerçəkləşdirilir. Coğrafi və iqlim şəraiti baxımından quraq bölgədə yerləşən bu ölkə uzun illər su çatışmazlığı ilə üzləşib. Lakin texnoloji yeniliklər və strateji idarəetmə nəticəsində bu problem əhəmiyyətli dərəcədə aradan qaldırılıb. Yeri gəlmişkən, İsraildə tətbiq edilən əsas həll yollarından biri damcı suvarma texnologiyasıdır. Bu üsul suyu birbaşa bitkinin kök zonasına ötürür və ənənəvi suvarma metodları ilə müqayisədə 80 faizə qədər suya qənaət etməyə imkan verir.

İsraildə su resurslarının idarə olunmasında digər mühüm istiqamət dəniz suyunun duzsuzlaşdırılmasıdır. Hazırda ölkədə şəhər əhalisinin istifadə etdiyi suyun 80 faizdən çox hissəsi dəniz suyunun emalı ilə reallaşır. Bundan əlavə, İsrail dünyada tullantı sularının təkrar istifadəsi sahəsində də lider ölkələrdən biridir. Burada tullantı sularının 87 faizi təmizlənərək kənd təsərrüfatında yenidən istifadə olunur. Bu model göstərir ki, su qıtlığı yalnız təbii resursların məhdudluğu ilə bağlı deyil, bu, həm də idarəetmə və texnologiyaların tətbiqi ilə bağlı məsələdir.

Aralıq dənizi regionunda yerləşən İspaniya da tez-tez quraqlıq problemləri ilə üzləşir. Buna baxmayaraq, ölkə su ehtiyatlarının diversifikasiyası və alternativ mənbələrin yaradılması istiqamətində mühüm addımlar atır. Hazırda İspaniya dünyada duzsuzlaşdırılmış su istehsalına görə lider ölkələrdən biridir. Ölkədə 765 duzsuzlaşdırma zavodu fəaliyyət göstərir və gündə, təxminən, 5 milyon kubmetr duzsuzlaşdırılmış su istehsal olunur. Bu suyun bir hissəsi əhalinin içməli su təminatına yönəldilsə də, 20 faizdən çoxu kənd təsərrüfatında istifadə edilir. İspaniya təcrübəsi göstərir ki, su qıtlığı şəraitində alternativ mənbələrin yaradılması, xüsusilə duzsuzlaşdırma və suyun təkrar istifadəsi uzunmüddətli su təhlükəsizliyi üçün mühüm rol oynayır.

Su idarəçiliyində maraqlı təcrübələrdən biri də Qazaxıstanda həyata keçirilir. Bu ölkə də su ehtiyatlarının qeyri-bərabər paylanması və iqlim dəyişiklikləri ilə bağlı problemlərlə üzləşir. Son illərdə Qazaxıstan hökuməti su infrastrukturunun modernləşdirilməsi istiqamətində geniş proqram həyata keçirir. Proqram çərçivəsində 20 yeni su anbarının tikilməsi, 15 mövcud anbarın yenidən qurulması və 14 min kilometr suvarma kanalının bərpası planlaşdırılır. Bu layihələrin əsas məqsədlərindən biri su itkilərini azaltmaqdır. Hesablamalara görə, görülən tədbirlər nəticəsində suyun daşınması zamanı yaranan itkilərin 50 faizdən 25 faizə qədər azaldılması nəzərdə tutulur. Bu yanaşma göstərir ki, su qıtlığı ilə mübarizədə yalnız texnologiyalar deyil, həm də dövlət səviyyəsində sistemli infrastruktur siyasəti böyük rol oynayır.

Beynəlxalq təcrübə göstərir ki, su qıtlığı problemi ilə səmərəli mübarizə üçün kompleks yanaşma tələb olunur. Mütəxəssislər Azərbaycan üçün, ilk növbədə, suvarma sistemlərinin modernləşdirilməsi və damcı suvarma texnologiyalarının geniş tətbiq edilməsi, torpaq kanallarının beton kanallarla əvəzlənməsi, su infrastrukturunun yenilənməsi, eləcə də sızmaların azaldılması, suyun təkrar istifadəsi və alternativ mənbələrin inkişafı, su istehlakına dair iqtisadi stimulların yaradılması kimi məsələlərə prioritet istiqamətlər olaraq yanaşmalıdır. Hazırda respublikada milli su strategiyasının hazırlanması istiqamətində işlərin aparılması bu sahədə sistemli yanaşmanın formalaşması baxımından mühüm addım hesab olunur.

Vaqif BAYRAMOV
XQ

Ekspert rəyi

Ənvər ƏLİYEV,
ekoloq

İqlim dəyişiklikləri regionda su ehtiyatlarının azalmasının əsas səbəblərindən biridir. Temperaturun artması və yağıntıların azalması nəticəsində çayların sululuq səviyyəsi getdikcə aşağı düşür. Bu proses təkcə Azərbaycanda deyil, eyni zamanda, regionun digər ölkələrində də müşahidə olunur.

Azərbaycanın su ehtiyatlarının böyük hissəsinin Türkiyə, Gürcüstan, Ermənistan və İran ərazilərində formalaşdığını nəzərə alsaq, bu ölkələrdə baş verən iqlim dəyişiklikləri də birbaşa olaraq Azərbaycanın su balansına təsir göstərir. Atmosfer yağıntılarının paralel şəkildə azalması transsərhəd çayların sululuq səviyyəsini zəiflədir və nəticədə ölkəyə daxil olan su həcmi azalır. Rəsmi proqnozlara görə, 2040-cı ilə qədər ölkədə çayların sululuğunun orta hesabla 15-25 faiz azalacağı gözlənilir. Daha uzunmüddətli perspektivdə, yəni 2070-ci ilə qədər isə bu azalma 20-25 faiz səviyyəsinə çata bilər. Belə bir proses mövcud su ehtiyatlarının qorunması və səmərəli istifadə olunmasını daha da zəruri edir.

Su qıtlığını dərinləşdirən əsas amillərdən biri də ölkədə suya olan tələbatın sürətlə artmasıdır. Xüsusilə kənd təsərrüfatı sektoru su istehlakının böyük hissəsini təşkil edir. Statistik məlumatlara görə, 2010-cu ildə Azərbaycanda suvarılan əkin sahələri, təxminən, 1 milyon hektar təşkil edirdisə, 2020-ci ildə bu göstərici 1 milyon 700 min hektara qədər yüksəlib. Başqa sözlə, suvarma üçün istifadə olunan əkin sahələri 70 faizdən çox artıb. Bu isə su ehtiyatlarına əlavə təzyiq yaradır. Bununla yanaşı, aqrar sektorda tətbiq olunan suvarma metodlarının əksər hissəsi hələ də köhnə texnologiyalara əsaslanır. Açıq kanallar vasitəsilə suvarmanın aparılması, torpaq məcralı kanallar və qeyri-səmərəli paylanma sistemlərinin mövcud olması nəticəsində istifadə edilən suyun, təxminən, 50 faizə qədəri itkiyə gedir.

Azərbaycan qlobal ekosistemdə fəal iştirak edir

Bakıda "Oracle" Mükəmməllik Mərkəzi yaradılacaq

Azərbaycanın rəqəmsal transformasiya gündəliyində beynəlxalq tərəfdaşlıq xüsusi yer tutur. Son dövrlərdə aparılan danışıqlar və keçirilən görüşlər göstərir ki, ölkə artıq qlobal texnoloji ekosistemdə daha fəal iştirak etməyə və strateji əməkdaşlıq platformalarını genişləndirməyə çalışır. Bu baxımdan Böyük Britaniya ilə qurulan dialoq və beynəlxalq texnologiya şirkətləri ilə aparılan müzakirələr Azərbaycanın rəqəmsal inkişaf strategiyasının yeni mərhələyə daxil olduğunu göstərir.

Bu istiqamətdə diqqətçəkən məsələlərdən biri Azərbaycan ilə Böyük Britaniya arasında süni intellekt və data infrastrukturu sahəsində əməkdaşlıq perspektivlərinin müzakirə olunmasıdır. İlk olaraq, Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Böyük Britaniyanın elm, innovasiya və texnologiyalar nazirinin müavini Baroness Lloyd ilə görüşündə iki ölkə arasında strateji tərəfdaşlığın yeni mərhələsinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıb. Görüş zamanı süni intellekt üzrə data mərkəzlərinə investisiyaların təşviqi, kibertəhlükəsizlik sahəsində əməkdaşlığın genişləndirilməsi və rəqəmsal transformasiya istiqamətində birgə təşəbbüslərin həyata keçirilməsi imkanları müzakirə olunub.



Müzakirələrdə insan kapitalının inkişafı məsələsi də xüsusi diqqət mərkəzində olub. Bu çərçivədə Böyük Britaniya universitetləri ilə birgə təhsil proqramlarının yaradılması, təqaüd imkanlarının genişləndirilməsi və rəqəmsal akademiyaların formalaşdırılması kimi təşəbbüslər ətrafında fikir mübadiləsi aparılıb. Belə təşəbbüslər Azərbaycanın rəqəmsal transformasiya strategiyasında kadr potensialının gücləndirilməsi istiqamətində mühüm addım kimi qiymətləndirilir.

Azərbaycanın beynəlxalq texnologiya şirkətləri ilə əməkdaşlıq gündəliyində digər mühüm istiqamət isə ölkədə yeni texnoloji mərkəzlərin yaradılmasıdır. Bu kontekstdə Rəşad Nəbiyevin Böyük Britaniyaya səfəri çərçivəsində qlobal texnologiya şirkəti "Oracle" ilə əməkdaşlıq imkanları geniş şəkildə müzakirə olunub. Nazir Rəşad Nəbiyev şirkətin vitse-prezidentləri Ken MacLennan və Mark Newell ilə görüşündə Bakıda "Oracle" Mükəmməllik Mərkəzinin yaradılması perspektivlərinin nəzərdən keçirildiyini bildirib. Görüş zamanı Azərbaycan ilə "Oracle" arasında rəqəmsal transformasiya, süni intellekt texnologiyalarının tətbiqi və məlumat infrastrukturu sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

Süni intellekt ekosisteminin inkişafı istiqamətində aparılan dialoq yalnız Avropa şirkətləri ilə məhdudlaşmır. Azərbaycan bu sahədə ABŞ texnologiya şirkətləri ilə də əməkdaşlıq imkanlarını genişləndirməyə çalışır. Nazir Rəşad Nəbiyev Böyük Britaniyaya səfəri çərçivəsində ABŞ-ın aparıcı texnologiya şirkətlərindən biri olan "Scale AI" nümayəndələri ilə də görüş keçirib. Görüş zamanı süni intellekt texnologiyalarının tətbiqi, prioritet istifadə ssenarilərinin həyata keçirilməsi və ölkədə süni intellekt ekosisteminin inkişafı istiqamətində əməkdaşlıq imkanları müzakirə olunub. Bununla yanaşı, Azərbaycan və ABŞ-ın "Dell Technologies" şirkəti arasında da rəqəmsal transformasiya, süni intellekt və məlumat infrastrukturu sahələrində əməkdaşlıq müzakirə edilib.

Müzakirələr çərçivəsində süni intellekt layihələrinin qısa və uzunmüddətli mərhələlər üzrə genişləndirilməsi, yerli istedadların inkişafı və ekosistem tərəfdaşlıqlarının formalaşdırılması kimi məsələlər də diqqət mərkəzində olub. Bu yanaşma Azərbaycanın süni intellekt sahəsində yalnız texnologiya istifadəçisi kimi deyil, eyni zamanda, innovasiya prosesinin iştirakçısı kimi mövqeyini gücləndirməyə yönəlib.

Qeyd edək ki, Azərbaycanda süni intellektin inkişafı artıq dövlət siyasəti səviyyəsində təsdiqlənib. Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncam bu sahədə uzunmüddətli hədəfləri və icra mexanizmlərini müəyyənləşdirir. Sərəncamda süni intellektin inkişafının sürətləndirilməsi, tədqiqatların təşviqi, infrastrukturun əlçatanlığının təmin olunması, idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi və ixtisaslı kadr potensialının gücləndirilməsi əsas məqsədlər kimi göstərilir.

Beləliklə, Böyük Britaniya və ABŞ şirkətləri ilə aparılan danışıqlar göstərir ki, data mərkəzləri, süni intellekt infrastrukturu və innovasiya ekosisteminin formalaşdırılması istiqamətində atılan bu addımlar ölkənin rəqəmsal iqtisadiyyatının inkişafına mühüm töhfə verə bilər.

Nurlan ABDALOV
XQ

Ekspert rəyi

Fərid KAZIMOV,
Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi İctimai Şurasının üzvü

Azərbaycan rəqəmsal texnologiyaları öz inkişaf strategiyasının əsas sütunlarından biri kimi qəbul edir. Bu çərçivədə ölkəmiz artıq yalnız istifadəçi qismində çıxış etməklə kifayətlənmir. Eyni zamanda qlobal vendorlar, yəni beynəlxalq IT şirkətləri ilə əməkdaşlıq imkanlarının genişləndirilməsi, həmin texnologiyaların inkişafında tərəfdaş kimi iştirak edilməsi prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirilir. Beləliklə, formalaşan yeni strategiya Azərbaycanın sadəcə texnologiya istifadəçisi mövqeyindən çıxaraq birgə inkişaf və tərəfdaşlıq modelinə keçməsini nəzərdə tutur.

Azərbaycan özünün unikal coğrafi mövqeyi, imkanları və regiondakı strateji rolu baxımından bu prosesdə müəyyən məsələlər üzrə əlaqələndirici məkan və ya texnoloji qovşaq rolunu oynaya bilər. Qeyd etmək lazımdır ki, Azərbaycanda artıq bir sıra rəqəmsal inkişaf strategiyaları qəbul edilib. Bu strategiyalar dövlət idarəçiliyində elektronlaşmanın genişləndirilməsini, rəqəmsal texnologiyaların müxtəlif sahələrdə tətbiqini və innovativ həllərin təşviqini nəzərdə tutur.

Eyni zamanda, nəzərə almaq lazımdır ki, bəzi texnologiyalar var ki, onların sıfırdan yaradılması və tam şəkildə inkişaf etdirilməsi böyük maliyyə və resurs tələb edir. Məsələn, süni intellekt bu sahələrdən biridir. Məlum olduğu kimi, ABŞ bu istiqamətdə inkişafı sürətləndirmək üçün yüz milyardlarla dollar həcmində maliyyə vəsaiti ayırıb. Bu isə çox böyük rəqəmdir və Azərbaycanın iqtisadi miqyası ilə müqayisədə belə investisiya həcmlərinə çatmaq real görünmür.

Məhz buna görə Azərbaycan bu sahədə aparıcı texnologiya şirkətləri ilə tərəfdaşlıq modelinə üstünlük verir. Belə əməkdaşlıq vasitəsilə ölkəmiz həm texnologiyalardan istifadə edir, həm də onların hazırlanması və inkişafı prosesində iştirak edir.

Məsələn, beynəlxalq proqram təminatı şirkətlərindən biri olan "EPAM" müxtəlif ölkələrdə texnoloji mərkəzlər yaradaraq həmin ölkələrlə tərəfdaşlıq formatında fəaliyyət göstərir. Bu cür şirkətlər yerli proqramçıların da iştirak etdiyi texnoloji mərkəzlər formalaşdırır və beləliklə, həm texnologiya inkişaf edir, həm də ölkənin kadr potensialı güclənir. Yəni Azərbaycan artıq texnologiyaların yalnız istifadəçisi kimi deyil, onların hazırlanması və inkişafında iştirak edən tərəfdaş kimi çıxış etməyə çalışır.

Bu, tamamilə yeni bir strateji yanaşmadır. Müasir dünyada texnologiya istehsalında və innovasiya proseslərində iştirak etmək ölkələrin iqtisadi inkişafı baxımından böyük əhəmiyyət daşıyır. Azərbaycanın Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən həyata keçirilən layihələr və beynəlxalq şirkətlərlə keçirilən görüşlər də məhz bu strategiyanın reallaşdırılmasına xidmət edir.

Bu istiqamətdə fəaliyyətin davam etdiriləcəyi gözlənilir. Azərbaycan gələcəkdə daha çox texnologiya şirkətini tərəfdaş kimi cəlb etməyə və ölkədə rəqəmsal ekosistemi genişləndirməyə çalışır.

Rəqəmsal inkişaf iqtisadiyyatın da əsas hərəkətverici qüvvələrindən birinə çevrilir. Bu sahənin inkişafı həm texnologiya sektorunun genişlənməsinə, həm də ölkənin ixrac potensialının artmasına səbəb olacaq. Hazırda Azərbaycanın rəqəmsal məhsullar üzrə ixracı təxminən 200 milyon dollar səviyyəsində qiymətləndirilir. Lakin aparılan siyasət və yeni əməkdaşlıq modelləri bu göstəricinin yaxın illərdə əhəmiyyətli dərəcədə artacağını deməyə əsas verir.

Azərbaycan artıq rəqəmsal hökumət həlləri və innovativ texnologiya paketlərini müxtəlif ölkələrə təqdim etməyə başlayıb. Məsələn, Afrika ölkələrindən nümayəndə heyətləri ölkəmizə gələrək bu sahədə tətbiq olunan sistemləri öyrənir və əməkdaşlıq imkanlarını araşdırırlar. Azərbaycanın üstünlüyü ondan ibarətdir ki, ölkədə rəqəmsal hökumət və elektron xidmətlər sistemi kompleks və inteqrasiya olunmuş şəkildə formalaşdırılıb.

Gözlənilir ki, yaxın illərdə Azərbaycan texnoloji həllərin ixracını daha da genişləndirəcək və müxtəlif ölkələrdə bu sistemlərin tətbiqi başlayacaq. Bu isə ölkə iqtisadiyyatına əlavə gəlir gətirməklə yanaşı, Azərbaycanın qlobal rəqəmsal ekosistemdə mövqeyini daha da gücləndirəcək.

Türk qardaşlığını yaradanlar və yaşadanlar

Müsahibimiz tanınmış türkoloq, türkiyəli professor Yavuz Akpınardır

1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultayın ideya və elmi irsi bir əsr sonra yenidən gündəmə gətirilərək İsmailiyyə Sarayında beynəlxalq elmi konfransın təşkili mühüm elmi-mədəni hadisə oldu. 100 il əvvəl Birinci Türkoloji Qurultaya ev sahibliyi etmiş Bakıda, eyni məkanda alimlərin yenidən bir araya gəlməsi təsadüfi deyil. Tarixi qurultayda formalaşmış elmi düşüncə, ortaq dil və mədəniyyət axtarışları bu gün artıq türk dövlətlərinin geniş coğrafiyasında real əməkdaşlıq layihələri, birgə tədqiqatlar və akademik şəbəkələr şəklində öz bəhrəsini verir.

Türk dünyasının tanınmış elm adamlarını bir araya gətirən beynəlxalq elmi mühit çərçivəsində müasir türkologiyanın aparıcı simalarından biri – Yavuz Akpınar ilə görüşdük. Uzun illər Egey Universitetində ədəbiyyat fakültəsinin professoru olan alimlə söhbətimizdə Türk dünyasında ədəbi-elmi əlaqələr, Azərbaycan ədəbiyyatının beynəlxalq elmi müstəvidə yeri və ortaq gələcək perspektivləri barədə həmsöhbət olduq.

– Xoş gəlmisiniz. I Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş mötəbər tədbirdə sizi görmək çox xoş oldu. Anım tədbiri ilə bağlı təəssüratlarınızı bilmək istərdik.

– Azərbaycan rəhbərliyinin və müvafiq qurumlarının Türkiyənin elmi və ictimai təsisatları ilə birgə belə bir tədbir təşkil etməsi dövlətlərimiz arasında əməkdaşlığın səmərəli və uğurlu nəticələrinin bariz nümunəsidir. Türk dünyasının tarixində mühüm hadisələrdən biri olan və latın qrafikalı əlifbanın qəbuluna yol açan Türkoloji Qurultayın 100 illiyi münasibətilə anılması isə tarixi irsə ehtiramın nümunəsi kimi xüsusi əhəmiyyət daşıyır.

– Uzun illər Türkiyədə Azərbaycan ədəbiyyatının tanıdılması istiqamətində ardıcıl fəaliyyətiniz türkoloji elmə hansı töhfələri verdi?

– Gördüyüm işlər haqqında fikir söyləməyi doğru saymıram. Qoy deyilən sözlərin, atılan addımların və edilən xidmətlərin dəyərini başqaları müəyyən etsin. Mənim üçün isə tək bir ölçü var: əgər yolum hansısa məqamda xalqlarımız arasında bir körpüyə çevrilə bilibsə, ürəkləri bir az da olsa bir-birinə yaxınlaşdırıbsa, bu, mənim üçün ən böyük xoşbəxtlikdir.

– Sovet dövründə Türkiyədə nəşr olunan "Qardaş ədəbiyyatlar" dərgisi elmi-ədəbi mühit üçün ümdə hadisə idi. Bu dərgi hansı zərurətdən yarandı və qarşıya hansı məqsədlər qoyulmuşdu?

– Dərginin nəşrinə həm Türkiyədə, həm də keçmiş Sovet İttifaqı məkanında aydın şəkildə hiss etdiyim ciddi bir boşluq səbəb oldu. O dövrdə nə Türkiyədə yaşayanlar SSRİ-dəki türk xalqlarını kifayət qədər tanıyırdı, nə də oradakı türklər Türkiyə cəmiyyətini və onun ədəbi-mədəni mühitini dolğun şəkildə bilirdilər. Biz bu nəşr vasitəsilə yalnız Azərbaycan türklərinin deyil, bütövlükdə Sovet məkanında yaşayan türk xalqlarının da müasir fikir və ədəbi həyatını Türkiyə ictimaiyyətinə obyektiv şəkildə təqdim etməyə çalışdıq.

Bu fəaliyyət xüsusilə gənc nəslin dünyagörüşünün formalaşmasına müsbət təsir göstərdi və onların Türk dünyasını daha real, daha doğru şəkildə tanımasına imkan yaratdı. Əslində, əsas məqsədimiz gəncliyi gələcəyə hazırlamaq və Türk dünyası haqqında yanlış təsəvvürlərin qarşısını almaq idi. Çünki həmin dövrdə Türkiyədə yayılan solyönlü təbliğatda "SSRİ-də yaşayan türklər milli kimliklərini itirib, ruslaşıblar" kimi iddialar geniş yayılmışdı. Biz isə konkret faktlar, ədəbi nümunələr və çağdaş müəlliflərin yaradıcılığı ilə bu yanlış təsəvvürlərə elmi və inandırıcı cavab vermiş olduq.

– Mirzə Fətəli Axundzadənin yaradıcılığına həsr etdiyiniz dissertasiya işi və "Azəri ədəbiyyatı araşdırmaları" kitabınız Türkiyədə Azərbaycan ədəbiyyatı tarixinin öyrənilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Bu tədqiqatlar üzərində işləyərkən sizi əsasən hansı elmi problemlər düşündürürdü?

– Əvvəlcə, onu qeyd edim ki, kitabıma "Azəri ədəbiyyatı araşdırmaları" adını verməyim Fuad Köprülünün elmi baxışlarına və mövqeyinə duyduğum hörmətlə bağlıdır. Bu adın İranda irəli sürülən və elmi əsası olmayan "Azərbaycan türkləri azəridir, yəni farsların bir qolu olmuş, monqollar dövründə dilləri türkcəyə çevrilmişdir" kimi iddialarla heç bir əlaqəsi yoxdur.

Azərbaycan ədəbiyyatının ideya və mətbuat həyatı ilə bağlı apardığım araşdırmaların hamısı bu kitabda cəmləşdirilməyib. Kitaba daxil edilməyən, müxtəlif elmi jurnallarda dərc olunmuş xeyli məqalələrim də var. Təəssüf ki, indiyədək həmin yazıları ayrıca bir toplu halında nəşrə hazırlamaq üçün vaxt tapa bilməmişəm.

Tədqiqatlarımın ən səciyyəvi cəhətlərindən biri ondan ibarətdir ki, mövzulara qiymət verərkən Sovet ideologiyasının və onun formalaşdırdığı baxış bucağının təsiri altında qalmamağa çalışmışam. Cənubi Azərbaycan ədəbiyyatının əsas əsərlərini Türkiyə elmi mühitinə tanıtmağım, eləcə də bu yaradıcılıq nümunələri haqqında elmi rəylər və təhlillər təqdim etməyim, düşünürəm ki, Azərbaycan ədəbiyyatının bütöv şəkildə öyrənilməsi baxımından faydalı olmuşdur.

– Cənubi Azərbaycan ədəbiyyatından söz düşmüşkən, apardığınız araşdırmalar bu sahədə mövcud elmi boşluqların doldurulmasına ciddi töhfə verib. Bu gün həmin sahənin vəziyyətini necə qiymətləndirirsiniz?

– Bu gün Türkiyədə yalnız Cənubi Azərbaycan ədəbiyyatı, dili və tarixi deyil, ümumilikdə, İran türkləri mövzusu üzrə ixtisaslaşan gənc tədqiqatçı nəsli formalaşıb. Bu yeni elmi nəslin ortaya qoyduğu çoxsaylı sanballı araşdırmalar İran türklərinin dili, ədəbiyyatı, tarixi və mədəni kimliyinin daha dərindən öyrənilməsində və obyektiv şəkildə tanınmasında mühüm rol oynayıb.

– Tərəfinizdən İsmayıl bəy Qaspıralının külliyatının nəşri Türk dünyasında maarifçilik ideyalarının yenidən gündəmə gətirilməsi baxımından mühüm mərhələ oldu. Sizcə, bu nəşrlər bugünkü Türk dünyasına hansı mesajları verir?

– Bu, olduqca mühüm məsələdir. İsmayıl bəy Qaspıralı XIX əsrin sonu – XX əsrin əvvəllərində bütün türk xalqları tərəfindən yekdilliklə dəyərləndirilən, sevilən, fikirləri qəbul olunan və türkçülük yolunu açan böyük şəxsiyyət idi. Lakin Sovet İttifaqı dağılana qədər onun Rusiyanın kitabxanalarında "əsir qalmış" əsərlərini tapıb yenidən türklüyün xidmətinə vermək mümkün olmamışdı. Mən əlimdən gəldiyi qədər bunu etməyə çalışdım və bu gün də çalışıram.

Çünki bütün türk xalqlarını bir-birinə bağlayan ən doğru yol – "sırat-i müstəqim" məhz onun ideyaları və ideallarıdır. Bu gün Qaspıralının fikirlərini zamanın tələblərinə uyğun şəkildə yenidən dəyərləndirmək Türk dünyasını parlaq gələcəyə aparacaq. Onun "parçalanmayın, bir millət olduğunuzu unutmayın!" çağırışı daim qulaqlarımızda səslənməli və bizə yol göstərməlidir.

– Milli mətbuat tariximizə dair tədqiqatlarınız bir çox unudulmuş qəzet və jurnalların yenidən elmi dövriyyəyə qaytarılmasına imkan yaradıb. Bu sahədə gördüyünüz işlər haqqında nə deyərdiniz?

– İlk növbədə, qeyd etməliyəm ki, "Ziya", "Ziyayi - Qafqaziyyə", "Kəşkül", "Həyat", "Füyuzat", "İrşad", "Dilək", "Açıq söz" və onlarla mətbu orqan sovet ideologiyasının insan düşüncəsini donduran təsirindən kənar şəkildə araşdırılmalıdır. Sevindirici haldır ki, artıq bu istiqamətdə ciddi elmi işlər aparılır. Mən də bu sahədə imkanım daxilində töhfə verməyə çalışmışam və xüsusilə Cəlal Ünsinin Türkiyədəki həyatı və fəaliyyəti ilə bağlı faktları üzə çıxarmışam.

Eyni zamanda, "Əkinçi" və "Şərqi-Rus" qəzetlərini təkcə Azərbaycan mühiti çərçivəsində deyil, bütövlükdə, Rusiya türklərinin mətbuat və fikir mühiti kontekstində araşdıraraq bu nəşrlərə yeni elmi baxış formalaşdırmağa çalışmışam.

Digər tərəfdən, mühacirətdə milli mübarizəni davam etdirən ziyalıların nəşr etdikləri "Yeni Qafqasiya", "Azəri Türk", "Odlu yurd", "Qurtuluş", "Azərbaycan" kimi dövri mətbuat orqanları həm milli istiqlal mübarizəsi tarixinin öyrənilməsi, həm də sovet ideologiyasının yerini hansı ideya və dəyərlərin tutmalı olduğunu anlamaq baxımından son dərəcə mühüm mənbələrdir.

Biz "Yeni Qafqasiya" jurnalını latın qrafikasına köçürərək gənc nəslin bu nəşrdən daha asan istifadəsini təmin etdik. Eyni zamanda, "Azəri Türk" dərgisini də yenidən nəşrə hazırlamışıq və yaxın vaxtlarda onun çapı nəzərdə tutulur.

– Anım konfransında etdiyiniz məruzə Rusiyada yaşayan türklərin mətbuatında ortaq ədəbi dil problemi ilə bağlı idi. Məsələnin aktuallığını nədə görürsünüz?

– Artıq proses başa çatıb: yeni türk milli kimlikləri – qazaxlıq, qırğızlıq, özbəklik və başqaları formalaşıb. Ayrı-ayrı ədəbi dillər və ədəbiyyatlar yaranıb, bütün ortaq türk tarixi sanki miras kimi bölüşdürülüb. Ancaq bu bölgüdən qardaş xalqların heç biri razı qalmayıb. Beləliklə, bir zamanlar mövcud olan "vahid türk milləti" təxminən otuz "millətə" və otuzdan çox ədəbi dilə parçalandı. Bəs bundan kim qazandı? Heç şübhəsiz, ruslar.

Dünyada bu gün də "həyat uğrunda mübarizə" hökm sürür. Zəif olana haqlı olsa belə heç kim rəhm etmir. Biz parçalandıq və zəiflədik. Əgər dünyada var olmaq, azad və ləyaqətli yaşamaq istəyiriksə, yollarımızı yenidən birləşdirməliyik. Qaspıralı da bizə məhz bunu tövsiyə edirdi.

Bu gün türk dövlətləri arasında yaxınlaşma və əməkdaşlıq prosesləri gələcəyə ümidlə baxmağımıza əsas yaradır. Ziyalılar və alimlər bu istiqamətdə fəaliyyətlərini davam etdirməlidirlər. Unutmamalıyıq: millətlərimiz çox ola bilər, amma mahiyyət etibarilə vahid bir millətik.

– Bakı ədəbi və elmi mühiti ilə tanışlığınızın tarixi sovet dövrünə qədər uzanır. Bu uzunmüddətli elmi və mənəvi əlaqələr sizin üçün nə ifadə edir?

– Haqlısınız, bu mühit həyatımın önəmli və böyük bir hissəsi olub. Qazandığım dostlar, mənəvi zəngilik və daha böyük uğurlar bunların sırasında xüsusi yer alır. Onlara baxanda həyatımı boşa sərf etmədiyimi görürəm. Xoşbəxtəm, rahatam. Millətimə bacardığım qədər xidmət etməyə çalışdım...

– Sovet illərində Azərbaycanın tanınmış alim və ədibləri ilə yaxın ünsiyyətiniz və dostluq münasibətləriniz olub. Dövrün ziyalı çevrəsi haqqında nə söyləyə bilərsiniz?

– Bu mövzuda çox şey söyləmək olar, amma təəssüf ki, bu, müsahibə çərçivəsinə sığmaz. Yalnız onu deyim ki, köhnə dostların səmimiyyəti, təvazökarlığı, yardımsevərliyi və ən əsası, millət və vətən sevgisi məni valeh etmişdi. Bu gün də hər dəfə Bakıya gələndə bu xoş auranın cazibəsinə düşürəm.

– Xüsusilə Abbas Zamanovla münasibətləriniz hər zaman diqqət çəkib. Onun şəxsiyyəti və elmi irsi haqqında nə deyərdiniz?

– Bu mövzuda Azərbaycanda kifayət qədər yazılıb və danışılıb. Onun elmi fəaliyyəti ədəbi mühitə yaxşı məlumdur. Abbas bəy Sovet dövründə Azərbaycanın dünyaya açılan pəncərəsi idi. O pəncərədən Türkiyədən, İrandan, İraqdan gələn işıqlar Azərbaycana ümid verir, sovet qaranlığını dağıdırdı.

O, bütün siyasi və ideoloji təzyiqlərə baxmayaraq, bu pəncərəni açıq saxlamaq cəsarətini göstərən böyük millət aşiqi, vətənpərvər idi. Mənim də əlimdən tutdu, Azərbaycan ziyalıları ilə tanış etdi və işimi böyük ölçüdə asanlaşdırdı.

Azərbaycan–Türkiyə əlaqələri istiqamətində nələrsə edə bilmişəmsə, bu, böyük ölçüdə onun yardımları sayəsində olub. Allah rəhmət etsin, ruhu şad olsun.

– Bu gün Azərbaycan müstəqil, suveren və ərazi bütövlüyünü bərpa etmiş ölkədir. Azərbaycanın bu tarixi mərhələyə gəlib çatması Türk dünyası üçün nə deməkdir?

– Hər şeydən əvvəl, bu, milli oyanışa və istiqlala can atmağın canlı nümunəsidir. Çətin və mürəkkəb bir dövrdə xalq milli kimliyi qorumağın, azadlıq arzusunu diri saxlamağın nə qədər önəmli olduğunu göstərdi.

Türkiyə ilə digər türk dövlətləri arasında qardaşlıq münasibətlərinin qurulmasında Azərbaycanın təsiri və yardımları isə son dərəcə mənalı və faydalıdır. Azərbaycan hər zaman ortaq tarixə, dilə və mədəniyyətə söykənən birliyin möhkəmlənməsinə töhfə vermişdir. Xüsusilə çətin məqamlarda göstərilən mənəvi və siyasi dəstək Türk dünyasında həmrəyliyin güclənməsinə xidmət etmişdir.

Bu münasibətlər təkcə siyasi və iqtisadi əməkdaşlıqla məhdudlaşmır, eyni zamanda, mədəni, elmi və mənəvi bağların daha da dərinləşməsinə zəmin yaradır. Bütün bunlar isə Türk dünyasında birliyin və qarşılıqlı etimadın möhkəmlənməsinə mühüm töhfə verir.

– Azərbaycanın elmi və mədəni qurumları ilə əlaqələriniz varmı? Son illərdə bu sahədə həyata keçirilən təşəbbüslər barədə fikirləriniz maraqlıdır.

– Düzü, prosesləri əvvəlki cəldliyimlə izləyə bilmirəm. Lakin "görünən kənd bələdçi istəməz", - deyiblər. Görünən odur ki, çox müsbət inkişaf var. Keçmiş Sovet məkanında fəaliyyət göstərən qurumlar artıq "rus qorxusunu", "sovet psixologiyasını" böyük ölçüdə üzərlərindən atıblar. Türkiyə qurumları da "turançılıq", "faşistlik" kimi ittihamlardan, nəhayət ki, çəkinmirlər.

Bu gün daha sərbəst düşüncə, açıq əməkdaşlıq və daha inamlı addımlar müşahidə olunur. Keçmişin qorxu və kompleksləri tədricən aradan qalxır, yerini özünəinam və milli iradə tutur.

Sanki hamımız birlikdə "Ergenekon"dan çıxmışıq – dar çərçivələrdən, qorxu və təzyiq mühitindən azad olaraq daha geniş üfüqlərə doğru irəliləyirik. Bu isə gələcək üçün ümidverici və ruhlandırıcı mənzərə yaradır.

– Sonda Azərbaycan oxucularına və gənc tədqiqatçılara çatdırmaq istədiyiniz xüsusi bir mesaj varmı?

– Etimad və dəyərinizə görə minnətdaram, amma bilmirəm, bu mövzuda söz deməyə haqqım varmı?!

– Çox sağ olun, maraqlı həmsöhbət oldunuz.

Söhbəti apardı:
Namiq QƏDİMOĞLU
XQ

8 Mart Beynəlxalq Qadınlar Günüdür

Baharın ilk sevimli bayramı

Martın gəlişi baharın, təbiətin canlanmasının müjdəçisidir, həm də bəşəriyyətdə ən zərif, amma güclü iradəyə sahib olan qadınların da bayramıdır. Ümummilli lider Heydər Əliyevin söylədiyi tarixi sözlər qadınlığın uca tərəfidir: "Qadın ucalıq, ülvilik məbədi, qüdrət rəmzidir". Xoşbəxtlikdən baharın gəlişini müjdələyən ilk dünya bayramı da qadınların bəxtinə düşüb.

Hələ müasir dünyanın "haqq və bərabərlik" anlayışları formalaşmamışdan çox əvvəl, Azərbaycan qadını öz torpağında mənəvi ucalığın və qətiyyətin rəmzi olub. O, beşik başında layla çalanda nə qədər qayğıkeşdirsə, xalqın və vətənin taleyi həll olunanda bir o qədər məğrur və sarsılmaz idi. Tariximizdə elə qadınlar olub ki, onların siyasi zəkası, diplomatik məharəti və strateji uzaqgörənliyi dövlətlərin taleyini müəyyən edib. Bu baxımdan, Azərbaycanın və ümumilikdə, Şərqin ilk diplomat qadını Sara Xatunun dövlətçilik tariximizin nadir simalarındandır. Qadınlar tarixin hər dövründə istedad və zəkaları ilə siyasi səhnənin formalaşmasında iştirak ediblər.

Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmlənməsi, mədəni, humanitar və diplomatik kimliyinin tanıdılması bilavasitə birinci xanım Mehriban Əliyevanın təşəbbüsləri ilə bağlıdır. Birinci vitse-prezident Azərbaycan milli mədəniyyətini, musiqimizi, poeziyamızı, ədəbiyyatımızı dünya ictimaiyyətinə tanıtmaq üçün genişmiqyaslı layihələr həyata keçirir. Azərbaycanın qədim musiqi incisi olan muğamın və aşıq sənətinin UNESCO-nun Qeyri-Maddi Mədəni İrs siyahısına daxil edilməsi milli irsimizin beynəlxalq səviyyədə tanıdılmasında mühüm dönüş nöqtəsidir.

Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu humanitar diplomatiya sahəsində misilsiz uğurlar qazanıb. Fondun təşəbbüsü ilə Fransa, İtaliya, Almaniya, Rusiya kimi ölkələrdə tarixi və dini abidələrin bərpası, dünyəvi miras kimi qorunması istiqamətində konkret layihələr həyata keçirilib.

Sülh quruculuğunda, gender bərabərsizliyi ilə mübarizədə, humanitar siyasətdə və iqlim diplomatiyasında qadınların iştirakı getdikcə zərurətə çevrilir. Xüsusilə də BMT-nin "Qadınlar, Sülh və Təhlükəsizlik" gündəliyində qadınların münaqişələrin həlli və postkonflikt cəmiyyətlərin bərpasında oynadığı rol açıq şəkildə vurğulanır. Qadınların potensialını düzgün qiymətləndirmək və qərarvermənin bütün səviyyələrində onların iştirakını təmin etmək bu günün və gələcəyin əsas çağırışıdır.

Bu münasibətlə cəmiyyətin müxtəlif sahələrində fəaliyyət göstərən ziyalı və fəal qadınlarımızın bir neçəsi ilə həmsöhbət olduq.

Mehriban ZEYNALOVA,
"Təmiz dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri:

– Parlamentlərarası Birliyin 8 Mart – Beynəlxalq Qadınlar Günü ərəfəsində açıqladığı hesabatlar göstərir ki, son 20 ildə dünyada qadın parlamentarların sayı iki dəfə artıb. Azərbaycanda da qadınların qərarvermə prosesində iştirakının artdığı müşahidə olunur. Bu tendensiya parlamentdə, bələdiyyələrdə və müxtəlif icra strukturlarında da özünü göstərir. Həyatın bütün sahələrində fəal iştirak edən qabiliyyətli və işgüzar qadınlar öz potensialları ilə irəli çıxmalı və cəmiyyətdə layiq olduqları mövqeyi tutmalıdırlar.

Cəmiyyətdə sağlam münasibətlərin formalaşması üçün qarşılıqlı hörmət vacibdir və hər kəs öz hüquqlarını qorumağı bacarmalıdır. Lakin bəziləri düşünür ki, qadın hüquqlarını bilsə, daha çox tələb irəli sürər və ya bu, müəyyən narahatlıqlar yaradar. Halbuki əksinə, tərəflər öz hüquq və vəzifələrini yaxşı bildikdə, cəmiyyətdə balans yaranır və cinsi ayrı-seçkilik aradan qalxır.

Fikrini ifadə etmək və düşünmək azadlığı müstəqil Azərbaycanda həm qadınlara, həm də kişilərə verilən əsas hüquqlardan biridir. Konstitusiyada, digər qanunvericilik aktlarında kişi və qadın bərabərliyi açıq şəkildə qeyd olunur. Qadınlar öz məsuliyyət və öhdəliklərini yaxşı anlayırlar.

Bu gün qadınlarla bağlı müəyyən mənada hələ də qalmaqda olan stereotiplər onların fəaliyyət imkanlarını məhdudlaşdırır. Halbuki cəmiyyətin inkişafı üçün qadınların potensialının sərbəst şəkildə reallaşmasına daha geniş imkanların yaradılması vacibdir.

"Təmiz dünya" Qadınlara Yardım İctimai Birliyi qadınların hüquqlarının qorunması istiqamətində fəaliyyət göstərir. Mərkəzdə sığınacaqdan ayrılmış qadınların əmək bazarına çıxışı zamanı uşaqların nəzarətsiz qalmaması üçün postsığınacaq da var. Yardım xətti üzrə yüksək müraciət sayı təşkilata olan ictimai etimadın və əlçatanlığın göstəricisidir. Müraciətlərin əhəmiyyətli hissəsinin sığınacaq tələbi ilə bağlı olması ilkin risklərin geniş yayıldığını və erkən müdaxilə mexanizmlərinin zəruriliyini ortaya qoyur. Arzu edirəm ki, Azərbaycan qadını heç vaxt sığınacaqlara müraciət etmək məcburiyyətində qalmasın.

Aynur MƏMMƏDOVA,
qadın para-taekvandoçu, Prezident mükafatçısı:

– Mən sağ əlimdə inkişaf qüsuru ilə dünyaya gəlmişəm, biləkdən aşağı hissə formalaşmayıb. Yaşadığımız ərazi pambıqçılıq zonası idi və kənd təsərrüfatında müxtəlif kimyəvi maddələrdən istifadə olunurdu. Həkimlərin ehtimalına görə, həmin dərmanların təsiri və ya başqa bir amil nəticəsində bu qüsur yaranmış ola bilər. Anama da bir müddət vəziyyətimi deməyiblər. Sonradan atama bu barədə məlumat verildikdə çox ağır qarşılayıb. Kənd yerində bu xəbər tez bir zamanda yayılıb və təəssüf ki, bəziləri hətta mənim yaşamağımın mənasız olduğunu deyəcək qədər amansız fikirlər səsləndiriblər.

Ailəmdə anam mənə ən böyük dayaq olub. O, heç vaxt məni gizlətməyib, əksinə, mənimlə fəxr edib. Bu gün əldə etdiyim bütün nailiyyətlərdə onun dəstəyinin xüsusi rolu var.

Uşaqlıq illərimdə bəzən əlimi gizlətməyə çalışır, insanların baxışlarından çəkinirdim, amma heç vaxt geri qalmaq istəmirdim. Özümə söz vermişdim ki, heç kim məni zəif bilməyəcək, fiziki fərqliliklər insanın bacarıqlarını və iradəsini məhdudlaşdıra bilməz.

Bütün çətinliklərə baxmayaraq, maliyyə ixtisası üzrə təhsil aldım. Daha sonra Bakıya gəldim və bir müddət Əlillərin Bərpa Mərkəzində qaldım. 1996-cı ildə yaradılmış Paralimpiya Komitəsi vasitəsilə idmana yönəldim və əvvəlcə atıcılıq idman növü ilə məşğul olmağa başladım. Bu sahədə də müəyyən çətinliklər var idi. Çünki istifadə olunan avadanlıqlar əsasən sağ əl üçün nəzərdə tutulmuşdu. Mən isə sol əlimlə çalışmalı idim və bu səbəbdən məşqlər çətin keçirdi. Bu sahədə fəaliyyət göstərdiyim dövrdə respublika səviyyəli yarışlarda ikinci və üçüncü yerlərə layiq görülmüşəm. Lakin bir müddət sonra başqa sahədə özümü sınamağa qərar verdim.

2009-cu ildə para-taekvondo idman növünün yaradılması ilə əlaqədar mənə bu sahədə özümü sınamaq təklif olundu. Qeyd edim ki, respublikada para-taekvondo ilə məşğul olan ilk qadın idmançı mən olmuşam. Rusiyanın Sankt-Peterburq şəhərində keçirilən Dünya Çempionatında 3-cü yerə layiq görülmüşdüm. 2011-ci ildə Moskva şəhərində keçirilən Avropa Çempionatında qızıl medal qazanaraq Avropa çempionu oldum. 2014-cü il noyabrın 27-də Türkiyənin Antalya şəhərində keçirilən növbəti Avropa Çempionatında isə yenidən qızıl medal qazanaraq ikinci dəfə Avropa çempionu titulunu əldə etdim. Bu uğurların qazanılmasında əsas rol oynayan amil özümə olan inam və qarşıma qoyduğum məqsədlərə sadiq qalmağım olub.

2015-ci ildə isə Dünya çempionu adını qazandım. Daha sonra Soçidə keçirilən yarışda qızıl medal əldə etdim. 2018-ci ildə Bolqarıstanda keçirilən Avropa Çempionatında isə üçüncü dəfə Avropa çempionu oldum. Bu uğurlar mənə göstərdi ki, çəkilən zəhmət və əziyyət heç vaxt qarşılıqsız qalmır. Dövlət bayrağımızın yüksəldiyini və himnimizin səsləndiyini eşitmək mənim üçün bütün çətinlikləri unutduran ən böyük qürur anı idi.

Sonralar təhsilimi davam etdirərək Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında oxumağa, eyni zamanda, Fövqəladə Hallar Nazirliyində fiziki hazırlıq şöbəsində təlimatçı kimi fəaliyyət göstərməyə başladım.

Həyat hekayəmi ictimaiyyətlə bölüşdükdən sonra sosial şəbəkələr vasitəsilə bir çox insan mənimlə əlaqə saxladı. Xüsusilə əlilliyi olan uşaqların valideynləri mənə yazır, məsləhət və dəstək istəyirdilər. Bu müraciətlər məni daha böyük bir təşəbbüsə sövq etdi. "Əlilliyi Olan Uşaq və Gənclərin İdmana İnteqrasiyası" İctimai Birliyini yaratdım. Məqsədim özünü qüsurlu hesab edən gənclərin cəmiyyətə inteqrasiyasına, onların öz bacarıqlarını kəşf etməsinə kömək etməkdir. Bu gün artıq təşkilatımızın çoxsaylı üzvləri var və biz yalnız idman deyil, müxtəlif sahələr üzrə də uşaqların inkişafına dəstək göstəririk.

Bir müddət əvvəl sosial şəbəkələrdə bir ailə haqqında məlumat gördüm – onların tək qollu övladı dünyaya gəlmişdi. Həmin ailə ilə əlaqə saxladım və onlara mənəvi dəstək göstərməyə çalışdım.

Qadınlar yalnız ailədə deyil, həm də cəmiyyətdə, təhsil və idman sahəsində liderlik göstərə bilirlər. Hətta fiziki məhdudiyyət də onların bacarıqlarını, yaradıcılığını və iradəsini məhdudlaşdıra bilməz. Beləliklə, səbir, əzm və iradə rəmzi olan qadınlar həyatımıza işıq saçırlar.

Xalidə SƏMƏDOVA,
"BakuBus"ın avtobus sürücüsü:

– Hər böyük uğur kiçik xəyalla başlayır. Hələ uşaq ikən iri avtobusları görəndə onlara heyranlıqla baxır, özümü nəhəng sükan arxasında xəyal edirdim.

Düşünürdüm ki, zaman keçdikcə, bu maraq ötüb keçəcək. Amma əksinə, daha da alovlandı. Bir müddət sonra sərnişindaşıma sahəsində fəaliyyət göstərən "BakuBus" tərəfindən elan olunan vakansiya diqqətimi cəlb etdi. Şirkətin ictimai nəqliyyatda tətbiq etdiyi müasir standartlar, təhlükəsizlik qaydalarına ciddi yanaşması və peşəkar sürücülərin hazırlanmasına verdiyi önəm məni bu addımı atmağa daha da həvəsləndirdi. Elanı görən kimi müraciət etdim və seçim mərhələlərindən keçərək nəzəri və praktiki təlimlərə qatıldım. Təlimləri uğurla başa vurduqdan sonra, nəhayət, bu peşəyə yiyələndim. Sevinirəm ki, seçdiyim yolda ən böyük dəstək ailəmdən gəldi. Onlar mənəvi dəstəklərini heç vaxt əsirgəmədilər.

Sözsüz ki, yolda bir qadını avtobus sükanı arxasında görmək ilk vaxtlar sərnişinlər üçün təəccüb doğurur. Kişilər, qadınlar və xüsusilə uşaqlar bu mənzərəni maraqla izləyirdilər. Amma ən vacibi sükan arxasında kimin olduğu deyil, həmin insanın işini necə görməsidir. Artıq sərnişinlərin baxışları dəyişib. Hətta bəzən sərnişinlərdən xoş sözlər eşidirəm, "uğurlar", "halal olsun" kimi ifadələr məni daha da ruhlandırır. Cəmiyyət yavaş-yavaş stereotiplərdən uzaqlaşır.

Düşünürəm ki, məsuliyyət, zəhmət və peşəkarlıq əsasdır. Bu səbəbdən cəmiyyətdə qadınların müxtəlif sahələrdə fəal olması çox vacibdir. Bu, həm stereotiplərin qırılmasına kömək edir, həm də gənc qızlara öz arzularının arxasınca getmək üçün cəsarət verir. Çünki istədiyi peşəni seçmək və o sahədə uğur qazanmaq hər kəsin haqqıdır. Əsas olan insanın özünəinamı, zəhmətdən qorxmaması və qarşısına qoyduğu məqsədə doğru addımlamasıdır.

Əminə İMANOVA,
nevropatoloq:

– 8 Mart – Beynəlxalq Qadınlar Günü ərəfəsində cəmiyyətdə bir canlanma, baharın ilk nəfəsi ilə gələn bayram əhvali-ruhiyyəsi duyulur. Mənim üçün bu tarix sadəcə qırmızı rənglə işarələnmiş istirahət günü və ya təbriklərdən ibarət adi təqvim deyil. Bu gün həyatın bütün ağır yükünü öz zərif çiyinlərində daşıyan, hər bir çətinliyə rəğmən gülümsəməyi bacaran qadınlarımızın daxili gücünə, dözümünə və sarsılmaz iradəsinə verilən ali dəyərin rəmzidir. Bu özəl gündə həyatın hər anına məna qatan, sevgisi ilə dünyanı gözəlləşdirən qadınların cəmiyyətdəki mühüm yerini bir daha dərk edirik.

Həyatını tibb sahəsinə və insan sağlamlığının qorunmasına həsr etmiş mütəxəssis, eyni zamanda, bir ana kimi qeyd etməliyəm ki, bu bayram xanımlara olan sonsuz hörmətin ən gözəl ifadəsidir. Bizim peşə fəaliyyətimiz sadəcə ağ xalat geyinib kabinetlərdə xəstə qəbul etməklə bitmir. Tibb sahəsini seçən qadın yolun ən başında anlayır ki, bu peşə ondan yüksək intizam, emosional dözümlülük və şəxsi həyatı ilə peşəkar məsuliyyətlərini balanslaşdırmaq bacarığı tələb edir. Haradasa köməyə ehtiyacı olan, ağrı çəkən bir insan varsa, həkim üçün yorğunluq, yuxusuzluq və ya şəxsi planlar artıq ikinci plana keçir.

İllərdir davam edən gərgin iş rejimi mənə bu həqiqəti öyrətdi: qadının gücü onun dözümlülüyündə və eyni anda üzərinə düşən bir neçə vəzifənin məharətlə öhdəsindən gələ bilməsindədir. Tibb sahəsində çalışmaq daha çox fədakarlıq istəyir. Səhər evdən çıxanda ailənin qayğılarını və övladın ehtiyaclarını qaydasına qoyub, xəstəxanaya addım atdığın an bütün problemləri unudub diqqətini qarşındakı insana yönəltmək böyük daxili enerji tələb edir. İnsanlar bizə ən çətin anlarında, bəzən ümidsizliyin son həddində pənah gətirirlər. Onları, sadəcə, tibbi biliklərlə deyil, həm də qadın qəlbinin şəfqəti ilə dinləmək, anlamaq və mənəvi dəstək vermək əsas vəzifəmizdir.

Mən peşəmi heç vaxt qazanc yeri kimi görməmişəm. Hər bir xəstənin sağalmasını, onun gözlərində yenidən parlayan ümid işığını görmək mənim üçün ən böyük mükafatdır. Əlbəttə, bu uğurun arxasında müəyyən çətinliklər də var: gecə yarı gələn təcili zənglər, bayram günlərindəki növbətçiliklər və doğmalarından uzaqda keçən saatlar... Amma bir insanın sağlamlığını geri qaytarmaq hissi bütün yorğunluqları unutdurmağa yetir.

Uzun illərin təcrübəsi mənə göstərdi ki, insanın sinir sistemi sadəcə bioloji hüceyrələrdən və elektrik siqnallarından ibarət deyil. O, həm də insanın yaşadıqlarının, kədərinin, sevincinin və dözümünün güzgüsüdür. Yanıma gələn minlərlə xəstənin simasında təkcə tibbi diaqnozları deyil, həm də onların arxasında dayanan həyat hekayələrini görürəm. Xüsusilə qadın xəstələrimin fədakarlığı, ailəsi naminə öz sağlamlığını necə arxa plana atması məni hər zaman dərindən düşündürür.

Qadın ailənin təməlidir, bu təməl möhkəm olmalıdır ki, ailə bütövlüyünü qoruya bilsin. Biz qadınlar çox vaxt özümüzü unuduruq. "Uşaqlar yaxşı olsun", "həyat yoldaşım narahat olmasın", "ev-eşik qaydasında olsun" deyərək keçirdiyimiz yuxusuz gecələr, daxilimizə atdığımız streslər illər sonra bizə şiddətli baş ağrıları, daxili gərginlik və tükənmişlik olaraq qayıdır. Bir həkim kimi tövsiyə edirəm ki, özünüzə vaxt ayırmaq və sağlamlığınızın qayğısına qalmaq mütləqdir. Çünki sizin sağlamlığınız və daxili rahatlığınız ailənizin xoşbəxtliyinin ən böyük təminatıdır.

Əgər bir ana, bir qadın gərgindirsə, bu, istər-istəməz ailənin digər üzvlərinə də təsir edir. Ən böyük dərman sevgidir – insanın, ilk növbədə, özünə olan hörməti və ətrafındakıların ona verdiyi dəyərdir. İnanın ki, heç bir dərman daxili hüzur qədər təsirli ola bilməz.

Müasir dünyada qadınların həm iş həyatında, həm də sosial mühitdə aktiv olması qürurvericidir. Lakin bu sürətli tempin içində özünüzə vaxt ayırmağı unutmayın. Mən inanıram ki, qadın əli dəyən hər işdə bir incəlik və ana qayğısı var. Uğurlu qadın obrazı təkcə karyera pillələrində yüksəlməklə deyil, həm də ətrafına yaya bildiyi xoş enerji, ailəsinə aşıladığı dəyərlər və insanlığa verdiyi xidmətlərlə ölçülür. Mən özümü xoşbəxt qadın hesab edirəm, çünki sevdiyim işi görürəm və tez-tez pasientlərimin "çox sağ olun, doktor" sözünü eşitməyin qürurunu yaşayıram.

Bütün qadınlarımızı, anaları, bacıları və qızlarımızı 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edirəm. Onlara möhkəm cansağlığı və işlərində uğurlar arzulayıram. Kiçik şeylərdən xoşbəxt olmağı bacarın və ən əsası, gülümsəməyi unutmayın. Çünki səmimi bir təbəssüm ən güclü antidepressantdan daha təsirlidir. Bayramınız mübarək olsun!

Nəzakət TALIBOVA,
Bakıdakı 246 nömrəli məktəb-liseyin ibtidai sinif müəllimi, Əməkdar müəllim:

– Azərbaycan qadınları tarixin bütün dövrlərində yüksək mənəvi-əxlaqi keyfiyyətləri ilə seçiliblər. Yurdun, el-obanın çətin günlərində mübarizə meydanında kişilərlə çiyin-çiyinə dayanaraq, şücaət göstərərək hər zaman böyük hörmət, ehtiram qazanıblar. Bu gün də ölkəmizin dinamik inkişaf prosesində qadınlar fəal iştirak edir, Azərbaycanımızın tərəqqisi naminə mühüm xidmətlər göstərirlər.

Qadınların təhsil alması cəmiyyətimizin inkişafı üçün xüsusi əhəmiyyət daşıyır. Təhsilli qadın ailənin dayağı, uşaqların ilk müəllimi və cəmiyyətin sütunudur. Qadın oxuduqca, öyrəndikcə, inkişaf etdikcə, cəmiyyət daha işıqlı gələcəyə doğru irəliləyir.

Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xalqımızın qazandığı möhtəşəm tarixi Zəfərdə imzası olan qəhrəmanları yetişdirən analarımızla daim qürur duyuruq. Azərbaycan qadını mənsub olduğu ölkənin və xalqın tərəqqisi üçün çalışan, həyatını bu ali amala həsr etməyin ən gözəl nümunəsidir. Biz Birinci vitse-prezidentimiz, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətində bunun parlaq nümunəsini bir daha görür və böyük iftixar hissi keçiririk. Mən də uzun illərdir gənc nəslin təlim-tərbiyəsi istiqamətində çalışıram. Dövlətimizə dərin minnətdarlığımı bildirirəm ki, bu sahədə əməyimi yüksək qiymətləndirərək mənə "Əməkdar müəllim" fəxri adına layiq görüb.

Hesab edirəm ki, müəllim üçün həyatda ən böyük xoşbəxtlik vaxtilə kövrək addımlarla məktəbə daxil olan şagirdlərini bu gün hansı peşədə çalışmasından asılı olmayaraq, cəmiyyət üçün faydalı, insanlara gərəkli, ləyaqətli vətəndaş kimi görməkdir. Şagirdlərimin həyatda qazandıqları nailiyyətlərdən qürur duyuram. Çünki vaxtilə dərs dediyin şagirdin həyatda qazandığı hər bir uğurdan, hər bir qələbədən müəllimə də pay düşür. Bu, müəllim həyatının mənasıdır.

Bütün Azərbaycan qadınlarını, Vətənimiz üçün dəyərli və qəhrəman övladlar yetişdirmiş müdrik analarımızı, eyni zamanda, gənc nəslin təlim-tərbiyəsi sahəsində çalışan müəllimlərimizi 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edirəm.

Hazırladılar:
Ləman TƏHMƏZ,
Fidan ƏLİYEVA,
Elenora HƏSƏNOVA,
Mehparə ƏLİYEVA
XQ

İgidlər anası çağırılır adın...

Balakən

Dünən Balakən Rayon Mədəniyyət Mərkəzində 8 Mart – Beynəlxalq Qadınlar Gününə həsr olunmuş bayram şənliyi keçirilib.

Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev çıxış edərək ölkəmizdə dövlət qadın siyasətinin əsasını qoyan ümummilli lider Heydər Əliyevin qadın şəxsiyyətinə böyük hörmətlə yanaşmasından, onun siyasətinin Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilməsi sayəsində Azərbaycan qadınının cəmiyyətdə yerinin və nüfuzunun daha da artmasından bəhs edib. Rayon rəhbəri qadınları 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edib, hər birinə cansağlığı, ailə səadəti və işlərində müvəffəqiyyətlər arzulayıb.

Daha sonra rayonun ictimai-siyasi həyatında fərqlənən qadınlar Balakən Rayon İcra Hakimiyyətinin Fəxri Fərmanları ilə təltif olunub.

Mərasimdə şəhid anası Gülşən Kərimova və şəhid atası Şəmsəddin Tuhumov çıxış edərək qadınların cəmiyyət həyatında, milli-mənəvi dəyərlərin qorunmasında və sağlam ailə institutunun formalaşmasında mühüm rol oynadıqlarını qeyd ediblər. Şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Tədbir Balakən Rayon Mədəniyyət Mərkəzinin hazırladığı konsert proqramı ilə davam etdirilib.

Göy

Göygöl rayonunda 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə rayon rəhbərliyinin şəhid anaları və xanımları ilə görüşündə Vətən yolunda qurban vermiş ailələrə xalqımızın dərin hörmət və ehtiramı ifadə olunub.

Rayon icra hakimiyyətinin başçısı Vüqar Novruzov

şəhid analarını və xanımlarını bayram münasibətilə təbrik edib, ictimaiyyətin onlara diqqət və sayğısından söz açıb. O bildirib ki, şəhid ailələrinin göstərdiyi səbir, güc və vətənə bağlılıq hər zaman cəmiyyət üçün nümunədir. Qeyd olunub ki, şəhid ailələri daim dövlətin diqqət və qayğısı ilə əhatə olunur.

Görüş zamanı şəhid ailələri onlara göstərilən diqqət və dəstəyə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər. Belə görüşlərin mənəvi baxımdan böyük əhəmiyyət daşıdığını xüsusi vurğulayıblar.

Masallı

8 Mart – Beynəlxalq Qadınlar Günü ərəfəsində Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov birinci Qarabağ müharibəsinin şəhidi Vilayət Əliyevin Babakücə kəndində yaşayan 87 yaşlı anası Sərvər Ağayeva ilə görüşüb.

Rayon rəhbəri şəhid anasının səhhəti, qayğıları ilə maraqlanıb, onu qarşıdan gələn bayram münasibətilə səmimi təbrik edib. Ağbirçək ana 30 il ərzində ilk dəfə rayon rəhbərinin ailələrinə baş çəkdiyini vurğulayıb, razılıq və məmnunluğunu bildirib.

İcra başçısı Dəmirçi kəndində şəhid Mətləb Bağırovun anası Zəringül Həşimova, Qarğalıq kəndində şəhid Ədalət Vəliyevin anası Almaz Vəliyeva, Mahmudavar kəndində şəhid Mübariz Şahbazovun anası Təmilə Şahbazova ilə də görüşüb, igid övladlar böyütmüş anaları bayram münasibətilə təbrik edib.

"Azərbaycan qadını–güc və ləyaqət nümunəsi" adlı ümumrayon şənliyində şəhid anaları, rayonun işgüzar, fəal qadınları iştirak ediblər. Şəhid anaları övladlarının xatirəsinin daim uca tutulduğuna, göstərilən yüksək diqqət və qayğıya görə dövlətimizin rəhbərliyinə dərin minnətdarlıqlarını ifadə ediblər.

İlqar HƏSƏNOV,
Hamlet QASIMOV,
Əlisəfa HƏSƏNOV
XQ

Vətənin məğrur şəhid anaları

Qadın həmişə müqəddəs sayılıb və adları çoxəsrlik tariximizin səhifələrinə qızıl hərflərlə həkk edilib. 44 günlük İkinci Qarabağ müharibəsində yüzlərlə şəhid versək də, müqəddəs torpaqlarımıza qovuşmaq Azərbaycan anasının da arzusu olub. Azərbaycan qadınının o mətinliyini, təmkinini, ağbirçəkliyini şəhidlərini qarşılayanda, son mənzilə yola salanda da gördük. Oğul itirmiş analarla görüşəndə, bir şəhidin dəfnində işirak edəndə onların qüruruna, dözümlüyünə sonsuz dərəcədə həsəd aparmışıq. Hamısı bir ağızdan: Vətən sağ olsun, deyib!

Hamımızın anladığı bir məqam var: şəhid valideyni, xüsusilə şəhid anası olmaq çox çətindir. Olduqca çətin! Vətən müharibəsini, xüsusilə Şuşa azad olunandan sonra bu şəhərin necə alınması haqqında məlumatları maraqla izləyirdik. Alınmaz qala saydığımız Şuşaya dişi-dırnağı ilə cığır açan oğulları, məhz bu analar gətirib dünyaya! Bəli, bu Ana Vətəni, torpağını sevənlərin qəhrəmanlığı idi. Onların qarşısında diz çökməyə, qırışlı alınlarından, qabarlı əllərindən öpməyə dəyər!..

Şəhid anaları "Oğlum Vətən, torpaq uğrunda şəhid oldu" deyə danışarkən səslərində həm nisgil, həm də böyük bir fəxarət hiss olunur. Bu analar üçün şəhidlik yalnız itki deyil, həm də müqəddəs bir amalın yerinə yetirilməsidir.

Bir vaxtlar oğlunu qucaqlayan əllər, indi şəkillərini oxşayır. Divardan boylanan gənc sima ilə güzgüdəki ağsaçlı ana arasında illər yox, bir ayrılıq dayanır. O ayrılıq ki, nə sözlə ifadə olunur, nə də zamanla azalır. Beşik başında layla deyən dillər, illər sonra övladının tabutuna ağı dedi. O tabut ki, üzərində dalğalanan üçrəngli bayraq bir millətin namusunu, ananın isə həm dərdini, həm də qürurunu qucaqladı. Ana ürəyi yanar, amma sınmaz. Şəhid analarının baxışlarında qəribə bir işıq var. O işıq nə tam sevincdir, nə də kədər. O işıq Vətən sevgisinin alovudur.

Müharibə yenicə bitmişdi. Həmin dövrdə yaddaşıma dərin həkk olunmuş şəhid anaları ilə bağlı bir neçə məqamı xatırlamaq yerinə düşər. Müharibənin ilk

günlərində şəhid oğlunun tabutunu gətirən əsgərlərə ananın ilk sualı: "Şuşanı nə vaxt alırsınız?..". Bu sual qarşısında nə deyib, nə cavab verəsən? Əhsən, min əhsən belə analara! Dünyaya elə qəhrəman, igid gətirmiş oğulların da anaları qəhrəman olurmuşlar.

Vətən müharibəsində yeganə oğlunu itirən, "Şəhadətin mübarək olsun, oğul!" deyən şəhid anasının mətanəti qarşısında da susduq. Deməyə söz tapmadıq. Oğlu Cavidin tabutunu qarşılayan ana, Yardımlı rayonunun Əsədabad kənd sakini Səkinə Sahratova bildirirdi ki, mən oğlanlarımı Vətən üçün böyütmüşəm, hamısı əsgərliyini çəkib, Vətənə xidmət edib: "Cavid kimi oğlanlarımızla fəxr edirəm. Onlar hamısı mənim balamdır. Cavidin tabutu gələndə dedim ki, mənim çiynimə qoyun, son mənzilə də çiynimdə aparım".

Xocavənddə mina terror aktı nəticəsində şəhid olan polis Seymur Mahmudovun hər gün məzarını ziyarət edən anası Gülnarə Mahmudova bildirirdi ki, "qış ayları idi, hava da çiskinli. Oğlumu ziyarətə getmişdik. Məzarı önündə dedim, oğlum, axı mən sənin üçün çox darıxıram, sən mənim üçün darıxmırsan? Bu an başdaşındakı şəklinin sağ gözündən bir damcı gözyaşı düşdü. Donub qaldım. Başa düşdüm ki, oğlum da bizim üçün darıxır...".

Digər bir təsiredici məqam isə Şəkinin Kiş kəndində şəhid anasının oğlunun çəkməsini, geydiyi paltarları hər gün qoxulamasıdır. Məhz bu ana bu cür təsəlli tapır. Bu hadisənin də canlı şahidiyəm. Adamların dəstə-dəstə ziyarətgaha, Milli Qəhrəman, adını xalqımızın tarixinə əbədi yazmış, Azərbaycan şəhidlərinin sərdarı adlandırılan Mübariz İbrahimovun ailəsinə gələn vaxt Şamama ana yerli telekanalların birinə müsahibə verirdi. Başına toplaşmış, onu bir dəqiqəlik də olsa tək buraxmayan qonşu qadınların, qız-gəlinlərin əhatəsində olan Şamama ana çox böyük iradə ilə "Mən bütün analara Mübariz kimi oğul böyüdüb tərbiyə etməyi arzulayıram...", – deyə söylədi. Bu, bir ana müdrikliyidir. Üz vermiş ağır kədərə mətanətlə, dözümlə, səbirlə üstün gəlmək Şamama xanım kimi müdrik analara aiddir. Ağır, kədərli günlərdə Şamama ananı da qohum-qonşu qadınları arasında son dərəcə məğrur gördük. Bəli, Mübariz kimi Vətən, torpaq yolunda öz şirin canından keçməyi bacaran oğulları ancaq belə məğrur, hər şeydən uca tutan analar dünyaya gətirə bilər. Eşq olsun belə analarımıza!..

Necə baş əyməyəsən məğrur analar qarşısında?! Məhz belə anaların vətənpərvər böyütdüyü, tərbiyə etdiyi oğullar canlarından keçərək torpaqlarımızı azad etdi. Şəhid və qəhrəman oldular. Hətta Vətən müharibəsində şəhid həyat yoldaşının tabutunu daşıyan, sınmayan, əyilməyən cavan gəlinlərimizi də gördük! Həyat yoldaşları qəhrəmanlığı ilə düşmənə sinə gərdi, özləri isə məğrur davranışı ilə düşmənə qeyrət, qürur, dərsi keçdi!

Məğrur şəhid analarının göz yaşında həm hüzn, həm də qürur var. Bilirlər ki, övladları torpağın altında deyil, tarixdə yaşayır, onu Vətənin əbədiyyətinə bağışlayıb. Hər açan çiçəkdə onların ümidini görmək olar, hər dalğalanan bayraqda oğullarının nəfəsini. Bu analar sübut etdi ki, Azərbaycan xalqı üçün Vətən sevgisi hər şeydən ucadır və bu sevgi nəsildən-nəslə ötürülərək yaşayacaq.

Başınızı daim uca tutun! Qəhrəman şəhid anaları, baçıları, şəhidin ömür-gün yoldaşları! Qadınlar gününüz mübarək!

Müşfiq MİRZƏ
XQ

Başınızı dik tutun, şəhid anaları

1993-cü ildən – Birinci Qarabağ savaşından sonra yuxu bilməyən gözlərim 2020-ci ildə rahatlandı. Həmin illərin hər gününü gah qələbə, gah şəhid xəbəri ilə başa vurmuşam. Özüm şəhid anasıyam. O bayrağı qəbul edib şəhid tabutu qucaqlamaq nədir, yaxşı bilirəm.

Oğlum Vüqar Namazov Birinci Qarabağ müharibəsində şəhid olub. Orta məktəbi əla qiymətlərlə tamamlayan, ali təhsilinə davam etməyi qərara alan, auditoriyanı cəbhəyə dəyişən 19 yaşlı balam öncə könüllü, yaşı tamamlandıqdan sonra həqiqi hərbi xidmətini müharibədə keçirdi.

Goranboy uğrunda döyüşlərin iştirakçısı olmuş övladıma "təhsilinə davam et" – deyəndə mənə cavabı bu olmuşdu: "Ana, sən özün mənə vətənpərvərlikdən dərs demisən. Babəki, Xətaini, Koroğlunu təbliğ etmisən. Bizi vətənpərvərliyin aliliyinə inandırmısan. Bəs torpağım əldən gedir, axı. Mən təhsilimə sonra davam edərəm. Müharibə bitəndən sonra sən sinfə daxil olub qəhrəmanlığı təbliğ edəndə, şagirdlərin sənə deməyəcəklərmi ki, ay müəllim, qəhrəmanlıq belə yaxşıdırsa, oğlun niyə müharibəyə getməyib?"

Mənim qəhrəman balam, Vətən sevdalısı oğlum 33 il əvvəl, noyabrın 19-da, 19 yaşında şəhid oldu:

Mən şəhid oldum ki, elim yaşasın,
Bu torpaq ayaqlar altda qalmasın.
Min il yatmışları səsim oyatsın,
Mən Vətən qurbanı olmuşam ana...

... Naftalandakı yeganə bağça şəhidimin adını daşıyır, təhsil aldığı məktəbdə onun şərəfinə guşə düzəldilib, şəhid adı çəkilən hər yerdə Vüqar xatırlanır. Ötən illər ərzində şəhərdə elə bir toplantı olmayıb ki, orada şəhidlər anılmasın, şəhid ailələri unudulsun. Bütün bunlar çox müsbət hallar olsa da, balamın qanının yerdə qalmağına görə nə ürəkdən sevinə bilirdim, nə gülə. Övladlarıma toy edəndə də gözlərimiz gülsə də, qəlbimiz qan ağlayırdı...

2020-ci il sentyabrın 27-dən başlayan əks-hücum əməliyyatlarından sonra qəlbimdə bir od közərdi. 44 gün ərzində tarixi və möhtəşəm qələbəyə imza atan Azərbaycan Prezidentinə, Ali Baş Komandana nə qədər təşəkkür etsək, minnətdar olsaq, yenə azdır... Ermənistanın məğlub olduğunu televiziya vasitəsilə xalqa çatdıran dövlət başçımızın çıxışından az sonra yaşadığım binanın ətrafına toplaşan şəhər əhalisinin səsinə boylandım. Onlar pəncərəmin altında "Başını dik tut, şəhid anası! Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır! Yaşasın Prezidentimiz!" – deyə şüarlar səsləndirirdilər. Aşağı enəndə, bayraqlarla, plakatlarla çağırış edənlərin əhatəsində bir anlığa özümü itirdim. Onların əksəriyyəti mənim keçmiş şagirdlərim idi. Məni bağrına basan kim, "gözün aydın" - deyən kim... Anladım ki, balamın nigaran ruhu indi rahatlıq tapdı. Bu gün sevindi... Bircə onu deyə bildim: "Şəhidlərimizin ruhu sevinir. Onların Qarabağ səmasında gəzən nigaran ruhları, şadlanır. Biz nə gözəl millətik, nə gözəl xalqıq. Bu gün hamımız qarabağlıyıq, hamımız şuşalıyıq!"

Biz həmişə inanırdıq ki, Qələbə bizim olacaq. Bütün şəhid anaları bu gün ürək dolusu sevinclə bayramları qeyd edir. Təsəllimiz odur ki, övladlarımız Vətənin

azadlığı yolunda canlarını qurban verdi. Mən ağbirçək şəhid anası kimi həyat yoldaşlarını itirən gənc gəlinlərimizi, şəhid qızlarını, şəhid analarını qarşıdan gələn 8 Mart – Beynəlxalq Qadınlar Günü, Novruz və Ramazan bayramları münasibətilə təbrik edirəm. Onlara deyirəm: "Həyat gözəldir. Yaşayın, şəhidlərimizin ruhlarını şad edən işlər görün. İnanın ki, o ruhlar həmişə sizin ətrafınızdadır".

Tərlan NAMAZOVA

Naftalan şəhəri

Sumqayıt qəhrəmanlarının şəhid bacısı

İki həftə öncə Sumqayıt Şəhidlər xiyabanında uyuyan igidlərimizin məzarları sırasında onların tək bacısı Mehriban Qarayevanın da qəbri yer aldı. İllərdən bəri itkin sayılan bu cəsur qız 1992-ci il iyunun 15-də Ağdərənin Sırxavənd kəndi uğrunda gedən ağır döyüşlərdə yaralanan əsgərləri meydandan çıxararkən düşmənin açdığı atəşdən çoxlu qan itirərək həlak olubmuş.

Həmin ərazi düşmənin nəzarəti altında olduğundan onun meyitini döyüş meydandan çıxara bilməyiblər. 22 yaşında şəhid olan Mehribanın nəşi 34 il sonra Qarabağda aşkarlanandan sonra doğma Sumqayıta gətirilərək torpağa tapşırıldı.

Onun adına ilk dəfə sumqayıtlı yazıçı-publisist Rəna Təbəssümün Böyük Zəfərimizin 5 illiyi münasibətilə işıq üzü görən "Azadlıq yollarında" kitabında rast gəlmişdim. 1992-ci ilin ağır sınaqlı günlərində Vətənin harayını eşidənlərdən biri də Mehriban Arif qızı Qarayeva olmuşdu. Həmkarımız yazıb ki, ürəyində böyük arzuları bu vətənpərvər qızın könüllü olaraq Qarabağa yollanması adi bir yolçuluq deyildi. Bu, torpağa sədaqətlə, millətə sevgi ilə süslənən müqəddəs bağlılığın səssiz and ifadəsi idi.

...Eyni gündə torpaqların müdafiəsi üçün könüllü Qarabağa yola düşməyə hazırlaşan Famil qardaşı Mehribanın bu yola çıxmasına etiraz etdi. O isə Familə "Özün qayıt, çünki sən nişanlısan" deyərək inadından dönmədi. Özünü odun, alovun içinə atdı. Tibb bacısı kimi yaralı əsgərlərə kömək edən Mehribanın 2 ay sonra itkin düşməsi xəbəri alındı.

Məlum oldu ki, tapşırıq əsasında hərbçilərə şəfqət göstərən bu xilas mələyi mayın 4-də Ağdama göndərilib, rayonun müdafiəsində qəhrəmanlıq nümunəsi göstərib. Düz 40 gün sonra isə düşməndən yenicə alınmış Sırxavənddə idi. Nankor qonşuların növbəti qəfil hücumuna yaxalanan bir neçə hərbçi və 19 yerli sakinlə birlikdə şəhadətə ucalaraq cənnətməkan olub.

Mehriban Qarayevanın adı "itkin" kimi səslənsə də, əslində o, heç vaxt yaddaşlardan itib getmədi. Zaman keçdi, fəsillər dəyişdi, amma onun adı yaddaşlardan silinmədi. Çünki Vətən naminə ölümə gedənlərin izi torpağın əbədi yaddaşına yazılır. Nəhayət, illər boyu gözlənilən bir xəbər gəldi, qəlblərdə sönməyən bir ümid şölələndi, dillərin səssiz duaları müstəcəb oldu: Mehribanın nəşinin qalıqları tapıldı və böyük ehtiramla layiq olduğu müqəddəs məkana uğurlandı.

Dəfn mərasimində şəhidin ailə üzvləri, Sumqayıt Şəhər İcra Hakimiyyətinin rəhbərliyi, hüquq-mühafizə orqanlarının əməkdaşları, şəhid ailələri, hərbçilər, müharibə iştirakçıları və ictimaiyyət nümayəndələri iştirak edirdilər.

Rəna Təbəssüm daha sonra yazıb ki, Mehriban yaşasaydı, bu ayın 27-də 56 yaşını doğmaları ilə birgə qeyd edəcəkdi. Amma qismət belə imiş və o, elə 22 yaşında qalıb. Sumqayıtın yeganə şəhid qızının dəfn mərasimi təkcə bir vida deyil, həm də gecikmiş bir qayıdışın urvatlı anı idi. Torpaq onu yenidən bağrına basdı, daha rahat yerdə ağuşuna aldı... Üçrəngli dövlət bayrağımızın kölgəsində uyuyan bu cəsur xanımın nümunəsi Azərbaycan qadınının gücünü, mərdanəliyini və Vətənə sonsuz sədaqətini bir daha göstərdi.

Mehriban Qarayevanın əziz xatirəsi təkcə təhsil aldığı Sumqayıt şəhəri 3 nömrəli tam orta və 35 nömrəli peşə liseyində deyil, ölməzliyi ilə əbədi yuva qurduğu qəlblərdə uca tutulur. İllərin dumanı arasından çıxaraq, daha aydın görünən şəhid qızın adı hər zaman xalqın qürur dolu yaddaşında yaşayacaq.

Bacısı Leyla Qurbanovanın dedikləri:

– Mən ana olandan sonra Mehribanın tez-tez yanıma gəldiyini xatırlayıram. Uşağımı qucağından yerə qoymur, öpərək elə hey "Xala qurban" deyirdi. Özü hələ ailə qurmamışdı, buna görə də mehrini bizim uşaqlara salmışdı. Sağ qalsaydı, indi onun da balaları, nəvələri olar, qarşıdan gələn 8 Mart bayramını təbrik edərdilər. Alın yazısı belə imiş.

Təsəllimiz budur ki, artıq yeri məlumdur, ziyarət edir, üstündə ağlayır və eyni zamanda, qürur duyuruq ki, bacımıza şərəfli ölüm qismət olub.

Ötən cümə günü yenə də Sumqayıt Şəhidlər xiyabanına getmişdim. Yenə də onun məzarı önündə dayanıb dualar etdim. Səssiz qəhrəmanlıq, sonsuz sədaqət və müqəddəs qayıdışın simvolu olan Mehriban Qarayevanın şəklinə baxa-baxa özümdən asılı olmayaraq bədahətən bu misraları pıçıldadım:

Yüz şəhidin bir bacısı,
Rahat uyu, pir olmusan.
İgid-igid oğullarla
Burda gəlib bir olmusan...

Əli NƏCƏFXANLI
XQ

Qayıdışın addımları

“Qafqazın Xirosiması” ağ günlərinə qayıdır

Azad Xankəndidən azad Ağdama gedirik. Ən böyük arzularımızın gerçəkləşməsindən xəbər verən, sona çatmış ana torpaq həsrətimizi ifadə edən bu sadə cümləni yazmaq da, söyləmək də insanın ürəyini qürurla doldurur. Tez-tez yaxınlığından ötüb keçdiyimiz Ağdamın bina-bina yenidən doğuluşunun, küçə-küçə böyüməsinin şahidi olmaq elə bir xoşbəxtlikdir ki, onun sevincindən təkcə ağdamlılara deyil, bütün Azərbaycan xalqına pay düşür.

Babalar tikmişdi, biz də tikək

Xocalı istiqamətindən Ağdamın mərkəzi hissəsinə doğru irəlilədikcə, sanki nəhəng tikinti meydançasına daxil olursan. Səhər yenicə açılıb, saat hələ 9-a işləyir, ancaq artıq şəhərin bərpasının yeni mərhələlərindən olan 4-cü yaşayış kompleksində qızğın iş gedir. Qarabağın sürətli dirçəlişinin göstəricisi kimi torpaqdan Vətənin azad səmasına doğru ucalmaqda olan binalarda mühəndislər, ustalar, fəhlələr gecə-gündüz demədən çalışırlar, tikinti texnikalarının, yük maşınlarının səsi ətrafa yayılır...

Ağdamın işıqlı sabahının qurucuları ilə görüşüb, işlərin gedişi ilə maraqlandıq. Kompleksin 6 və 7 mərtəbəli binalardan ibarət 129-cu məhəlləsində tikintini həyata keçirən EL-Seym şirkətinin iş icraçısı Şahin Mehdizadə bildirdi ki, son günlər havaların əlverişsiz keçməsinə baxmayaraq, kollektiv səylə çalışır. Məqsəd layihə üzrə tikintinin yüksək keyfiyyətlə və vaxtında başa çatdırılmasına nail olmaqdır. Texnika sarıdan hər hansı çətinliyin yaranmaması, material təminatı ilə bağlı ləngimə olmaması üşün layihə rəhbəri Şakir Xanəliyev tərəfindən zəruri addımlar atıldığından iş də sürətlə gedir. Yəni binaların tikintisi qrafikə uyğun başa çatdırılacaq, kompleks ilin sonuna kimi yaşayış üçün hazır olacaq. Beləliklə də, bu gün tikintinin getdiyi bu yerlər yaxın gələcəkdə neçə-neçə ağdamlının həsrətinin bitdiyi ünvana çevriləcək.

Binalardan birində başı işinə qarışmış hörgü ustasına yaxınlaşdıq. Həmsöhbətimiz Asim Abdullayev əlindəki mala ilə işinə davam edə-edə təəssüratlarını bölüşdü. Əslən Kəlbəcər rayonundan olan 33 yaşlı keçmiş məcburi köçkün Ağdamın yenidən qurulmasında iştirak etməyin qürurverici olduğunu, həvəslə çalışdıqlarını, burada onlar üçün bütün zəruri şəraitin yaradıldığını bildirdi.

Qeyd edək ki, 4-cü yaşayış kompleksi Ağdam şəhərinin ərazisində həyata keçirilən iri yaşayış layihələrindən biridir. Məhəllə 10 hissədən ibarətdir və burada ümumilikdə 64 binanın tikilməsi, 1080 mənzilin inşa edilməsi və 4 450 nəfərin məskunlaşdırılması nəzərdə tutulub. Ümumilikdə, 13,96 hektar ərazini əhatə edəcək kompleksdə layihə çərçivəsində 34 800 kvadratmetr yaşıllaşdırma işləri aparılacaq, 200 yerüstü və 1 113 yeraltı avtomobil dayanacağı yaradılacaq.

Baza infrastrukturuna 2,1 km daxili yol, 5,5 km elektrik xətti və 2 ədəd transformator məntəqəsi, 5,2 km rabitə xətti, 2 km su və yanğın xətti daxildir. Kompleksin təməli Azərbaycan Prezidenti tərəfindən 24 dekabr 2023-cü ildə qoyulub.

Salam, yeni Ağdam!

Tikinti zonasından ayrılıb şəhərin artıq öz doğma sakinlərinə qucaq açmış, həyatın yenidən qayıtdığı məhəllələrinə doğru yollananda bir neçə dəfə maşını saxlayıb evlərinə qonaq olacağım Məzahir Əliyevin yaşadığı 30-cu binanın harada yerləşdiyini soruşmalı oldum. İstər-istəməz Ağdama işğaldan azad edildikdən sonrakı ilk səfərimi – 2023-cü ilin dekabrını xatırladım.

Azərbaycan Dövlət Turizm Agentliyinin keçirdiyi “İşğaldan azad olunmuş ərazilərdə turizmin bərpası və inkişafı” adlı I elmi-praktiki konfransa gələn iştirakçıların hamısı bir nəfər kimi, şəhərdə erməni vandallarının törətdikləri dağıntıları ürəkağrısı ilə izləyirdi. Bərdədən çəkilmiş yeni asfalt yolun bitdiyi dairədən şəhərin içindəki yeganə təzə tikilmiş bina olan Konfrans Mərkəzinə cəmi bir istiqamətlə gəlmək mümkün idi. Həmin dar yolunda sağında və solunda mina və partlamamış döyüş sursatlarının mövcudluğu təhlükəsi ilə bağlı qırmızı xəbərdaredici lövhələr vurulmuşdu. O günləri görən, xatırlayan biri üçün Ağdamın bugünkü inkişaf sürətinə heyrətlənməmək, sevinməmək mümkün deyil!

Şəhərin bir hissəsini müasir üslubda tikilmiş yaraşıqlı binalar, sakinlərin rahat istirahətləri üçün hər şeylə təmin edilmiş, güllü-çiçəkli həyətlər bəzəyir. Həyətlərdəki oyun meydançaları indi Ağdamın balaca sakinlərinin sevimli əyləncə yerlərinə çevrilib. Ağsaqqallar, ağbirçəklər uzun illər həsrət qaldıqları doğma yurdun təmiz havasından zövq almaq üçün oturacaqlarda əyləşib dərdləşir, ötən günlərini xatırlayır, uşaqların sevinclə oyunlar oynamalarına tamaşa edirlər. Asfalt döşənmiş yeni yollar göz oxşayır. Hətta yollarda ilk işıqforlar quraşdırılıb, küçələr şəhərin baş planına uyğun yeni adlarına qovuşub.

...Məzahir müəllim və həyat yoldaşı Zemfira Əliyeva bizi qarabağlılara məxsus qonaqpərvərliklə, mehribanlıqla qarşıladılar. Söhbət zamanı öyrəndik ki, ömrünün ilk 42 ilini Ağdamda yaşamış M.Əliyev uzun illər ailəsi ilə birlikdə məcburi köçkün kimi Bakıda məskunlaşıb. Orada güzəranlarının necə keçməsindən asılı olmayaraq Ağdamın həsrətini çəkmədikləri bircə gün də olmayıb:

– Azərbaycanın hər yeri əzizdir. Ancaq biz ağdamlılar üçün Ağdam bir başqadır.

Doğma yurdumun gözəlliyi, havası, suyu, mehriban dolandığımız qonşularımız, dostlarımız, hətta şəhərin quru küçələri, daşı-qayası da yadıma düşdükcə, kövrəlib ağlayırdım. Çox şükür, möhtərəm Prezidentimiz İlham Əliyevin sayəsində 2025-ci il dekabrın 24-də Ağdam həsrətimiz bitdi, biz doğma şəhərimizə qovuşduq! Bu hissi ancaq yaşayanlar bilər. Elə bil ki, cənnətdəyik!

Sözügedən tarix həmsöhbətlərimin işğaldan sonra Ağdama ilk gəlişləri olub. Səbəbini Zemfira xanım belə izah etdi:

– Səhhətimə görə ehtiyat edirdik. Qorxurdum ki, gəlib Ağdamın evlərini televizorda göstərdikləri kimi, yerlə bir edilmiş, tamamilə dağıdılmış görməyə ürəyim tab gətirməz. Gələndə də işğaldan azad edilmiş ərazilərə girəndən Ağdama qədər ağlamışam. Ancaq budəfəki göz yaşlarım sevinc yaşları idi. Bu gün şəhərimiz yenidən qurulur. Get-gedə böyüyür, gözəlləşir. Görün, necə xoşbəxt insanlarıq ki, belə günlərdə Ağdamda yaşamaq bizə qismət oldu! Qohumlar tez-tez zəng edib soruşurlar ki, “necəsiniz, darıxmırsınız orada?”. Deyirəm, nə darıxmaq, biz ən böyük arzumuza çatmışıq. Əksinə, Ağdamdan harasa getsək, bura üçün darıxırıq. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin! Allah Prezidentimizi qorusun!

Məzahir müəllim hələ Ağdamda ikən ailə qurub, ev-eşiyindən 3 övladı ilə birlikdə didərgin düşüb. İndi isə geriyə 9 nəvənin, 3 nəticənin babası kimi qayıdıb. Dedi ki, övladları azad yurdumuzda qayğısız yaşayacaqlar. Yeni evlərində yaradılan şərait haqqında da ağızdolusu danışdılar. Həqiqətən, Ağdamda sakinlərin rahat yaşayışları üçün hər şey nəzərə alınıb. Təzə liftdən tutmuş mənzillərin təmirinə, infrastrukturuna qədər bütün görülmüş işlər tərifəlayiqdir.

Dirçələn şəhərin ilk məktəbi

Səfərimizin növbəti ünvanı 1 nömrəli tam orta məktəb oldu. Fəxr ediləsi təhsil ənənələrinə malik, ölkəmizə çoxsaylı elm xadimləri, tanınmış şəxsiyyətlər bəxş etmiş bu təhsil ocağı da uzun illərin “məcburi köçkünlüyünə” vida edib və şəhərin görkəmli yerlərindən birində yeni həyatına başlayıb.

Məktəbin direktoru Günel Vəliyeva bildirdi ki, 960 şagird yerlik təhsil ocağında pedaqoji heyət tam formalaşdırılıb, 2026-cı il fevralın 16-da isə tədrisin bərpası həyata keçirilib. Müəllimlərin seçimi zamanı onların bilik səviyyəsi və sertifikasiya imtahanlarının nəticələri, iş təcrübələri nəzərə alınıb. Hələlik məktəbdə təhsil alanların sayı nəzərdə tutulduğu qədər olmasa da, sakinlər daimi yaşamaq üçün Ağdama köçdükcə şagirdlərin də sayı artır.

Məktəb öz üzərinə yeni Ağdam şəhərində təhsilin ilk qaranquşu kimi şərəfli, həm də “məsuliyyətli inkişaf missiyası” götürüb. Direktor bu missiyanı reallaşdırmağın özü və bütün kollektivi üçün mühüm öhdəlik olduğunu dedi:

– İllərlə xarabalığa çevrilmiş Ağdamın görüntülərini ürək ağrısı ilə izləmişəm. Bu gün isə şəhərimizin dirçəlişinə, külündən yenidən doğulmasına şahidlik edirik. Artıq bütün acı günlər geridə qalıb. Bir direktor kimi vaxtilə bütün Qarabağda məşhur olan 1 nömrəli məktəbin əvvəlki yüksək təhsil səviyyəsinə yüksəlməsi, ənənələrini yaşatması üçün əlimdən gələni edəcəm.

Təhsil ocağında yaradılmış şəraitlə bağlı öyrəndik ki, “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrası çərçivəsində tikilmiş məktəbin binasında 43 sinif, 16 inzibati otaq mövcuddur. Həmçinin 7 otaqdan ibarət STEAM adlandırılan elm, texnologiya, mühəndislik, sənət və riyaziyyat mərkəzinin, müasir texnoloji avadanlıqla təchiz edilmiş fizika, kimya və biologiya laboratoriyalarının, informatika və çağırışaqədərki hazırlıq otaqlarının, kitabxananın, muzeyin, 352 yerlik yeməkxananın fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılıb.

Bundan başqa, məktəbdə müxtəlif tədbirlərin keçirilməsi üçün 468 yerlik akt zalı, iki qapalı idman zalı, açıq havada futbol və basketbol meydançaları da müəllim və şagirdlərin ixtiyarına verilib. Bir sözlə, geniş, işıqlı, müasir tələblərə cavab verən maddi-texniki bazaya malik məktəb binasında yüksək səviyəli təhsil üçün hər cür imkan var.

Məktəbin müəllimlərindən İlahə Nəcəfova, Qəmər İsmayılova, Vəfa Bayramova Ağdam şəhər 1 nömrəli tam orta məktəbdə işləməyin onlar üçün qürurverici olduğunu bildirdilər. Qeyd etdilər ki, bu gün hər bir azərbaycanlı kimi, ağdamlılar da başlarını dik tuturlar, rahat nəfəs alırlar. Çünki dövlət başçımız həm bütün dünyaya “Qarabağ Azərbaycandır!” bəyanını etdi, həm də Qarabağımızı azad edərək bizə qaytardı. Ona görə də bu torpaqlar bizim üçün daha əziz, daha müqəddəsdir. Müəllimlər qarşılarında duran ən böyük vəzifələrdən birinin də məhz yeni nəsli vətənpərvərlik ruhunda tərbiyə etmək olduğunu vurğuladılar.

Şagirdlərlə də həmsöhbət olduq. Doqquzuncu sinif şagirdi Əli Mehdiyev, 7-ci sinifdə oxuyan Rəsul və Fərid İsmayılzadə qardaşları ailələrinin Ağdama qayıdışının, yeni məktəblərində təhsil almağın onların həyatlarında yaddaqalan anlara çevrildiyini bildirdilər. Ölkənin başqa ərazisində doğulub, ata yurduna ilk dəfə qədəm basmış bu şagirdləri Ağdamda ən çox təsirləndirən ermənilərin törətdikləri dağıntıların, vandallıq aktlarının qalıqları olub. Odur ki, onlar da öz yaxşı oxumaq, gələcəkdə xalqımıza, dövlətimizə layiqli övladlar kimi yetişmək öhdəliklərini yaxşı anlayırlar. Bizə bu öhdəliklərinə sadiq qalacaqlarına söz verdilər.

Yenidən doğma yurdda

Müəllimlərlə, şagirdlərlə sağollaşıb doğma Ağdamına qayıdışının sevincini bölüşmək üçün daha bir ailənin yaşadığı ünvana – 38-ci binaya yollandıq. Ev sahibi Namiq Məmmədov Birinci Qarabağ müharibəsində torpaqlarımızın müdafiəsi uğrunda döyüşlərdə iştirak edib. Ağdamın işğalından sonra ailələri əvvəlcə Sabirabadda müvəqqəti məskunlaşıb, daha sonra iş tapmaq, o çətin vaxtlarda çörək qazanmaq məqsədilə Bakıya üz tutub. Orada ailə qurub, 4 övladı dünyaya gəlib. Özü də, həyat yoldaşı Rumiyyə xanım da, övladları da hər zaman Ağdamı görmək, Ağdama qayıtmaq arzusu ilə yaşayıblar.

Azərbaycanın ədaləti öz gücünə bərqərar etməsi sayəsində Məmmədovlar ailəsinin də arzuları reallığa çevrilib, yanlarında yaşayan 2 övladları ilə birlikdə geriyə - yeni evlərinə köçüblər.

Vətənə qayıdış, təbii olaraq, həyəcansız ötüşməyib. Rumiyyə xanım dedi ki, Ağdamın girəcəyinə, Uzundərəyə çatanda Namiqin keçirdiyi sarsıntını heç vaxt unuda bilmərəm:

– Maşını saxladı, dizlərini yerə qoyub torpağı qucaqladı, öpdü. Özündən asılı olmayaraq içində yaşadığı hissləri qışqıraraq ifadə etməyə başladı. Ağlayırdı, ucadan Allaha şükür edirdi. Bu, sona çatan həsrətimizin harayının, Ağdama qovuşmağın sevincinin ifadəsi idi. Bugünkü xoşbəxtliyimizi isə sözlərlə ifadə etmək mümkün deyil. Hər şeyə görə dövlətimizə, dövlət başçımıza minnətdarıq!

Bir məqamı da qeyd edək ki, Böyük Qayıdış çərçivəsində işğaldan azad olunmuş torpaqlarımıza qayıdan insanların məşğulluq məsələləri, hər yerdə olduğu kimi, Ağdamda da xüsusi diqqətdə saxlanılır. Ata yurdlarına qısa müddətdir köçmüş Məmmədovlar ailəsinin 20 yaşlı üzvü Aqilin Ağdam Sənaye Parkında işlə təmin edilməsi də məhz bu diqqətin göstəricisidir.

Namiq kişi söhbət əsnasında Ağdamın dünəninin acı həqiqətlərinin və bugünkü dirçəlişinin mənzərəsini görmək, dərindən dərk etmək üçün yeni evlərinin eyvanından görünən mənzərəni izləməyin kifayət olduğunu bildirdi. Maraq naminə birlikdə eyvana çıxdıq. Həqiqətən, müasir yaşayış binalarından yaxınlığında “Qafqazın Xirosiması”nın qalıqları, onun ardınca ermənilərin bütün mənəvi dəyərləri heçə sayaraq dağıtdıqları və Azərbaycanın torpaqlarımızın işğaldan azad edilməsindən sonra ilk mərhələdə bərpa etdiyi Cümə məscidi, daha sonra tikilməkdə olan yeni yaşayış kompleksləri, xeyli uzaqlarda isə bütün bunlara şahidlik edən başı qarlı dağlar görünürdü.

Ağdam səfərimizi elə bu təsvirlə yekunlaşdırmaq qərarına gəldik. Çünki burada həm Ağdamın hər zaman xatırlamalı olduğumuz keçmişi, həm də firavan sabahı öz əksini tapıb. Qoca dağlar isə sanki bu gedişatların son nəticələrindən razıymış kimi vüqarla qəddini dikəldib...

Yazını hazırlayan zaman, fevralın 5-də Ağdam şəhərinə daha 346 nəfərdən ibarət 90 ailənin köçürülməsi xəbərinə sevindik. Böyük Qayıdışın davamlı olsun, Ağdam!

Mahir RƏSULOĞLU,
XQ-nin Qarabağ müxbiri

Ağdam

Göygöldə iftar mərasimi

Göygöl rayonunda müqəddəs Ramazan ayının mənəvi ab-havasını əks etdirən duyğulu bir iftar süfrəsi təşkil olundu. Rayon icra hakimiyyətinin təşkil etdiyi axşam məclisində şəhid ailələri və qazilərlə yanaşı, nüfuzlu ağsaqqallar, rayonun və Gəncəbasarın dini qurum təmsilçiləri iştirak edirdilər.

Rayon icra hakimiyyətinin başçısı Vüqar Novruzov məclisin əvvəlində dövlətimizin milli-mənəvi dəyərlərə göstərdiyi diqqət və qayğıdan danışdı. O bildirdi ki, ölkəmizdə dinlər və məzhəblər arasında tolerantlıq və həmrəylik mühiti yüksək səviyyədə qorunur. Vurğulandı ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu 30 illik işğala son qoyaraq torpaqlarımızı azad edib, şəhidlərimizin qisası alınıb.

Şəhid ailələri və qazilər adından çıxış edənlər onlara göstərilən ictimai diqqətdən və dövlət qayğısından şükranlıqla söz açdılar. Din xadimləri Ramazan ayının mənəvi paklıq, mərhəmət və şəfqət ayı olduğunu qeyd edərək, bu müqəddəs günlərin insanları birliyə, paylaşmağa və xeyirxahlığa səslədiyini vurğuladılar.

Süfrə arxasında müqəddəs “Qurani-Kərim”dən ayələr oxundu, dualar edildi. İftar mərasimi müqəddəs dəyərlərə ehtiram, birlik və mənəvi həmrəylik əlaməti altında keçdi.

H.ZEYNALOĞLU,
XQ-nin Gəncəbasar müxbiri

Masallıda bir el bir evə dayaq oldu

Masallı rayonunun Böyük Kolatan ərazisində Nazir Ağayevin aztəminatlı ailəsinə məxsus ev yanğın nəticəsində zərər görmüşdü. Ailənin müraciəti nəzərə alınaraq rayon rəhbərliyinin tapşırığı ilə həmin evə baxış keçirilib və qısa müddətdə təmir-bərpa işlərinə başlanıb.

Rayon icra hakimiyyətinin təşkilatçılığı, ərazi nümayəndəliyi və bələdiyyənin, eləcə də kənd xeyriyyəçilərinin maddi dəstəyi ilə ev əvvəlkindən də yaxşı görkəmə düşməkdədir. Bu günlərdə Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov və müavinləri, eləcə də ərazi nümayəndəsi və bələdiyyə rəhbərliyi, media nümayəndələri və ictimaiyyət təmsilçiləri əsaslı təmir edilən evdə olub, ailə üzvləri ilə görüşüblər. Rayon rəhbəri işlərin gedişatı ilə yaxından tanış olub, təmirin tezliklə və yüksək keyfiyyətlə başa çatdırılmasına dair müvafiq tapşırıqlar verib. O, eyni zamanda, ailənin digər qayğıları ilə maraqlanıb.

Ev sahibi Nazir Ağayev göstərilən diqqət və qayğıya görə hər kəsə minnətdarlığını ifadə edib. Onun həyat yoldaşı Məlahət Zeynalova deyib:

– Biz həm aztəminatlı ailəyik, həm də oğlumuz Nəsib 1-ci qrup gözdən əlildir. Evimizdə yanğın baş verəndən sonra rayonumuzun rəhbərliyi, el-oba bizə yaxından köməklik etməyə başladı. İşləri şəxsi nəzarətində saxlayan Araz müəllim dedi ki, təmirdən sonra evimizin mebellə təmin edilməsinə də yardımçı olacaq. Bizi darda qoymayanlar hamılıqla var olsunlar!

Əlihüseyn ŞÜKÜROV,
Masallıda çıxan “Yeni həyat” qəzetinin baş redaktoru

Novruz marafonu

Yel çərşənbəsi və "Yel baba" anlayışı

Novruzqabağı mərasimlər sırasında mühüm bir hissəni yel çərşənbəsi ilə əlaqədar keçirilən rituallar və söyləmələr təşkil edir. Xalq inam və etiqadlarında, çeşidli əhvalat və hekayətlərdə, eləcə də folklorşünasların, etnoqrafların, filosofların sistemli təhlillərində yel çərşənbəsinin mifoloji-fəlsəfi, tarixi-mədəni, etnoqrafik məzmunu ilə əlaqədar maraqlı fikir və mülahizələr yürüdülür.

Tarixi kökləri etibarilə ilkin təsəvvürlərə dayanan çərşənbələr bütün məzmunu və əhatələdiyi işarələnmələrlə etnik müəyyənliyin təsdiqinə və dərkinə yüklənməklə müxtəlif səpkili mərasim aktlarının yaranışı və qəlibləşməsi üçün əsas olmuşdur. "Yel baba" müraciətləri timsalında olan çağırışlar və etnoenerjinin ifadəlilik mexanizmi kontekstində ortaya qoyduğu məzmun arxaik qatdakı başlanğıcı əsas götürməklə yoluna davam etmişdir. Etnoqrafik materiyanın energetik mənzərəsi və strukturu çərşənbələr səviyyəsində kutsal nizamı və Novruza gəlişin mərasimlər toplusu aspektində zənginliyini faktlaşdırır.

Maraqlıdır ki, libaslarının adı ilə onların özünü xarakteri arasında bir oxşarlıq nəzərə çarpır. Burada rənglərin özü mifik mənaları ilə xüsusi məzmun daşıyır. Belə ki, türk mifologiyasında Ağ yel ağ libasda, Qara yel qara libasda, Xəzri göy libasda, Gilavar qırmızı libasda təsəvvür edilir". Türk xalqlarında canlandırmanın üsulları və məna qatı bütün parametrləri ilə arxaik qatı, xalqın ritual səviyyəsində qəlibləşdirdiyi təsəvvürə köklənir.

Ümumiyyətlə, adlanmanın simmetriyası tarixi abidələrdə, xalqın əfsanə, rəvayət, nağıl, dastan, mərasim örnəklərində müxtəlif formalarda müşahidə olunur və

Yel çərşənbəsi xalqın əski inamlarına görə nizam yaradıcı funksiyasında çıxış edir və xalq arasında "küləkli çərşənbə", "yelli çərşənbə" və s. adlarla da qeyd olunur. Kiçik deyim və ad fərqliliklərinə baxmayaraq, bütün hallarda eyni mahiyyəti, yel səviyyəsində yerinə yetirdiyi funksiyanı faktlaşdırır. Yel çərşənbəsi isə yelin funksional rolu timsalında nizam yaratmaya, təbiətin kutsallığında ruzigarın sərgilədiyi mənzərə uğurlu, barlı-bəhərli yazın gəlişinə bələdçi, xəbərçi (müjdəçi) statusunda özünü göstərir.

Xalq inam və etiqadlarında yel ilə bağlı (ağ yel, qara yel, xəzri, gilavar və s.) müxtəlif söyləmələr özünə yer alır və bunun hər birisinin özünəməxsus məqam və simvolizə olunması, ritual səviyyəsinə gəlişi haqqında bilgilər vardır. Orada vurğulanır ki, "əski etiqadlara görə, qara nəhrdə "yatmış dörd cür külək" yer üzünə çıxaraq əvvəlcə özü təmizlənir, hər biri isə bir libasda özünü göstərir.

bu həm də zənginlik elementi olaraq özünü göstərir. Yaradılışın dörd ünsüründən biri olan küləkdə də yel adı ilə adlanmanın spesifikası bu arxaik qata, etnik şüurda küləyin sərgilədiyi funksional düzümə bağlanır.

Mürəkkəb metereoloji hadisə olaraq yel oynadığı funksiyaya görə ağ yel, qara yel və s. adlarla məna çalarları kəsb etmişdir və bunun müxtəlif simvolizmləri artıq yaddaş səviyyəsində qəlibləşmişdir. Ağ yelin əksi qara yeldir və bir-birindən fərqliliklərlə təzahür edir. Yel çərşənbəsi də məhz bu hava axınlarının ümumi gedişi anlamında tarixin çox dərin qatlarında inam və etiqadlara bağlanmaqla əsaslı təsəvvür formalaşdırmışdır. Qara yel daha çox kiçik çilləda özünü göstərir və sürətli əsməsi ilə müşahidə olunur. Ağ yel isə bir qədər mülayimliyi və həlimlik gətirmə xüsusiyyəti ilə qədim insanların diqqətində əsaslı təsəvvür yaratmışdır.

Qış və yazın gəlişi (həm də yel çərşənbəsində) gilavar havaya, havanın enməsi, istiliyin gəlməsi funksiyasında özünü göstərir. Abşeron zonasında yel çərşənbəsində gilavarın əsməsi xeyirin, uğurlu gəlişin müjdəsi xüsusiyyəti ilə spesifikləşir. Əski inamlarda, zərdüştlükdə, səmavi kitablarda bu baxımdan maraqlı bilgilər vardır. Yelin, küləyin çərşənbə səviyyəsində simvollaşması kultlaşma ilə özünü təzahür etdirir və hətta bütünlükdə kainatı idarə etmək funksiyası ilə diqqət önünə gəlir.

Xalq arasında "yel baba" müraciətinin qaynağı da öz mənşəyi etibarilə mifoloji təsəvvürdə olanlara bağlanır. Folklorşünaslar, etnoqraflar, filosoflar "yel baba" müraciətində "baba"nın funksional mahiyyətinə diqqət yetirərək terminin əhatələdiyi məzmunun bütünlükdə yakutlardan, altaylardan Aralıq dənizi sahillərinə qədər böyük bir coğrafi ərazini özündə ehtiva etdiyini qeyd edirlər.

Yelin dünyanı gəzmə anlamı müxtəlif toplumlarda yaxınlıq və fərqliliklərlə (daha çox yaxınlıqlarla) hekayətlər şəklində dolaşmaqdadır. Hətta yelin fərqliliklərinin (ağ yelin, qara yelin, xəzrinin, gilavarın) haqqında olan mifoloji bilgilər tanrı nizamında tapşırıqlara, deyilənlərin onun göstərişləri ilə reallaşmasına bağlanır.

Yelin "baba" və ya "babalıq" funksiyası Azərbaycan folklorunda da özünü göstərir. Yel çərşənbəsi zamanı olan nəğmələr ritualın bir parçası olaraq etnosun əski təsəvvürünün nişanəsi olaraq kodlaşır. Folklorşünas M.Həkimov vurğulayır ki, "türk-islam dünyasında yel çərşənbəsi bütün çərşənbələrin ən təmtəraqlısı və şərəfli olanıdır. Deyilənə görə, "bu çərşənbədə Yel baba suyun, yerin donunu açır, odu üfürür, günəşin qarşısını kəsən qara buludları qovlayır" və bunların ümumi dərki təbii prosesləri qavramdan simvolik işarələnməyə qədər bir rəngarəngliyi sərgiləyir.

a) mifoloji təsəvvürün ehtiva etdiyi məzmun;

b) semantik anlamda sıralanan mənzərə;

c) rituallaşma və mərasim aspektindəki özünəməxsusluq;

d) tarixi yaddaşın ortaya qoyduğu fəlsəfi-nəzəri anlam və s.

Yel babaya müraciət nümunələr çeşidliyi və dəqiqliyi ilə təfərrüatlı bir mənzərə sərgiləyir.

A yel baba, yel baba,
Qurban sənə gəl baba.
Ağ yel əssin, əssin,
Qara yel kəssin, kəssin.
Ağ yel əssin, torpaq oyansın,
Bağ-bağçalar çiçəyə boyansın.

Yelin obrazlaşması və onun mətn simvolikası bütün hallarda "baba" anlamı ilə daha geniş məna daşıyır və müdrikliyə, xeyirxahlığa, uca tutulmağa yüklənir. Xalq yaddaşında "baba"nın kəsb etdiyi məzmun eyni ahəng, təsəvvürlə yel çərşənbəsinə gətirilmişdir. Türk düşüncə tərzində müəyyənləşmiş sistem ailə kutsallığında sosium olaraq "baba"ya əlavə çalarlar qatmış, onun mahiyyətində olanları dünyanın dörd ünsürü səviyyəsində daşımağa həssaslıq göstərmişdir.

Ədəbiyyatın şifahi və yazılı qolunda çərşənbələr, bahar mərasimi və onun müxtəlif komponentləri haqqında lazımi qədər gərəkli bilgilər vardır. Atalar sözü, məsəl, tapmaca, lətifə, əfsanə, mif, rəvayət, dastan və s. səviyyəsində olan örnəklər etnokulturoloji sistemin zənginliyinə marağı açıqlayır. "Yel havalanıb keçər", "yel əsməyincə yarpaq tərpənməz", "yel gətirib, gün qurudub", "yel əsəndə yellənər, yol görəndə yollanar", "yel üfürdü, su töküldü", "yel süpürsün, yağış aparsın", "yelə dedilər əsmə, dedi kələyimi kəsmə", "yel olmasa, sel də olmaz" və s. bütün tərəfləri ilə xalq təsəvvüründə olanları və yel çərşənbəsində cəmlənənləri diqqət önünə gətirir. "Qara yel əsdi keçdi, səbrimi kəsdi keçdi" silsiləsindən olanlar çeşidliliklə və arxaik qatda olanların polifoniyasını əhatələməklə küləyin "yel çərşənbəsi", "yel baba" timsalında müşahidə olunanların çox əski zamandan üzü bəri daşınanların dinamiklik mənzərəsini faktlaşdırır.

Yel çərşənbəsində olanlar, eləcə də yellə əlaqədar xalq arasında söylənənlər bunun ən bariz nümunəsidir. "Yel baba xırmana gəlməzdən qabaq oradan buğda, dən götürməzlər", "yeli əsdirəni söyməzlər", "yel dağına ziyarət edərlər", "Yel baba kimin nəzirini qəbul etsə o xeyir tapar", "yel çərşənbəsi gecəsi söyüd ağacının altına gedib niyyət elə" inancları öz tarixi kökləri ilə insanların həyatının müəyyən məqamlarını əks etdirməklə etnosun məişət zənginliyində yelin funksional rolunu faktlaşdırır.

Bütün bunlar yel çərşənbəsinin xalq təsəvvüründəki ən dərin qatlardan günümüzə qədər gəlişinin ümumi dinamikasını sərgiləməklə geniş mənada mədəniyyət zənginliyini diqqət önünə gətirir.

Səhər HİDAYƏT QIZI ORUCOVA,
filologiya elmləri doktoru,
professor

Musiqiçilərin iqtisadçı müəllimi

İlk qadın gəmi kapitanı Şövkət Səlimova film qəhrəmanıdır

8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə Bəstəkarlar İttifaqında Azərbaycanın ilk qadın gəmi kapitanı, Şövkət Səlimova haqqında "Şövkət" bədii filminin təqdimatı keçirildi.

Mərasimdə **Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadə** musiqi xadimlərinin cəmiyyətdəki rolundan və gənc bəstəkarların kino, teatr musiqisinə verdiyi töhfələrdən danışdı. İttifaqın bu sahədəki boşluğu doldurmaq üçün gördüyü işləri vurğulayan professor, gənc nəslin ustad sənətkarlara olan vəfa borcuna xüsusilə diqqət çəkdi. O, Azərbaycanın ilk qadın gəmi kapitanı, Əməkdar iqtisadçı Şövkət Səlimovanın zəngin həyat yolunu və Konservatoriyadakı fədakar fəaliyyətini xatırladaraq, onun nizam-intizamının və yüksək mənəviyyatının hər kəs üçün örnək olduğunu bildirdi:

– Biz mütəmadi olaraq müxtəlif mövzulara həsr edilmiş tədbirlər keçiririk. Məqsədimiz bəstəkar və musiqişünaslarımızın fəaliyyətini işıqlandırmaq, onların yaradıcılığını geniş ictimaiyyətə çatdırmaqdır. Təəssüflə qeyd etməliyik ki, müasir media məkanında musiqi xadimlərimizin yaradıcılığı və bu sahədəki aktual müzakirələr kifayət qədər işıqlandırılmır. Biz məhz bu boş-

luğu aradan qaldırmaq məqsədilə tez-tez bir araya gəlir, mühüm məsələləri diskussiya edir, mövzuya dair filmlər nümayiş etdirir və yeni əsərləri, bəstələri dinləyirik.

Gənclərin musiqi dünyagörüşü, sosial hadisələrə yanaşması və ustadlarına olan mənəvi bağlılığı bizimi üçün böyük əhəmiyyət kəsb edir. Vaxtilə biz də müəllimlərimizə sonsuz ehtiram və heyranlıqla yanaşmışıq. Bu gün mən gənc bəstəkarlarımızın təkcə musiqi bəstələmək deyil, həm də publisistik məqalələr də yazmalarını istəyirəm.

Müasir Azərbaycanda simfonik və səhnə musiqisi kimi çətin janrlar, sanki, diqqətdən kənarda qalıb. Təəssüf ki, orkestrlərimiz və ansambllarımız yeni yazılan əsərlərə kifayət qədər yer ayırmırlar. Hesab edirəm ki, hər yeni əsər diqqət mərkəzində olmalı, ifa və müzakirə edilməlidir. Biz öz imkanlarımız daxilində festivallarda və yubileylərdə bu musiqiləri səsləndirməyə çalışırıq.

Son illər gənclərimizin kino və teatr musiqisinə marağı artıb. Bu sahədə Turan Məmmədlinin, qazi bəstəkarımız Vüqar Məmmədzadənin və istedadlı gənc bəstəkar Tahir İbişovun adlarını çəkmək istərdim. Tahir həm bəstəkar, həm də bacarıqlı təşkilatçı və dirijordur. Onun Almaniyada Nəsiminin qəzəlləri əsasında hazırladığı layihə böyük rəğbətlə qarşılandı. Bu gün təqdim olunan "Şövkət" filminin musiqisi də məhz ona məxsusdur.

İttifaqımızda teatr, simfonik, kamera, uşaq musiqisi kimi müxtəlif bölmələr fəaliyyət göstərir və hər birinə tanınmış mütəxəssislər rəhbərlik edir. Bu ənənələr bizə ustad müəllimlərimizdən miras qalıb. Həmin unudulmaz şəxsiyyətlərdən biri də bu gün xatirəsini ehtiramla yad etdiyimiz Şövkət Səlimovadır.

Şövkət xanım hamımızın sevimli, lakin çox tələbkar müəllimi olub. O, yüksək nizam-intizamı və dərin savadı ilə seçilirdi. Azərbaycan tarixində ilk qadın gəmi kapitanı və iqtisad elmləri namizədi kimi ilklərə imza atmış bu fədakar xanımı unutmamaq hər birimizin borcudur.

Mən Şövkət xanımı hələ 70-ci illərdən, anamla olan dostluğuna görə tanıyırdım. Anam həmişə onun haqqında böyük hörmətlə danışardı. 1975-ci ildə aspiranturaya imtahan verdiyim zamanı o, mənə çox ciddi və qəribə bir sual vermiş, özünəməxsus sərtliyi ilə siyasi-iqtisadi proseslər haqqında soruşmuşdu. O vaxt Dilarə Seyidzadənin köməkliyi ilə imtahandan "5" alsam da, Şövkət xanımın o vüqarlı duruşu, müharibə görmüş insanlara xas əzmi və nizam-intizamı yaddaşımda əbədi qaldı.

Azərbaycan Bəstəkarlar İttifaqının katibləri – Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Elnarə Dadaşova və sənətşünaslıq üzrə elmlər doktoru, dosent Leyla Zöhrabova da çıxış edərək Şövkət Səlimovanın həyat və fəaliyyətindən bəhs etdilər.

Filmin bəstəkarı Tahir İbişov və rejissoru Asif Rüstəmov ərsəyə gətirdikləri ekran əsəri haqqında məlumat verdilər.

Çıxışlardan sonra film nümayiş olundu.

XQ

Dövlətin dil siyasətində yeni mərhələ

Azərbaycan Prezidenti İlham Əliyev 3 noyabr 2025-ci il tarixində Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağında, eləcə də 5 yanvar 2026-cı ildə televiziya jurnalistlərinə müsahibəsində elmin müasir inkişaf çağırışlarını kompleks şəkildə təhlil etmişdir.

Dövlət başçısının çıxışlarında qloballaşma şəraitində elmi potensialın gücləndirilməsi, innovasiyayönümlü inkişaf modelinin formalaşdırılması və elmi nəticələrin praktik tətbiq imkanlarının genişləndirilməsi kimi məsələlər xüsusi vurğulanmışdır. Həmin görüşlər Azərbaycan elmi tarixində əlamətdar hadisə kimi dəyərləndirilə bilər. Yubileyin dövlət səviyyəsində qeyd olunması ölkədə elmin institusional və sistemli inkişafına verilən yüksək siyasi qiymətin göstəricisi olmaqla yanaşı, elm siyasətinin milli prioritetlər sırasında mühüm yer tutduğunu da təsdiqləyir.

Qeyd olunan tədbirlər yalnız yubiley xarakteri daşımamış, eyni zamanda, elmin strateji inkişaf istiqamətlərinin müəyyənləşdirildiyi konseptual platforma funksiyasını yerinə yetirmişdir. Azərbaycan Prezidenti elmi ictimaiyyətə ehtiramını ifadə etməklə yanaşı, elmin ölkənin davamlı və dayanıqlı inkişaf strategiyasında tutduğu yerə dair konseptual yanaşma ortaya qoymuşdur. Çıxışda elm sahəsinin milli inkişaf prioritetləri ilə əlaqələndirilməsi, bilik iqtisadiyyatının formalaşdırılması və elmi nəticələrin praktik müstəviyə transferi kimi məsələlər xüsusi vurğulanmışdır.

Dövlət başçısı Azərbaycan Milli Elmlər Akademiyasını Azərbaycanın elmi irsinin qorunması, sistemləşdirilməsi və yeni biliklərin istehsalı baxımından fundamental əhəmiyyətə malik milli təşkilati resurs kimi səciyyələndirmişdir. Bu yanaşma Akademiyanın yalnız tarixi-mədəni missiyasını deyil, həm də müasir dövrdə innovativ inkişafın təmin edilməsində oynadığı rolu ön plana çıxarmışdır.

Yubiley tədbiri sırf xatirə xarakteri daşımamış, eyni zamanda, elmin milli inkişaf modelində prioritet istiqamət kimi müəyyənləşdirildiyini təsdiqləyən siyasi məzmunlu platforma funksiyasını yerinə yetirmişdir. Dövlət başçısının qeyd olunan görüşlərdə dil siyasəti ilə bağlı səsləndirdiyi fikirlər elmi ictimaiyyət, xüsusilə də dilçilik sahəsi üçün konseptual istiqamət müəyyənləşdirən tezislər kimi çıxış etmişdir. Prezident İlham Əliyev dilçilik sahəsində prioritetlərin yenidən nəzərdən keçirilməsi, müasir qloballaşma şəraitində ana dilinin funksional imkanlarının genişləndirilməsi və elmi potensialın milli inkişaf strategiyası ilə uzlaşdırılması məsələlərini ön plana çəkmişdir. Bu baxımdan, Prezidentin çıxışını elmin və xüsusilə dil siyasətinin gələcək inkişaf trayektoriyasını müəyyən edən strateji konseptual çərçivə kimi dəyərləndirmək mümkündür. Çünki burada bir tərəfdən elmi ictimaiyyət qarşısında duran aktual vəzifələr konkretləşdirilir, digər tərəfdən isə, dövlətin ana dilinə göstərdiyi davamlı və sistemli dəstəyin əsas istiqamətləri aydın şəkildə ifadə olunur.

Dövlət başçısı Azərbaycan dilinin zəngin tarixi köklərə malik olduğunu və geniş coğrafiyada milyonlarla insan üçün ana dili funksiyasını yerinə yetirdiyini vurğulamış, eyni zamanda, ədəbi dil normalarının qorunmasının müstəqil dövlətin məsuliyyəti olduğunu bildirmişdir. Onun fikrincə, ana dili hər bir xalqın milli mənsubiyyətini müəyyənləşdirən fundamental amildir və bu sahədə ictimai həmrəylik xüsusi əhəmiyyət daşıyır. Çıxışda xüsusilə vurğulanmışdır ki, Azərbaycan dilinin saflığının qorunması yalnız elmi qurumların deyil, bütövlükdə cəmiyyətin və hər bir vətəndaşın vəzifəsidir. Prezident qeyd etmişdir ki, beynəlxalq leksik fondun mövcudluğu təbii olsa da, Azərbaycan dilində mövcud olan milli leksik vahidlərin əsassız şəkildə xarici sözlərlə əvəzlənməsi qəbuledilməzdir. Bu mövqe dilin tarixi-mədəni identiklik funksiyasının qorunması baxımından prinsipial yanaşmanı ifadə edir.

Dövlət başçısının nitqi dil siyasətinin yalnız normativ-linqvistik məsələ deyil, həm də milli təhlükəsizlik, mədəni suverenlik və ideoloji bütövlük kontekstində qiymətləndirilməli olduğunu göstərən konseptual çərçivə təqdim edir. Müasir mərhələdə alınma sözlərdən yerli-yersiz və nəzarətsiz istifadə məsələsi dil siyasətinin aktual problemlərindən biri kimi qiymətləndirilir. Prezident İlham Əliyev bu kontekstdə Azərbaycan ziyalılarını, şair və yazıçıları, bütövlükdə yaradıcı və intellektual çevrələri ana dilinin qorunması istiqamətində fəal mövqe nümayiş etdirməyə çağırmışdır. Bu çağırış dil məsələsinin yalnız linqvistik deyil, həm də ictimai-mədəni məsuliyyət daşıyan sahə kimi dərk edildiyini göstərir.

Dövlət başçısı çıxışında vurğulamışdır ki, bəzi ölkələrdə yaşayan azərbaycanlılar arasında ədəbi dil normalarının zəifləməsi müşahidə olunur; dil daha çox məişət ünsiyyəti çərçivəsində işlədilir və xarici leksik vahidlərin təsiri güclənir. Bu hal ədəbi dilin funksional imkanlarının daralmasına və normativ sistemin aşınmasına gətirib çıxara bilər. Prezidentin fikrincə, dilin qorunması istiqamətində ardıcıl və sistemli tədbirlər görülmədiyi təqdirdə, uzunmüddətli perspektivdə milli-mədəni identiklik risk altına düşə bilər.

Çıxışda xüsusi olaraq qeyd edilmişdir ki, Azərbaycan xalqı tarix boyu ana dilini qoruyub saxlamış, nəsillərarası dil kontinuitetini təmin etmişdir və bu, mühüm mədəni nailiyyət kimi dəyərləndirilməlidir. Dövlət başçısının mövqeyinə görə, dilin yad təsirlər qarşısında davamlılığının təmin olunması xalqın milli özünüdərk səviyyəsinin göstəricisidir. Prezidentin yanaşmasında xarici leksik vahidlərin əsassız şəkildə və ekvivalent mövcud olduğu halda istifadəsi dilin zənginləşməsi deyil, əksinə, onun daxili strukturunun və semantik bütövlüyünün zəifləməsi kimi qiymətləndirilir. Bu fikir dilin yalnız kommunikativ vasitə deyil, eyni zamanda, milli kimliyin, mədəni yaddaşın və dövlətçilik ənənəsinin daşıyıcısı olması tezisinə əsaslanır. Çıxışda dilin qorunması məsələsi mədəni təhlükəsizlik və milli suverenlik kontekstində təqdim olunur; ana dilinin funksional və normativ bütövlüyünün saxlanılması isə milli varlığın davamlılığının əsas şərtlərindən biri kimi dəyərləndirilir.

Prezident İlham Əliyev Azərbaycan dilinin qorunmasını hər bir vətəndaşın mənəvi və ictimai vəzifəsi kimi dəyərləndirərək cəmiyyəti bu istiqamətdə həmrəy fəaliyyətə çağırır. Bununla yanaşı, dövlət başçısı dil məsələsinə qapalı və təcridolma mövqedən yanaşmır, əksinə, dillərarası inteqrasiyanın və beynəlxalq leksik mübadilənin mədəni inkişafın təbii komponenti olduğunu vurğulayır. Onun fikrincə, beynəlxalq elmi dövriyyədən və ümumbəşəri terminoloji sistemdən gələn anlayışlarla tarixi-siyasi təsirlər nəticəsində formalaşmış təsadüfi və nəzarətsiz alınmalar arasında prinsipial fərq qoyulmalıdır.

Müasir mərhələdə elmi-texniki nailiyyətlər, qlobal informasiya axını, intensiv istehsalat prosesləri və dünya ölkələri ilə əməkdaşlıq beynəlxalq termin və nomenklaturanın milli sərhədləri aşaraq yayılmasını şərtləndirir. Şərq və Qərb ölkələri ilə ictimai-siyasi, iqtisadi, elmi və mədəni əlaqələrin genişlənməsi şəraitində Azərbaycan dili müxtəlif tipoloji sistemlərə malik dillərlə davamlı təmasda olur. Bu təmas nəticəsində leksik mübadilə qaçılmaz xarakter daşıyır və müəyyən mənada dilin funksional imkanlarını genişləndirir.

Lakin alınma prosesinin tənzimlənməsi elmi əsaslara söykənməli və dilin milli səciyyəsini, struktur bütövlüyünü və semantik özünəməxsusluğunu qorumağa yönəlməlidir. Bu baxımdan söz və terminlərin qəbulu tarixilik prinsipi əsasında, xalqın keçdiyi ictimai-mədəni mərhələlər və formalaşmış dil ənənəsi nəzərə alınmaqla həyata keçirilməlidir. Alınma hadisəsinin mahiyyəti yalnız linqvistik deyil, həm də milli mədəniyyət, milli təfəkkür və milli mövcudluq anlayışları ilə sıx bağlıdır. Azərbaycan milli xarakteri və dil kimliyi məhz bu anlayışların qarşılıqlı əlaqəsi fonunda formalaşır və aydın görünür. Linqvistik əlaqələrin forması dillərin qarşılıqlı təsir mexanizmləri, fonetik sistemi və qrammatik quruluşu ilə müəyyənləşirsə, həmin əlaqələrin səbəbləri və intensivliyi mədəni, sosial və elmi-texniki inkişaf amilləri ilə şərtlənir. Buna görə də dil siyasəti balanslı yanaşma tələb edir: bir tərəfdən beynəlxalq elmi inteqrasiyanı təmin etmək, digər tərəfdən isə milli dilin daxili inkişaf potensialını qoruyub saxlamaq.

Cənab Prezident İlham Əliyev dil siyasətinin həyata keçirilməsində məsuliyyətin yalnız alimlərin üzərinə düşmədiyini, eyni zamanda, mədəniyyət xadimlərinin, yazıçı və şairlərin, jurnalistlərin və ictimai-siyasi fəaliyyətlə məşğul olan şəxslərin də bu prosesdə fəal iştirak etməli olduqlarını vurğulamışdır. Dövlət başçısının fikrincə, Azərbaycan dilinin saflığının qorunması ümummilli məsuliyyət daşıyan vəzifədir və bu istiqamətdə həm dövlət institutları, həm də vətəndaş cəmiyyəti subyektləri sistemli şəkildə fəaliyyət göstərməlidirlər. Prezident qeyd etmişdir ki, dilin yad leksik təsirlərdən qorunması məsələsi bir neçə il əvvəl dövlət səviyyəsində gündəmə gətirilmiş və ötən dövr ərzində bu istiqamətdə müvafiq tədbirlər həyata keçirilmişdir. O, bildirmişdir ki, dil siyasəti məsələləri şəxsi nəzarətində olacaq və bu sahədə ardıcıl monitorinq və tənzimləmə tədbirləri davam etdiriləcəkdir. Dövlət başçısının Azərbaycan alimlərinə ünvanladığı çağırış isə elmi ictimaiyyətin normativ dil siyasətinin formalaşdırılmasında və tətbiqində daha fəal mövqe tutmasının vacibliyini göstərir.

Bu çağırışa cavab olaraq AMEA Nəsimi adına Dilçilik İnstitutunda Azərbaycan dilinin saflığının qorunması və elmi əsaslarla inkişaf etdirilməsi məqsədilə bir sıra fundamental layihələrin icrasına başlanılmışdır. İlk dəfə olaraq milli dil korpusunun yaradılması istiqamətində sistemli iş aparılır, eyni zamanda, beynəlxalq terminoloji vahidlərin elmi prinsiplər əsasında tənzimlənməsini təmin etmək məqsədilə "Beynəlmiləl terminlər lüğəti"nin tərtibi həyata keçirilir.

Bu təşəbbüslər dil planlaşdırılması və terminoloji siyasətin təşkilati müstəviyə keçirilməsi baxımından mühüm addım kimi qiymətləndirilə bilər və dövlətin müəyyən etdiyi strateji istiqamətlərlə elmi qurumların fəaliyyətinin uzlaşdırılmasını nümayiş etdirir.

Ləman HƏSƏNOVA,
AMEA Nəsimi adına Dilçilik İnstitutu terminologiya şöbəsinin böyük elmi işçisi, fəlsəfə doktoru

"Yalnız mədəniyyət" – Ulu qüvvət

Heydər Əliyev Sarayında dahi şair, yazıçı, dramaturq Hüseyn Cavidin xatirəsinə həsr olunan "Yalnız mədəniyyət" adlı musiqili tamaşa nümayiş olunub. Leyla Əliyeva məclisdə iştirak edib.

Səhnə əsərinin quruluşçu rejissoru Əbdülqəni Əliyev, ssenari müəllifləri Afaq Vasifqızı, Lalə Əliyevadır. Dahi şair Hüseyn Cavidin obrazına Xalq artisti Eyyub Yaqubov həyat verib. Tamaşada Xalq artisti Mehriban Zəki, tanınmış musiqiçi Vaqif Əsədov, pianoçu-bəstəkar Gülsüm Eldarova, aktyorlar Elşən Əsgərov, Natiq Abdullayev, Oqtay Kazımov, Emil Bağırzadə və digərləri, həmçinin C.Cahangirov adına Xor kollektivi, Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri yer alıb.

Musiqili tamaşada dramaturqun həyat və yaradıcılığını əks etdirən təsirli səhnə fraqmentləri, kövrək sevgi xətti, pyeslərdən parçalar, incə lirika nümunələri səsləndirilib. Xalq artisti Eyyub Yaqubovun ifa etdiyi mahnılar tamaşanın bədii-estetik dəyərini daha da artırıb.

XQ

Leyla Əliyeva Multikulturalizm Mərkəzində və Xoreoqrafiya Akademiyasında

Leyla Əliyeva Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində olub. BBMM-in icraçı direktoru Rəvan Həsənov Leyla Əliyevaya Mərkəz haqqında məlumat verib.

Bildirib ki, Prezident İlham Əliyevin Fərmanı ilə 2014-cü ildə yaradılan Mərkəz Azərbaycanın multikulturalizm modelinin öyrənilməsi, qorunması və beynəlxalq səviyyədə təbliği istiqamətində mühüm layihələr həyata keçirir, beynəlxalq təşkilatlarla əməkdaşlıq edir. Hər il beynəlxalq səviyyəli konfranslar, elmi seminarlar, dəyirmi masalar və forumlar təşkil olunur. Mərkəz "Azərbaycan multikulturalizmi" fənninin yerli və xarici ölkə universitetlərində tədrisi layihəsini həyata keçirir. Bu layihə çərçivəsində dünyanın 27 aparıcı universitetində "Azərbaycan multikulturalizmi" fənni tədris olunub.

Qeyd olunub ki, Mərkəz Azərbaycanın tarixi, mədəniyyəti ilə bağlı kitablar, monoqrafiyalar, elmi məqalələr və metodik vəsaitlərin, tarixi xəritələrin çap olunmasına, BBMM-in təşkilatçılığı ilə keçirilən yerli və beynəlxalq konfransların materiallarının nəşrinə, həmçinin Azərbaycanda yaşayan etnik azlıqların dillərində kitabların hazırlanmasına xüsusi diqqət ayırır.

Sonra Mərkəzin fəaliyyətinə dair film nümayiş etdirilib. Leyla Əliyeva Mərkəzin nəşrləri ilə tanış olub. Leyla Əliyeva Azərbaycanın multikultural dəyərlərinin qorunması və dünyada tanıdılması istiqamətində həyata keçirilən layihələrin əhəmiyyətini vurğulayıb. Xüsusilə islamofobiya, antisemitizm və ksenofobiyaya həsr olunan konfransların keçirilməsini, Azərbaycanın xristianlıq irsinin dünyada tanıdılması istiqamətində görülən işləri yüksək qiymətləndirib. Mərkəzin fəaliyyətində gənclərlə işin təşkil olunmasına verilən önəmin Azərbaycan multikulturalizminin tanıdılması istiqamətində mühüm rol oynadığını bildirib. Eyni zamanda, BBMM-in müxtəlif xalqlar arasında anlaşmanın və mədəniyyətlərarası dialoqun inkişafına mühüm töhfə verdiyini qeyd edib.

Leyla Əliyeva Mərkəzin kollektivi ilə həmsöhbət olub, onlarla şəkil çəkdirib.

Qeyd edək ki, Leyla Əliyeva Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının üzvüdür.

***

Leyla Əliyeva Bakı Xoreoqrafiya Akademiyasının qonağı olub. Görüşdə mədəniyyət naziri Adil Kərimli də iştirak edib.

Leyla Əliyeva Bakı Xoreoqrafiya Akademiyasının rəhbərliyi, şagird və tələbələri, pedaqoji heyəti ilə görüşüb, akademiyanın fəaliyyəti, eləcə də dərs otaqları və məşq zalları ilə tanış olub.

Daha sonra Bakı Xoreoqrafiya Akademiyasının tələbələri qonaqlar üçün "Vals" ("Yatmış gözəl" baletindən) və "Qazağı" rəqsini ifa ediblər.

XQ

Şəhid anaları iftar mərasimində

Martın 6-da Heydər Əliyev Fondunun dəstəyi ilə "Mənim oğlum qəhrəmandır!" layihəsi çərçivəsində müqəddəs Ramazan ayı və 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə tədbir təşkil olunub.

Müqəddəs Ramazan ayına təsadüf edən tədbir çərçivəsində iftar süfrəsi açılıb.

Tədbirdə Azərbaycanın müxtəlif bölgələrindən olan qəhrəman şəhidlərimizin anaları, ailə üzvləri iştirak ediblər. Leyla Əliyeva da şəhid ailələri ilə birlikdə iftar süfrəsində iştirak edib, onlarla həmsöhbət olub.

Tədbir torpaqlarımızın bütövlüyü uğrunda döyüşmüş qəhrəman şəhidlərimizin xatirəsinə ehtiramın, onların ailələrinə dövlət və cəmiyyət qayğısının ifadəsi olaraq keçirilib.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun şücaətindən, ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan Vətən oğullarının qəhrəmanlığından danışılıb, ümummilli lider Heydər Əliyevin və şəhidlərimizin ruhuna dualar oxunub, Uca Yaradandan dünyada sülhün, ölkəmizdə əmin-amanlığın bərqərar olması dilənib.

Şəhid ailələrinin adından çıxış edən Azərbaycanın Milli Qəhrəmanı, şəhid general-mayor Polad Həşimovun anası Səmayə Həşimova şəhid ailələrinin daim diqqət mərkəzində saxlanıldığını bildirib, qayğı və ehtirama görə minnətdarlığını ifadə edib.

Daha sonra Azərbaycanın tanınmış incəsənət xadimləri çıxış ediblər.

Qeyd edək ki, Vətən uğrunda şəhid olan qəhrəman oğullarımızın yad edildiyi, onların bizə əmanət qoyduqları ailələrin iştirak etdiyi "Mənim atam qəhrəmandır" və "Mənim oğlum qəhrəmandır" layihələri çərçivəsində silsilə tədbirlər təşkil olunur. Bu cür tədbirlər şəhid ailələrini bir araya gətirərək dövlətin və Azərbaycan xalqının daim onların yanında olduğunu bir daha hiss etdirir. Bu tədbirlər şəhid ailələrinə diqqət və qayğının, onların qəhrəman övladlarının xatirəsinə ehtiramın ifadəsi olmaqla yanaşı, bu istiqamətdə dövlət tərəfindən görülən işlərə dəstək məqsədi daşıyır.

10 Mart Qızıl Aypara Günüdür

Dar günün harayçıları

İnsanlıq şəfqət və mərhəmətlə ucalır

Dünyada sülh, mərhəmət, yardımlaşma sahəsində fəaliyyət göstərən çox sayda humanitar təşkilatların arasında Beynəlxalq Qızıl Aypara Hərəkatı xüsusilə fərqlənir. Hərəkatın əsas missiyası müharibə və münaqişələrə cəlb olunan hərbçi və mülki şəxslərə etnik, dil, irqi və dini ayrı-ayrı seçkiliyə yol vermədən zəruri yardımlar göstərməkdir.

Azərbaycan bu beynəlxalq hərəkata hələ 1920-ci ildə qoşulub. Həmin ilin martın 10-da Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) müdafiə naziri əvəzi, general-leytenant Əliağa Şıxlinskinin təşəbbüsü və Fətəli Xan Xoyskinin rəhbərlik etdiyi hökumətin qərarı ilə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyəti üçün lazımi maliyyə vəsaiti ayrılıb. Təəssüf ki, 1920-ci ilin aprelində bölşevik Rusiyasının ölkəmizə hərbi təcavüzündən sonra Azərbaycan Qızıl Aypara Cəmiyyətinin müstəqil fəaliyyəti xeyli dərəcədə məhdudlaşdırılıb.

1991-ci ildə Sovetlər Birliyinin dağılması ilə yenidən müstəqilliyinə qovuşan Azərbaycan Respublikasında Qızıl Aypara Cəmiyyətinin fəaliyyətində mühüm mərhələ başlayıb. Fəxrlə qeyd etmək olar ki, hazırda bu nüfuzlu qurum beynəlxalq hüquq normaları çərçivəsində humanist ideallar naminə əhəmiyyətli işlər görür. Bunun nəticəsidir ki, Azərbaycan Qızıl Aypara Cəmiyyəti üzvü olduğu hərəkatın bu gün ən aparıcı və mobil strukturlarından birinə çevrilib.

Məlumdur ki, 1990-cı illərin əvvəllərində ermənilər Azərbaycanın əzəli və əbədi torpaqları olan Qarabağda separatçılıq hərəkanına başlayıblar. Ermənistan Silahlı Qüvvələri Kremlin açıq və gizli dəstəyi ilə ərazilərimizin 20 faizi işğal edərək dinc əhaliyə qarşı ağır cinayətlər törədiblər. Birinci Qarabağ müharibəsində minlərlə soydaşımız həlak olub, dinc, əliyalın vətəndaşlarımız əsir alınıblar, ağır işgəncələrə məruz qalıblar. 1993-1995-ci illər ərzində Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Xaç Komitəsi vasitəsilə 600-dək vətəndaşımızın erməni əsirliyindən azad edilməsinə nail olub.

Qeyd etmək lazımdır ki, 1993-cü ilin yayında dahi siyasətçi Heydər Əliyevin ölkəmizdə siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyəti daha da genişlənib. Son illər ərzində isə möhtərəm Prezident İlham Əliyev göstərişi ilə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin səmərəli fəaliyyətinin gücləndiriləsi istiqamətində bir sıra mühüm tədbirlər görülüb. Dövlət başçısı 2004-cü il yanvarın 31-də "Azərbaycan Qızıl Aypara Cəmiyyətinə dövlət qayğısının artırılması haqqında" Sərəncam imzalayıb. 2007-ci ildə isə Azərbaycan Respublikasının Milli Məclisində "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" Qanun qəbul edilib. Prezident İlham Əliyev 2008-ci il martın 10-nun ölkəmizdə "Qızıl Aypara Günü" kimi qeyd edilməsi haqqında Sərəncam imzalayıb. Cəmiyyətin üzvləri bu böyük diqqət və qayğıya görə hörmətli dövlət başçısına minnətdardırlar.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin sıralarında indi 350 mindən çox üzvü var. Onlardan 20 minə yaxını könüllülərdir. Təşkilatın ölkəmizdə 92 rayon, şəhər, sahə bölməsi, 8 regional mərkəzi fəaliyyət göstərir. Cəmiyyətin rəhbərliyi qurumun nəzdində fəaliyyət göstərən bütün strukturların səmərəli

çalışması üçün gərgin səylər göstərir və ədalət naminə demək lazımdır ki, bu vəzifənin öhdəsindən uğurla gəlinir. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 12 nəfər şəfqət işçisi Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının ən ali mükafatı sayılan "Florence Nightingale" medalı ilə təltif olunub.

Konkret misallar çəkmək olar. Məsələn, pandemiya dövründə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin könüllüləri və əməkdaşları, demək olar ki, bütün şəhər və bölgələrindəki xəstə və ahıl insanların ünvanlarına humanitar yardımlar çatdırıblar. Eyni zamanda, əhali arasında geniş maarifləndirmə işləri görülüb, məlumatverici buklet və broşürlər paylanılıb. 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Qızıl Aypara Cəmiyyətinin kollektivi cəbhəyanı ərazilərdə istər mülki əhalinin təxliyyə olunmasında, istərsə də yaralıların xəstəxanalara çatdırılmasında köməyini əsirgəməyib.

Təəssüflə qeyd edək ki, İkinci Qarabağ müharibəsi zamanı itkilərsiz də ötüşmək mümkün olmayıb. Belə ki, Bərdə rayonunda öz vəzifəsini icra edən qurumun fəal könüllüsü Məhərrəm Mustafayev Ermənistan Silahlı Qüvvələrinin mülki əhalini hədəfə alan raket zərbələri nəticəsində həyatını itirib, Fatma Bəbişova və Ülviyyə Hacıyeva isə yaralanıblar.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruz Aslanov mediaya açqlamalarında dəfələrlə vurğulayıb ki, bu gün qurumun əsas hədəfi ölkəmizdəki həssas kateqoriyadan olan insanların vaxtında müəyyən edilərək onların zəruri humanitar yardımlarla təmin edilməsini gücləndirməkdir. Cəmiyyətin rəhbərliyi bu məqsədlə tərəfdaş beynəlxalq və yerli donor təşkilatlarla sıx, işgüzar əlaqələrini daha da genişləndirir.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti öz qayğı və mərhəmət missiyasına sadiqdir və bu gün də bu şərəfli missiyasını uğurla icra etməkdə davam edir. Əminik ki, qarşıdakı illərdə bu xeyirxah işlərin miqyası daha da genişlənəcək. Sonda demək istədiyimiz arzumuz budur: Əziz və hörmətli Qızıl ayparaçılar, peşə bayramınız mübarək!

M.HACIXANLI
XQ

Rəngkarlığımızda qadın ucalığı

Azərbaycan rəssamlıq sənətində qadın obrazı zəngin mənəvi, estetik və ideya yükü daşıyan əsas mövzulardan olmuşdur. Müxtəlif tarixi mərhələlərdə rəssamlarımızın əsərlərində Azərbaycan qadını ana, həyat yoldaşı, əməkçi, ziyalı və ictimai fəal kimi təqdim olunmuşdur. Xüsusilə XX əsrdən etibarən milli rəssamlıq sənətimizdə qadın obrazının bədii həllində yeni ideya və estetik yanaşmalar müşahidə edilmişdir. Bu dövrdə rəssamlar qadını təkcə məişət mühitində deyil, həm də sosial və mədəni proseslərin fəal iştirakçısı kimi təsvir etmiş, onun ictimai mövqeyini ön plana çıxarmışlar.

Mikayıl Abdullayevin portret yaradıcılığı Azərbaycan qadınının həm estetik, həm də mənəvi simasını əks etdirən zəngin sənət salnaməsidir. Rəssam fərqli peşə və həyat tərzinə malik qadın obrazlarını böyük sənətkarlıqla təsvir etmişdir.

Mikayıl Abdullayevin qadın qəhrəmanları arasında yer alan ana fiquru həm sevgi və qayğının, həm də milli ailə dəyərlərimizin simvolu kimi təqdim olunmuşdur. Rəssamın anasına həsr etdiyi portretlərdə ana obrazı sadə, təmkinli və eyni zamanda, dərin mənəvi aləmi ilə təsvir olunmuşdur. Rəssam "Sevinc" tablosunda qızmar günəş şüaları altında bərq vuran, allı-güllü cənub təbiəti qoynunda çəmənlikdə doğma balası ilə təsvir edilən ana obrazını canlandırmışdır. "Uşaq dalınca" əsərində də gündəlik həyatın sadə, lakin mənəvi baxımdan dərin məna daşıyan bir anı təsvir olunmuşdur. Balaca uşağını bağçadan götürmək üçün gələn və pəncərənin şüşəsini barmaqları ilə yüngülcə taqqıldadan ananın simasında təsirli bir səhnəni seyr etmiş oluruq.

Mikayıl Abdullayevin əməkçi qadınları təsvir etdiyi bütün əsərlərinin kompozisiyasında kollektiv qadın əməyinin ritmi və bu qadınların həmin atmosferə qatdığı canlılıq öz əksini tapmışdır. Rəssamın "41-ci ilin iyunu" triptixində də qadın obrazları kompozisiyanın əsas ideya yükünü daşıyır. Rəssam burada müharibə illərinin çətin şəraitində əmək cəbhəsində çalışan qadınların gücünü, dözümünü və mənəvi möhkəmliyini həssas sənətkarlıqla ifadə etmişdir. Kompozisiyanın mərkəzində dayanan qadın fiquru öz qaməti və duruşu ilə diqqəti cəlb edir. Onun belinə qoyduğu əli bədəninin möhkəm plastikasını vurğulayır və obrazda qətiyyət, iradə və əmək əzmini ön plana çıxarır. Bu fiqur müharibə dövründə cəbhə arxasında çalışan Azərbaycan qadınlarının ümumiləşdirilmiş simvolu kimi təsvir olunub.

Mikayıl Abdullayevin "Çəltikçi qızlar", "Pambıq", "Azərbaycanın çay mütəxəssisləri", "Qış qayğıları" kimi bir çox əsəri onun əmək mövzusuna həsr etdiyi xarakterik əsərlərdən hesab olunur. Bu əsərlərdə çəltik dəstələrini daşıyan, əmək alətləri ilə işləyən qadınların gündəlik zəhməti, əməksevərliyi poetik və ümumiləşdirilmiş dildə təqdim edilmişdir. Rəssam "Tarla qəhrəmanı Şamama Həsənova" tablosunda "Sosialist Əməyi Qəhrəmanı" adına layiq görülmüş Azərbaycan qadınının peşəsini vurğulamaqla bərabər, həm də onun daxili dünyasını, hiss və duyğularını ifadə etmişdir. Rəssam "Manqa başçısı Rəxşəndənin portreti" əsərində də qadın qəhrəmanını qətiyyətli, zəhmətsevər, ən əsası isə, nüfuzlu obraz kimi təqdim etmişdir.

Nağılvari, emosional üslubu ilə seçilən Toğrul Nərimanbəyovun qrafik janrda yaratdığı "Xanəndə Yavər Kələntərli" portreti həm milli musiqi ənənəsini, həm də qadın zərifliyini özündə birləşdirən təsviri sənət nümunəsi kimi yadda qalır.

Tahir Salahovun sərt üslubu ilə yaratdığı əsərlərinin təməlində işıq, xətt, eləcə də ritmin dayandığını görürük. Bu üslub xüsusiyyətləri onun "Abşeron qadınları" əsərində də aydın şəkildə duyulur. Rəssamın ağ at üzərində, ağ libasda təsvir etdiyi "Aydanın portreti" əsərində atanın qızına olan sonsuz sevgisini hiss ediriksə, onun illər sonra yaratdığı "Şərq ulduzu Aydan" portretində atasının sənətini davam etdirən rəssam qadın obrazını görürük.

Nadir Əbdürrəhmanov həyatı boyu dəfələrlə qeyd edirdi ki, yalnız öz vətənində, Qarabağ dağlarında rahat və xoşbəxt çalışıb. "Dağ kəndlərində bulaqların yanında toplaşan qadın və qızlara daim rast gəlmək mümkündür. Bu rayonun qızları gözəl paltarları xoşlayır və hər gün bu cür geyinirlər". Beləliklə, rəssam ecazkar fırçası ilə "Dağlarda bahar", "Dağlarda alaqaranlıq", "Dağlı qadın", "Səhər" və s. kimi əsərlərini yaradır və qadın gözəlliyini yüksək sənətkarlıqla vəsf edir. O, "Dağlarda bahar" və "Səhər" əsərlərində baharın təravətini, torpağın oyanışını parlaq rəng çalarları ilə təqdim edərək qadın gözəlliyini bu mənzərə daxilində təqdim edib. "Dağlarda alaqaranlıq" əsərində isə rəssam öz qəhrəmanlarını sadəcə axşam istirahəti zamanı göstərir. Burada təbiət sadəcə fon deyil, personajların doğma evi, yaşayış mühitidir.

Nadir Əbdürrəhmanov "Sevinc" əsərində qadın obrazını həm gözəllik simvolu, həm də həyatverici, qoruyucu və şəfqətli ana kimi təsvir edib. Rəssamın Azərbaycan Milli İncəsənət Muzeyini bəzəyən "Sevimli naxışlar" əsərindəki ağgeyimli üç qadın obrazı isə milli xalça toxuma ənənəmizin zərif bədii ifadəsi kimi göz oxşayır.

Böyükağa Mirzəzadənin "Bizim kəndin adamları", "Günorta", "Bizim Lənkəranda", "Pambıq yığımı", "Çay yığan qızlar" və s. kimi əsərlərində kompozisiyanın əsasını əməkçi qadın obrazlarının təsviri təşkil edir. Bilavasitə naturadan işlənmiş əsərlərin hər birində yüksək dinamika və ekspressiya duyulur. Rəssamın Azərbaycanın mədəniyyət və incəsənətinin tanınmış simalarının portretləri arasında rəssam Maral Rəhmanzadə, xanəndə Sara Qədimova, opera ifaçısı Sona Aslanovanın təsvirlərinə də rast gəlirik. Tağı Tağıyevin məğlubedilməz, qətiyyətli qəhrəmanları təsvir etdiyi əsərlərindən biri "Koroğlu" monumental triptixidir. Xalq eposunun mühüm məqamlarını əks etdirən əsərdə Nigar obrazı özünəməxsus Şərq gözəlliyi ilə seçilir. Maral Rəhmanzadənin ayaqüstə çəkilən gözəl və qamətli portreti isə rəssam tərəfindən böyük zövqlə işlənmişdir. Azərbaycan realist rəssamlıq sənətinin ən uğurlu nümunələrindən olan əsər iki böyük rəssamın sənət bağını əks etdirir. Rəssamın dik duruşu onun sənət dünyasındakı sarsılmaz mövqeyini göstərir.

Milli rəssamlıq sənətimizdə Azərbaycan qadını məsələsinə toxunarkən, bu mövzunun konseptual baxımdan zənginləşməsində rolu olan Maral Rəhmanzadə, Vəcihə Səmədova, Xalidə Səfərova, Elmira Şahtaxtinskaya kimi qadın fırça ustalarının da fəaliyyəti xüsusi qeyd edilməlidir.

Hələ tələbəlik illərində "Azərbaycan qadını keçmişdə və bu gün" adlı, on bir rəsmdən ibarət diplom işi üzərində işləyən Maral Rəhmanzadə "İstirahət vaxtı", "Pambıqçı qızlar", "Sağıcı qadın. Xınalıq" və s. kimi əsərlərində qadınları məğrur, ruhən yenilməz əks etdirmişdir. Yaradıcılığının bütün dövrlərində qadın mövzusuna yüksək sənətkarlıqla yanaşan rəssam, eyni zamanda, öz avtoportretlərini də yaratmağa maraq göstərmişdir. Həmin avtoportretlərdən birində rəssam öz surətini kağız üzərində avtolitoqrafiya üsulu ilə ayaq üstə, şlyapada təsvir etmişdir.

Vəcihə Səmədovanın yaradıcılığında əsaslı mərhələ kimi xarakterizə olunan "Aktrisa Leyla Bədirbəylinin portreti" əsəri ifadəli kompozisiyası və rəng quruluşuna görə rəssamın digər portret əsərləri arasında fərqlənir. Müasir Azərbaycan incəsənətinin qızıl fonduna daxil olan bu portret milli təsviri sənətimizin ən uğurlu nümunələrindəndir.

XX əsrdə Tahir Salahovun məğrur, Mikayıl Abdullayevin xalq ruhlu qadınları ilə başlayan sənət yolu bu gün daha müasir, fəlsəfi bir müstəviyə keçmişdir. Belə ki, artıq Azərbaycan rəssamlığında qadın mövzusu zamanın nəbzini tutan, daim yenilənən və yaşayan bir ənənə olmuşdur. Bu gün rəssamlıq sənətimizdə qadın obrazının təkamülü sadəcə vizual dəyişiklik deyil, həm də ictimai şüurun inkişaf xətti olmuş, çağdaş rəssamlara miras qalan milli qadın idealı yeni bir mərhələyə qədəm qoymuşdur. Müasir rəssamlıq sənətimizdə Azərbaycan qadını həm milli ornamentlərin, kəlağayının və milli geyimin poetikasını qoruyub saxlayır, həm də qlobal dünyanın aktiv və dinamik siması kimi çıxış edir. Bu varislik zənciri sübut edir ki, Azərbaycan qadını hər bir tarixi kəsikdə öz bədii təcəssümünü tapmağa qadirdir.

Şəmsiyyə ZALOVA,
AMEA Naxçıvan Bölməsinin əməkdaşı, Rəssamlar İttifaqının üzvü

Yusif Hüseynov – 70

Peşəkar jurnalistikamızın yetirməsi

1973-cü ilin sentyabrında ovaxtkı Azərbaycan Dövlət Universitetində (indiki BDU) qəbul imtahanları geridə qalmışdı. Jurnalistika fakültəsinin əyani şöbəsinə daxil olan 50 tələbənin siyahısında mən 13-cü idim. Qalan 49 tələbənin heç birini tanımırdım. Dərslər yenicə başlamışdı. Ayrı-ayrı bölgələrdən gəlmişdik, ilk tanışlıq və dostluq münasibətləri yaranırdı. Bir neçə gündən sonra hiss etdim ki, qrup yoldaşlarımın arasında Yusifə daha çox bağlanıram. Üstündən 53 il keçsə də, bu seçimimə görə peşman olmamışam.

Universitetin jurnalistika fakültəsi tələbələrin sayına görə kifayət qədər yığcam fakültə sayılırdı. Kurs fərqi hiss olunmur, hamı bir-birini yaxından tanıyır, az qala, bir ailənin üzvləri kimi dolanırdı. Həm də peşəmizin xarakterindən gələn bu doğmalıq tələbəçilik dönəmindən sonrakı illərdə də fakültənin məzunları arasında həmkar münasibətləri, bir çox hallarda dostluq əlaqələri kimi davam edərdi. Rəhmətlik tələbə yoldaşımız Qəzənfər Qəribovun sözləridir: "Jurnalistika fakültəsinin tələbələri, sanki, bir-birinə qohumdurlar".

Yusif Hüseynovla bir-birimizə o qədər isinişdik ki, qısa müddətdən sonra nəinki doğmalarımızı, uzaq qohumlarımızı belə qiyabi tanıyır, onları əzizlərimiz kimi qəbul edirdik. Yusifin atası – Böyük Vətən müharibəsi əlili Həsən əmi, anası Zemfira xala, böyük bacısı Yaqut müəllim məni Yusifdən ayırmırdılar. Tam əminəm ki, Yusif də mənim doğmalarıma eyni sayğı ilə yanaşırdı. Kəndə, evimizə yolum düşəndə atamın ilk suallarından biri bu olardı: Yusif necədir?

BDU-nun jurnalistika fakültəsində tələbə və müəllimlər arasında, həqiqətən, çox doğma, səmimi mühit var idi. Digər fakültələrdə tələbələri incitməklə kimlərdənsə "hayıf çıxan" bəzi "əzazil" müəllimlər professor Şirməmməd Hüseynovun dekanı olduğu jurnalistika fakültəsində "at oynada" bilmirdilər. Çünki əziz müəllimimiz haqsız yerə incidilən tələbənin arxasında dayanırdı. Pis oxuyan, məsuliyyətsizlik edənlər isə universiteti vaxtından əvvəl "tərk etməli" olurdular.

Yusif orta məktəbi "əla" qiymətlərlə bitirmişdi. Əgər istəsəydi, o illərdə çoxları üçün əlçatmaz görünən hüquq fakültəsinə də daxil ola bilərdi. Amma bir qədər əvvəl söylədiyim kimi, qəlbimizdə jurnalist peşəsinin qeyri-adi gücünə inamımız o qədər böyük idi ki, ondan niyə hüquq fakültəsinə sənəd verməməsinin səbəbini soruşmağa lüzum görmürdüm. İndi fikirləşirəm ki, nə yaxşı Yusif hüquq fakültəsini bitirib müstəntiq, prokuror və ya hakim olmaq istəməyib. Axı o qədər həlim ürəyə, yumşaq xarakterə malikdir ki, onun, hətta qanunu pozmuş kimisə cəzalandıra biləcəyini heç cür ağlıma sığışdıra bilmirəm.

Yusiflə 3 il bir kursda oxuduqdan sonra, təhsilimi davam etdirmək üçün M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) jurnalistika fakültəsinə göndərildim. Orada təhsil aldığım 3 ildə Yusif ikimizin də dostu Etibar Mürsəliyev (42 yaşında dünyasını dəyişib) adlı qrup yoldaşımızla Moskvaya gələrək mənə baş çəkdi. Yusifin təşəbbüsü ilə üçümüz bir yerdə əvvəlcə məşhur Tretyakov adına Rəsm Qalereyasını ziyarət etdik, sonra "Köhnə Arbat"da yerləşən Moskva Operetta Teatrında dahi bəstəkarımız Qara Qarayevin "Çılğın qaskoniyalı" müziklinin premyerasına getdik.

...1979-cu ildə MDU-nu bitirib Bakıya qayıdanda Yusif respublikanın aparıcı qəzetlərindən birində çalışırdı. Qısa müddət keçəndən sonra Politologiya İnstitunu (əvvəllər partiya məktəbi adlanırdı) fərqlənmə diplomu ilə bitirdi, Azərbaycan KP MK-nın nəzdində fəaliyyət göstərən Partiya Tarixi İnstitutunda çalışdı. Burada onun əsas vəzifəsi şəhər və rayon partiya komitələrinin büro və plenum iclaslarının sənədlərinin düzgün tərtib edilərək qrafikə uyğun institutun arxivinə təhvil verilməsinə nəzarət etmək idi. Bu işə məsul olan şəxslərə məsləhətlərini verən Yusif onlara hər cür köməklik göstərir, qayğısını əsirgəmirdi.

Onun tapşırılan məsul vəzifənin öhdəsindən uğurla gəlməsi bir müddət keçəndən sonra ölkənin ali icra hakimiyyəti orqanına – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına işə dəvət olunmasına səbəb oldu. Dostumun karyera yüksəlişində əasas rol oynayan amil onun intizamlı və məsuliyyətli insan olması idi. O, eyni zamanda, çox mehriban və təşəbbüskar şəxsdir. Çox səbirlidir, hamı ilə dil tapmağı bacarır. Amma milli dövlətçilik maraqları olan yerdə qətiyyətli və prinsipial mövqeyindən geri çəkilməyib.

Yusif Hüseynov artıq illər keçəndən sonra o çətin, gərgin dövrü belə xatırlayır: "1980-ci illərin sonu idi. O dönəmdə respublikanın ictimai-siyasi həyatında təzadlı proseslər baş verirdi. Bir tərəfdən erməni separatçıları Kremlin gizli dəstəyilə Qarabağda aranı qarışdırır, o biri tərəfdən idarəçilik strukturlarında yaranan boşluqlar cəmiyyətdə gərginliyin artmasına gətirib çıxarmışdı. Nə yaxşı ki, ulu öndər Heydər Əliyev xalqın israrlı tələbi ilə 1993-cü ilin yayında ölkədə siyasi hakimiyyətin sükanı arxasına keçdi. Bu dahi siyasətçi olmasaydı, Azərbaycan onu gözləyən dəhşətli uçurumdan xilas ola bilməyəcəkdi".

Vaxt keçdi, vədə yetişdi və özünə məslək seçdiyi peşəkar jurnalistikada yenidən öz sözünü deməsi üçün həyat Yusif Hüseynova fürsət yaratdı. 2005-ci ilin avqustunda Azərbaycanda ilk ictimai yayım institutu – İctimai Teleradio Şirkəti fəaliyyətə başlayanda o, müsabiqə yolu ilə işə qəbul olundu və uzun illər burada həvəslə çalışdı.

İctimai Televiziyada onunla bir departamentdə işləyən, hazırda "Xalq qəzeti"nin ictimai-siyasi şöbəsinin müdiri, tanınmış jurnalist İmran Bədirxanlı deyir ki, Yusif Hüseynov rus dilini yüksək səviyyədə bildiyi üçün onun ana dilimizə çevirdiyi çox sayda əcnəbi filmlərin tərcümə keyfiyyətinə söz ola bilməzdi. O, bilik və təcrübəsini telekanalın gənc əməkdaşları ilə bölüşməyi özünə mənəvi borc bilirdi. Elə buna görə kollektivdə hamı onun xətrini çox istəyirdi.

Martın 10-da unudulmaz tələbəlik illərimin dostu, istedadlı jurnalist, naşir və tərcüməçi Yusif Hüseynovun 70 yaşı tamam olur. İndi o, təqaüddədir. Düşünürəm ki, dostları, yaxın və doğmaları yubilyarın jurnalist peşəsinə, xalqına, dövlətçiliyimizə sədaqətlə xidmətdə keçən mənalı ömür yolu ilə fəxr etməyə haqları var. Əlbəttə, ən çox Yusif Hüseynovun buna haqqı çatır!

Məsaim ABDULLAYEV
XQ

Təqvim yada salır

Teatr həyat dərsləri məktəbidir

Həqiqətlər səhnədə əks-səda verib cəmiyyətə qayıdır

Teatr həyatın, hisslərin və düşüncələrin səhnədə əks olunduğu, sözün və hərəkətin mükəmməl ahənglə birləşdiyi sənət aləmi, mənzərəsi insan ruhunun dərinliklərinə baxan pəncərədir. O, zamanın və məkanın qeyri-müəyyən sərhədlərini aşaraq insanın daxili dünyasının ən gizli sirlərinə toxunur. Bütün bu müstəsna ahəng tamaşanın bədii ifadəsindən, aktyorun canlandırdığı roldan, səhnə dizaynının incəliklərindən və musiqinin üzərində qurulan təəssüratlardan yaranır.

Martın 10-u Azərbaycan teatrının yaranmasının 153-cü il ildönümüdür. Ötən bu illər ərzində teatrımız müxtəlif dövrlərdən keçib – maarifçilik missiyasını yerinə yetirib, müstəqillik ruhunu tərənnüm edib, bəzən senzuranın məhdudiyyətləri ilə üzləşsə də, həmişə lazımi mesajları xalqa ötürməyi bacarıb. Məhz bu amal uğrunda fədakarlıq edən, sənəti hər şeydən uca tutan şəxsiyyətlər teatrımızın təməlini qoymuşlar.

Məsələn, teatr tariximizin parlaq siması Hüseyn Ərəblinskinin həyatı bu fədakarlığın ən bariz nümunəsidir. Bir neçə gün öncə onun 145 illiyi tamam olurdu. Ərəblinskinin dövründə qadınların teatrda çıxış etməsi qeyri-mümkün olduğundan qadın rollarını kişilər oynayırdılar. Səhnəni hər şeydən üstün tutan, həyatının mənasını bunda görən Hüseyn Ərəblinski deyirdi: "Səhnə müqəddəsdir, ona layiq olmaq üçün aktyor ciddi əxlaq sahibi olmalıdır. Heç bir hərəkəti və sözü ikrah doğurmamalıdır".

Səhnələr müxtəlif olsa da, hər birinin mahiyyəti eynidir–insanı anlamaq və anlatmaq. Bu ecazkar aləmi öz varlığı və zəhməti ilə yaşadan sənətkarlardan biri **Əməkdar artist, Gənc Tamaşaçılar Teatrının yaradıcılıq şöbəsinin müdiri, rejissor Nicat Kazımov** bildirdi ki, teatr sənəti ruhumuzu titrədən, gözlərimizdəki işığı dərinləşdirən, bizə hər anın dəyərini xatırladan əvəzsiz nemətdir:

– Nicat müəllim, teatrın məqsədi insanları cəmiyyətdəki əxlaqi və sosial məsələləri gün üzünə çıxarmaqdır. Bu baxımdan teatr tamaşalarının müasir dövrlə ayaqlaşması prosesini necə dəyərləndirirsiniz?

– Tamaşaçı teatra, ilk növbədə, əylənmək üçün gəlməlidir. İstər faciə, istər komediya olsun, üslub və janrdan asılı olmayaraq, tamaşa maraq doğurmalıdır. Teatr yalnız istirahət üçün deyil, həm də tamaşaçının yeni hisslərlə, düşüncələrlə ayrıldığı bir məkandır. Bu əyləncənin içində mütləq bir mesaj olmalıdır ki, tamaşa bitdikdə izləyici özü üçün yeni bir fikir, yeni bir baxış bucağı qazansın. Rejissor hər tamaşaya konkret bir məqsədlə yanaşmalıdır: Mən bu tamaşa ilə nəyi dəyişəcəyəm? Cəmiyyətin hansı probleminə toxunacağam?

Mesajım nə olacaq? Cəmiyyətin bir üzvü kimi sənətkar da mövcud problemlərlə yaşayır, onlara biganə qala bilmir və zamanla onlara uyğunlaşır. Amma teatr sadəcə problemləri göstərməklə kifayətlənməməlidir – o, zamanı qabaqlamalı, gələcəyi görməli və cəmiyyəti düşündürməlidir. Əgər bunu bacarmırsa, tamaşaçı üçün maraqsız hala gəlir. Unutmayaq ki, teatr həyatın özünü deyil, onun bədii əksini səhnəyə daşıyır. Məhz buna görə də səhnədə göstərilən hər bir problem sənətin dili ilə, bədii üslubda təqdim olunmalıdır. Yalnız bu halda teatr öz missiyasını dorğu şəkildə yerinə yetirə bilər.

– Rejissor kimi "teatr həyatın güzgüsüdür" ifadəsini necə şərh edərdiniz?

– Tamamilə razıyam. Teatr həyatın əksi, onun güzgüsüdür. Lakin güzgü reallığı olduğu kimi deyil, bir qədər böyüdərək, vurğulayaraq göstərir. Məhz bu səbəbdən Xalq artisti Firəngiz Şərifova həmişə deyirdi: "Kim deyirsə ki, teatrda pafos lazım deyil, bilin ki, o yalan danışır". Teatr səhnəsi tamaşaçıdan bir metr hündürdədir. Elə sözügedən faktın özü də teartda pafosun var olduğunun bariz nümunəsidir.

Bu sənətdə bədiilik mütləqdir. Əgər bu yoxdursa, o zaman teatr güzgü funksiyasını itirər. Şəxsən mən məişət tamaşalarını sevmirəm. Çünki insanlar gündəlik həyatda kifayət qədər məişət problemləri ilə üzləşirlər. İnsanlar teatra fərqli bir aləmlə qarşılaşmaq, başqa bir reallığın içində olmaq üçün gəlir. Biz də bu sehrli dünyanın qapılarını onların üzünə açmalı, tamaşaçılara başqa bir aləmin mövcudluğunu sübut etməliyik.

– Aktyorların və rejissorların işində böyük yaradıcılıq tələb olunur. Bu yolda qarşılaşdığınız çətinlikləri dəf etməyə sizi vadar edən hisslər haqqında eşitmək istərdik.

– Mənə elə gəlir ki, yaradıcılıqla bağlı olan hər bir işdə, xüsusilə, rejissor işində vəhy olmadan fəaliyyət göstərmək mümkün deyil. Tələbələrimə və həmkarlarıma hər zaman misal çəkirəm: cəmi 7 not var, alterasiya işarələri ilə birlikdə isə 12 not. Bəs bu 12 notdan necə Fikrət Əmirovun, Çaykovskinin və ya digər dahi sənətkarların əsərləri yarana bilərdi? Axı cəmi 12 not var. Niyə hər musiqiçi bu cür əsərlər yarada bilmir? Belə çıxır ki, burada Allah tərəfindən bir vəhy mövcuddur. Tərəddüd etmədən deyə bilərəm ki, mən bu sahədə təhsil almaqdan heç vaxt yorulmamışam. Elə indi də Moskvada təhsil alıram və artıq bitirmək üzrəyəm.

Dərslərimizin birində yeni teatr sistemi ilə bağlı işıq üzü görən kitabla rastlaşdım. Kitabda aktyorun roluna psixologiya ilə yanaşma məsələsindən bəhs edilirdi. Bu haqda Moskvada hələ indi kitab çap olunur. Amma 2007-ci ildə mən Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" pyesini hazırlayanda tamaşanı məhz Freydin fəlsəfəsi ilə həll etmişdim. İndi isə 2025-ci ildə Moskvada bir rejissor bunu artıq sistem halına gətirir və psixologiya ilə obraza yanaşma metodunu təqdim edir.

Düşünürəm ki, yaradıcı insanın içində bir intuisiya yaranır, ona qəribə hiss gəlir və o hiss sirli qapıların açarıdır. Mənim üçün bu, bir növ, vəhy kimi qəbul olunur. Həmin hisslər, o görmə qabiliyyəti Allah tərəfindən verilir və elə bir an gəlir ki, sənin gördüklərini

başqaları görmür, ya da başqaları onu sənin gördüyün kimi görmürlər. Rejissorluq da məhz budur – fərqli görmə bucağıdır. Ya bu bucaq var, ya da yoxdur. Məncə, onu hardansa öyrənmək mümkün deyil.

Bir əsəri oxuyanda, əgər o mənim marağımı cəlb edirsə, artıq beynimdə ona uyğun səhnə qurmağa başlayıram. Çünki artıq yeni informasiyalar vasitəsilə məndə növbəti intuisiya yaranır. Bu gün Azərbaycan teatrının bütün ictimaiyyətini, həmkarlarımı, həyatını teatra həsr edən insanları və pərdə arxasında qalan, amma teatrı yaşadan hər bir şəxsi Milli Teatr Günü münasibətilə təbrik edirəm. Azərbaycan teatrı yaşamağa və yaratmağa qadirdir. Azərbaycan aktyor məktəbi dünya miqyasında heç bir aktyor məktəbindən geri qalmır. Mən son illərdə buna Moskvada təhsil alarkən bir daha şahid oldum.

Əminlikdə qeyd edirəm ki, biz düzgün yoldayıq və bundan sonra da inkişaf edəcəyik.

Hər zaman sənət adamlarına diqqət və qayğı ilə yanaşan Prezident İlham Əliyevin 2013-cü il 1 mart tarixli Sərəncamı ilə ölkəmizdə "Milli Teatr Günü" təsis edilib. Sərəncama əsasən milli mədəniyyətin inkişafında və ölkənin mədəni həyatında milli teatrın əhəmiyyəti və rolu nəzərə alınaraq hər il martın 10-u Azərbaycan Respublikasında "Milli Teatr Günü" kimi qeyd edilməsi qərara alınıb. Həmin tarix ölkəmizin hər yerində silsilə tədbirlərlə qeyd olunur.

– Maraqlı söhbətə görə təşəkkür edirik.

Fidan ƏLİYEVA
XQ

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 44 (31013) 7 mart 2026-cı il, şənbə

İDMAN

“Türkmən atları” ilə əməkdaşlıq

Azərbaycan Respublikası Atçılıq Federasiyası (ARAF) ilə Türkmənistanın “Türkmən atları” Dövlət Birliyi arasında atçılıq idmanı və atçılıq idmanı sənayesi sahəsində əməkdaşlığa dair memorandum imzalanıb.

ARAF-dan verilən məlumata görə, sənəd Azərbaycan ilə Türkmənistan arasında atçılıq sahəsində əməkdaşlığın genişləndirilməsi, təcrübə mübadiləsinin aparılması və bu sahədə birgə fəaliyyət istiqamətlərinin inkişaf etdirilməsi məqsədi daşıyır.

Memoranduma əsasən, tərəflər atçılıq idmanı və atçılıq idmanı sənayesi sahəsində qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsi, texniki və məsləhət dəstəyinin göstərilməsi, informasiya mübadiləsinin aparılması, birgə layihələrin həyata keçirilməsi və müxtəlif əməkdaşlıq formatlarında iştirak etmək niyyətlərini ifadə ediblər.

Eyni zamanda, bu sənədin imzalanması ilə mütəxəssislərin beynəlxalq sərgilərdə, dəyirmi masalarda və müxtəlif tədbirlərdə iştirakının təmin olunması, həmçinin mütəxəssislərin hazırlanması və ixtisaslarının artırılması məqsədilə kurs, seminar və konfransların təşkili nəzərdə tutulub.

Bildirilib ki, memorandum Azərbaycan ilə Türkmənistan arasında atçılıq idmanı və atçılıq sənayesi sahəsində əməkdaşlığın inkişafına, bu sahənin beynəlxalq səviyyədə təşviqinə töhfə verəcək və imzalandığı tarixdən 5 il müddətində qüvvədə olacaq.

“Qan ver, həyat xilas et!”

Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş “Qan ver, həyat xilas et!” şüarı altında idman ictimaiyyətinin könüllü qanvermə aksiyası davam edir.

“İdman həftəsi” çərçivəsində Milli İdman Tibb və Reabilitasiya Elmi-Praktiki İnstitutunda təşkil olunan aksiyaya idman qurumlarının əməkdaşları, idmançılar, idman ictimaiyyətinin nümayəndələri, könüllülər, İdman Akademiyasının əməkdaşları və digər kateqoriyadan olan insanlar qoşulublar.

Aksiya zamanı qan verən şəxslərə tam gigiyenik şəraitdə tibbi xidmət göstərilir.

Qeyd edək ki, Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə reallaşan aksiya talassemiyadan əziyyət çəkən uşaqlara dəstək məqsədilə keçirilir.

Aydın Əlizadə də finala vəsiqə qazanıb

Azərbaycanın daha bir idman gimnastı Bakıda keçirilən Dünya Kubokunda finala vəsiqə qazanıb. Milli Gimnastika Arenasında keçirilən turnirdə Aydın Əlizadə dayaqlı tullanmada 13,733 xalla 7-ci yeri tutub.

O bu göstərici ilə dünya finalında iştirak etmək hüququ qazanıb.

Xəbər verdiyimiz kimi, yarışların ilk günündə Nikita Simonov halqalar üzrə hərəkətlərdə, Dəniz Əlizadə dayaqlı tullanmada finala yüksəliblər.

Qeyd edək ki, 35 ölkə təmsilçilərinin mübarizə apardığı Dünya Kuboku martın 8-də başa çatacaq.

Qabil YUSİFOĞLU
XQ

Telefon rabitəsi – 150

Tarixin səs inqilabı

Telefon məkanı zamana qovuşdurur

“Danışın... Danışın, eşidirəm sizi”. Bu sözlər Həsən Seyidbəylinin eyniadlı povesti əsasında 1961-ci ildə ekranlaşdırılmış “Telefonçu qız” filmindən bir çoxlarımıza tanışdır. Filmdə tez-tez səslənən bu sözlər insanları bir-birinə yaxınlaşdıran söz körpüsünə yol açırdı. Telefonçu qız üçün bu cümlə gündəlik işin söz açarı, xəttin o biri tərəfində danışan insanlar üçün isə sevincin, həsrətin, bəzən də ümidin başlanğıcı idi. Bəlkə də buna görə “Telefonçu qız” ifadəsi texnoloji ünsiyyətin rəmzinə çevrilib.



Əvvəllər bir məktub bəzən günlərlə, həftələrlə yol gedirdi. O vaxta qədər isə saysız-hesabsız suallar insana rahatlıq vermirdi: görəsən, məktub ünvana çatacaq? Sonra bir gün insan səsi tellərlə yol getməyə başladı. Canlı səs körpüsü insanları bir anda qovuşdurdu.

1876-cı il martın 7-də Aleksandr Qraham Bellin sınaqdan keçirdiyi telefon rabitəsi uzaq məsafələri yaxınlaşdırdı. Bir ananın uzaqda olan övladının səsini eşidərkən kövrəlməsi, iki dostun uzun ayrılıqdan sonra şirin söhbəti, sevənlərin xəttin o biri başından belə bir-birini hiss etməsi… Telefon bütün bu duyğuların səssiz şahidinə çevrildi.

Dünyanın ilk telefon stansiyası 1878-ci il yanvarın 28-də ABŞ-ın Nyu Haven şəhərində fəaliyyətə başladı. Stansiya cəmi 21 abunəçiyə xidmət göstərirdi və zənglər xüsusi kommutasiya lövhəsi vasitəsilə operator tərəfindən birləşdirilirdi. Sistem Corc Villard Coy tərəfindən hazırlanmışdı və bu qurğu sayəsində artıq bir telefon istifadəçisinin şəbəkədə olan digər abunəçilərlə də əlaqə yaratması mümkün olurdu.

Telefonun ilk ixtiraçısı Aleksandr Qraham Bell telefonda salamlaşmaq üçün alman dənizçilərinin işlətdikləri “Ahoy!” sözünü təklif edirdi. Lakin məşhur ixtiraçı Thomas Edison danışığa “Hello” sözü ilə başlamağın daha uyğun olduğunu irəli sürdü. Qısa müddətdə bu söz telefonda rəsmi salamlaşmaya çevrildi və müxtəlif dillərdə fərqli formalar aldı. Azərbaycan dilində istifadə etdiyimiz “Alo” sözü də məhz həmin “Hello” ifadəsinin dəyişmiş formasıdır.

Telefon şəbəkələrinin genişlənməsi ilə yeni peşə yarandı–telefon operatorluğu. 1878-ci il sentyabrın 1-də Boston şəhərində işə başlayan Emma və Stella Nutt bacıları dünyanın ilk telefonçu qadınları olub. Onlardan sonra telefon operatorluğu peşəsində qadınların sayı sürətlə artmağa başladı.

Telefon texnologiyası inkişaf etdikcə, yeni ideyalar da meydana çıxırdı. 1880-ci ildə Aleksandr Qraham Bell və onun köməkçisi Çarles Sumner Tainter “fotofon” adlı yeni rabitə cihazı yaratdılar. Bu qurğu səs siqnallarını elektrik naqilləri ilə deyil, işıq şüaları vasitəsilə ötürməyə imkan verirdi. Fotofon müasir simsiz rabitə texnologiyalarının ilkin ideyalarından biri hesab olunur və bir çox tədqiqatçılar onu bugünkü optik və simsiz rabitə sistemlərinin sələfi kimi qiymətləndirirlər.

Beləliklə, telefonun yaranması ilə başlayan texnoloji inkişaf prosesi insanların bir-biri ilə danışmasını asanlaşdırdı, yeni peşələrin formalaşmasına, rabitə infrastrukturunun qurulmasına və nəticə etibarilə müasir telekommunikasiya sistemlərinin yaranmasına yol açdı. Bugünkü rəqəmsal rabitə və internet texnologiyalarının təməlində də məhz həmin dövrün sadə, lakin inqilabi ixtiraları dayanır.

Bu gün isə texnologiyanın sürətlə dəyişdiyi dövrdə yaşayırıq. Mobil telefonlar vasitəsilə dünyanın istənilən nöqtəsi ilə əlaqə qura bilirik. Lakin bir vaxtlar insan səsinin uzaq məsafələrə çatdırılması yalnız xəyal kimi görünürdü. Zəng etmək üçün xüsusi telefon stansiyalarında çalışan operatorlara müraciət etmək lazım idi..

Belə telefonçulardan biri hazırda “Aztelekom” MMC-nin Şəbəkə texnologiyaları departamenti, Genişzolaqlı xidmətlər və transmissiya şöbəsinin müdiri Talıbzadə Əhmədovdur:

–Ali təhsilimi keçmiş Çingiz İldırım adına Azərbaycan Politexnik İnstitutunda, (indiki Azərbaycan Texniki Universiteti) “Elektron texnikası mühəndisi” ixtisası üzrə başa vurmuşam. Əmək fəaliyyətimə 1990-cı ildə rabitə sahəsində mühəndis kimi başlamışam. Sonrakı illərdə telekommunikasiya sektorunda müxtəlif vəzifələrdə çalışaraq bu sahədə təcrübə qazanmışam. Hazırda isə “Aztelekom” MMC-nin Şəbəkə texnologiyaları departamentində şöbə müdiri vəzifəsində fəaliyyətimi davam etdirirəm.

Bu peşəni seçərkən əsas məqsədim texniki avadanlıqların iş prinsiplərini dərindən mənimsəmək, peşəkar mütəxəssis kimi formalaşmaq idi. Telekommunikasiya sahəsində topladığım 36 illik təcrübə mənə həm texniki, həm də praktiki baxımdan ciddi bilik və bacarıqlar qazandırdı.

Peşə fəaliyyətimin ilk illərində iştirak etdiyim mühüm layihələrdən biri 1990-cı illərdə Şirvan şəhərində 5000 nömrə tutumlu telefon stansiyasının qurulması idi. Layihədə iştirak etmək bu sahədə ilk təcrübəm oldu və həmin dövrdə qazandığım praktiki biliklər gələcək fəaliyyətim üçün mühüm əsas yaratdı.

2009-cu ildə Prezident İlham Əliyevin Sərəncamı ilə “Əməkdar mühəndis” fəxri adına layiq görülməyim mənim üçün böyük qürur mənbəyi, həm də əməyin qiymətləndirilməsi kimi yaddaşıma həkk olunmuş ən unudulmaz hadisədir.

İllərin təcrübəsi bir daha göstərir ki, telekommunikasiya texnologiyaları daim inkişaf edir və yenilənir. Bu sahədə çalışan mütəxəssislər üçün isə ən vacib məsələ dəyişən texnologiyalarla ayaqlaşmaq, yenilikləri mənimsəmək və rabitə infrastrukturunun daha da təkmilləşdirilməsinə töhfə verməkdir.

Ləman TƏHMƏZ
XQ

Çinin kosmosda beyin sınağı

Çinli alimlər ilk dəfə olaraq simsiz implantasiya edilə bilən beyin-kompüter interfeysini kosmosda sınaqdan keçiriblər. Şimal-Qərb Politexnik Universitetinin hazırladığı cihaz ötən ilin dekabrında eksperimental platforma ilə orbitə göndərilib. Sınaq göstərib ki, beyin siqnallarını oxuyan sistem kosmosun çətin şəraitində sabit işləyir və sıradan çıxmır.

Eksperimentin məqsədi cihazın orbitdə nə qədər davamlı olduğunu yoxlamaq olub. Orqanizmdəki mayeləri təqlid edən mühitdə yerləşdirilən cihaz elektroensefaloqramma (EEQ) siqnallarını stabil şəkildə toplayıb. Bu isə göstərir ki, belə həssas texnologiya Yer atmosferindən kənarda da etibarlı işləyə bilər.

Tədqiqat həm də beynin çəkisizlik şəraitində necə dəyişdiyini daha yaxşı anlamağa kömək edir. Mikroqravitasiya zamanı bədəndə mayelərin yerdəyişməsi beyində müəyyən dəyişikliklər yaradır. Yeni texnologiya bu dəyişiklikləri real vaxtda izləməyə imkan verə bilər. Bu da uzun kosmik missiyalar zamanı, məsələn, Marsa uçuşlarda, kosmonavtların psixoloji və beyin sağlamlığını qorumağa kömək edə bilər.

Layihəyə professorlar Çan Hunlun və Tszi Boven rəhbərlik edib. Onların komandası beynin səthinə uyğunlaşan elastik elektrodlar hazırlayıb. Bu “yumşaq” elektrodlar toxumaya zərər vermir və uzun müddət stabil siqnal verir. Heyvanlar üzərində aparılan sınaqlarda bu sistem ənənəvi metal elektrodlarla müqayisədə daha yaxşı nəticə göstərib. Layihə beynəlxalq mikroelektromexaniki sistemlər konfransında mükafat da qazanıb.

Çin bu sahəni strateji istiqamət kimi müəyyən edib. Planlara görə, 2027-ci ilə qədər texnologiyanın səhiyyə və sənayedə tətbiqi genişləndiriləcək, 2030-cu ilə qədər isə ölkə bu sahədə dünya liderlərindən birinə çevrilməyi hədəfləyir. Bu texnologiya həm tibdə neyroreabilitasiyanın inkişafına kömək edə, həm də gələcək kosmik missiyalarda insan beyninin sağlamlığını qorumaqda mühüm rol oynaya bilər.

XQ

“Kapital Bank” ASC səhmdarlarının nəzərinə!

10 aprel 2026-cı il saat 11:00-da, Bakı şəhəri, Nəsimi rayonu, Neftçilər prospekti 153 nömrəli ünvanda yerləşən “Port Baku Towers 2” ofisində (17-ci mərtəbədə yerləşən “Silicon Valley” otağı) Bankın səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Səhmdarların növbədənkənar ümumi yığıncağının gündəliyinə aşağıdakı məsələlər daxil edilmişdir:

• “PAŞA Holding” MMC tərəfindən təşkilati strukturun təkmilləşdirilməsi və idarəetmə standartlarının yüksəldilməsi məqsədilə “Kapital Bank” ASC-nin nizamnamə kapitalında olan paylarının “PAŞA Holding” MMC-nin törəməsi olan “Bir Ekosistem” MMC-yə ötürülməsi haqqında.

Məruzəçi:
Arif Mehdiyev

“Xətai-Rabitə-Tikinti” ASC səhmdarlarının nəzərinə!

“Xətai-Rabitə-Tikinti” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 20 aprel 2026-cı il saat 14:00-da, Bakı şəhəri, Xətai rayonu, M.Hadi küçəsi 13X nömrəli ünvanda yerləşən inzibati binada aşağıdakı gündəlikdə keçiriləcəkdir:

1. “Xətai-Rabitə-Tikinti” ASC-nin 2025-ci maliyyə ili üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin təsdiqi.

2. Digər məsələlər.

Səhmdarlar ümumi yığıncağın gündəliyinin materialları ilə iş günləri saat 10:00-dan 18:00-dək, səhmdar cəmiyyətin Bakı şəhəri, Xətai rayonu, M.Hadi küçəsi 13X nömrəli ünvanda yerləşən inzibati binasında səhmdar cəmiyyətin idarə heyətinə müraciət etməklə tanış ola bilərlər.

Yığıncaqda iştirak etmək vacibdir.

Ünvan: Bakı şəhəri, Xətai rayonu, M.Hadi küçəsi 13X.

Qeyd: müəssisə əvvəlki yerindədir.

“Xətai-Rabitə-Tikinti” ASC-nin direktorlar (müşahidə) şurası

HAVA

Aranda yağış, dağlarda qar...

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı proqnozlaşdırılır. Gündüzdən bəzi yerlərdə arabir yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək, arabir güclənəcək.

Havanın temperaturunun gecə 3-6, gündüz 7-9 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 762 millimetr civə sütunundan 769 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 75-85 faiz təşkil edəcək.

Azərbaycanın qərb rayonlarından başlayaraq bəzi yerlərdə havanın arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı proqnozlaşdırılır. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 1-5, gündüz 6-11 dərəcə isti, dağlarda gecə 5-10, gündüz 0-5 dərəcə şaxta olacağı bildirilir.

Q.ƏLİYEV
XQ

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2957
SİFARİŞ 323
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Nurlan ABDALOV
Çapa imzalanmışdır 00:00